بســم الله الرحمن الرحيم

# VƏHHABİYYƏT İKİ YOL AYRICINDA

AYƏTULLAHÜL ÜZMA NASİR

MƏKARİM ŞİRAZİ

# BİRİNCİ FƏSİL

## SÜQUT AMİLLƏRİ

## VƏHHABİYYƏT ÖZ ÖMRÜNÜN AXIRLARINA YAXINLAŞIRMI?!

Sovetlər ölkəsinin dağılmasından öncə yazılan «Payani omri marksizm»[1] adlı kitabda tə`kid olunmuşdur ki, mövcud şahidlərə əsasən marksizm ömrünün sonuna yaxınlaşmışdır və çox qısa bir zamanda tənəzzül edəcəkdir. O kitabın müqəddiməsində belə deyilir: «Mənim e`tiqadıma görə, bu gün çoxları üçün çox acı və xoşagəlməz, bə`ziləri üçün isə bəlkə də qəribə olacaq bu gerçəkliyi qəbul etməliyik ki, məhsulu kommunizmdən ibarət olan marksizm özünün əzəmətli ömrünün sonuna yaxınlaşmış və hal-hazırda onun süqut mərhələsi başlamışdır. Daha aydın desək, azad bir təhqiqatçı nəzərindən marksizm keçmişə aid olan bir ideologiyadır ki, artıq onu yavaş-yavaş tarixin arxivlərinə qoymaq lazımdır!

Marksizm bütün təcrübələrini sınaqdan keçirsə də, özünün ideal (utopik) bəşər cəmiyyəti qarşısında verdiyi iltizamlara nail ola bilməmişdir. Məntiqi və fəlsəfi nəzərdən marksizm artıq ölü bir ideologiyadır, Marks, Engels və Leninin dünya üçün gördüyü yuxular çox hallarda yozumsuz qalmış, yaxud da ona verilən yozumlar düzgün çıxmamışdır!

Başqa sözlə, marksizm elə bir məktəbdir ki, artıq moddan düşüb köhnəlmiş, onun idealist yönləri artıq tamamilə aşkar olmuşdur.

Marksizm müxtəlif dünya ölkələrində guşəneşinliyə düçar olmuş, müxtəlif şaxələrdən ibarət olan onlarla dəstəyə parçalanmışdır ki, Mao marksizmi ilə Brejnevin marksizmi arasında və Titovun kommunizmi ilə Ənur Xoce kommunizmi arasında fərqlər vardır,

[1] Bu kitab «Cavan» nəşriyyatının vasitəsi ilə çap olunmuşdur.

onların hər ikisi də Fidel Kastro ilə fərqlidir və onların arasında çoxlu təzadlar gözə dəyir.[١]

Bəli, öncədən proqnoz verildiyi kimi, Sovet hökuməti dağıldı və marksist Sovet Rusiyasının bu qədər böyük iddialar və zəhmətləri heçə getdi, kapitalizm üsul-idarəsinin tezliklə məhv olacağı və marksizmin bütün dünyanı fəth edəcəyinə dair böyük iddiaları tarixin arxivinə yollandı!

Bu uzaqgörənlik nə qeyb elmi idi, nə də kəhanət; əksinə, marksizmin öz təbiətindən qaynaqlanırdı.

İndinin özündə də bütün şahidlərin göstərdiyi kimi, ifratçı vəhhabiliyin ömrü sona çatmış, özünün tərəfdarlarını və himayəçilərini sür`ətlə əldən verməyə başlamış və artıq tarixin arxivinə tapşırılmaqdadır. Bu tənəzzülün əsər-əlamətləri indinin özündə də görünməkdədir; çünki ifratçı vəhhabi prinsipləri daxilində elə işlər gizlənmişdir ki, xüsusilə hazırkı dünyada onun qalıb davam etməsi mümkün deyildir.

Bu prinsiplər aşağıdakılardan ibarətdir:

١- Son dərəcə qansızlıq və kobudluq;

٢- Əqidənin başqalarına zorla qəbul etdirilməsi;

٣- Son dərəcə ifratçı təəssüb;

٤- Mədəni-maarif dəyərləri ilə tanışlığın olmaması;

٥- İdeoloji donuşluq və hər növ yeniliklə müxalifət;

٦- Qur`anın altı kəlməsi barədə məntiqi zəiflik və düzgün olmayan çıxarışlar.

Bu məsələlər gələcək bəhslərdə ətraflı şəkildə izah olunacaqdır.

## ١-SON DƏRƏCƏ QANSIZLIQ VƏ KOBUDLUQ

İfratçı vəhhabilərin son dərəcə qansızlıq və kobudluğu kiməsə məxfi qalacaq şəkildə deyildir. Vəhhabilərin tarix boyu hərbi kafirlərə qarşı deyil, məhz müsəlmanlara qarşı törətdiyi kütləvi və amansız qırğınlar insanı dəhşətə gətirir.

[١] «Marksizmin ömrünün sonu», səh.١٠-١١. Bu kitab yuxarıda qeyd olunduğu kimi, ١٣٦٠-cı ildə (təqribən ٢٥ il bundan qabaq) və Sovet hökuməti dağılmamışdan öncə yazılmış və «Nəşri cavan» nəşriyyatı tərəfindən çap edilmişdir.

Kərbəla şəhərində şiələrin qanının su yerinə axıdılması, mal-dövlətinin qarət edilməsi və Kərbəla şəhərinin dağıdılıb yerlə-yeksan edilməsini hamı xatırlayır.[١]

Bundan da acınacaqlısı o dövrdə Taif əhalisinin və sünnü qəbilələrinin kütləvi şəkildə qətlə yetirilmələridir.

Bunlar göstərir ki, kobudluq və qansızlıq vəhhabi tə`limlərinin zatında, cövhərində mövcuddur. Bu müddəanın dəlili də onların küfr, iman, tövhid və şirk məsələləri barəsində çıxardıqları yanlış nəticələrdən ibarətdir. Belə ki, onlar istədikləri şəxsi çox sadə şəkildə şirklə müttəhim edərək, onun qanının axıdılmasına, mal-dövlətinin qarət edilməsinə dair hökm çıxarırlar. (Bunların hamısı tezliklə izah olunacaqdır.)

Amma sonradan qeyd edəcəyimiz kimi, qəti dəlillərə əsasən vəhhabilərin imamları bizim əsrin müsəlmanlarının vəziyyətini cahiliyyət dövründə olan müşriklərin vəziyyətindən qat-qat pis hesab edirlər. Belə bir mühakimə ilə onların müsəlmanların başına nə müsibətlər gətirəcəkləri aydın məsələdir. Bu barədə tarixə müraciət etmək də lazım deyildir; hazırkı əsrimizə bir baxış da kifayətdir.

Bu qansız şəcərənin (ağacın) acı meyvələrindən biri kimi əsrimizdəki «Taliban» və «Səhabə» ordusunu, bə`zi digər qruplarda olan terrorist «Əl-qaidə» təşkilatını görmüşük. Bunların hər biri İslamı dünya xalqlarının nəzərində çirkin qələmə verir. Bu da onların dünya səviyyəsində inkişafda olan İslama vurduğu zərbənin bərpaolunmaz olduğunu göstərir.

Əvvəlcə Taliban qrupu barəsində bir az söhbət edirik.

## TALİBAN QRUPU

Bu qrup ١٩٩٤-cü ildə Molla Məhəmməd Ömərin vasitəsi ilə, Əfqanıstanın cənubunda yerləşən Qəndəhar şəhərində yaradılmış və ١٩٩٦-٢٠٠١-ci illər arasında Əfqanıstanın böyük bir hissəsini öz ixtiyarına keçirmişdir.

Taliban qrupunun ilk hərəkətləri zəif şəkildə ١٩٧٩-٨٥-ci illər arasında büruz etmişdir. O günlərdə əfqanlarla SSRİ arasında

---

[١] «Unvanul-məcd fi tarixin-Nəcd», c. ١, səh.١٢١, «Tarixul-məmləkətis Səudiyyə», c. ٣, səh.٧٣.

müharibə davam edirdi və Əfqanıstanın siyasi fəzasına hakim olan hərc-mərclik Taliban hərəkatının inkişafına yaxşı fürsət yaratmışdı.

١٩٨٠-cı ildə Əfqanıstan SSRİ vasitəsilə işğal edildi, bu müharibə nəticəsində Əfqanıstanın mücahid qüvvələri Amerika tərəfindən himayə olundu. Lakin Sovet hökumətinin Əfqanıstanı işğal etməyi çox da çəkmədi.

Sovet qoşunlarının ١٩٨٩-cu ildə Əfqanıstandan geri çəkilməsi ilə yanaşı «Özbək», «Tacik» və digər kiçik qruplar nisbi qüdrət əldə etdilər. Məhz həmin dövrlərdə Taliban qrupu özünü «islamçılar» adı ilə təqdim etməyə başladı.

Əksəriyyəti paştu xalqından ibarət olan talibançılar qərara almışdılar ki, Kabuldakı mərkəzi hökuməti ələ keçirsinlər. Bu müddət ərzində Amerika tərəfindən silahla təchiz olunurdular!

Bu hərəkatın əvvəlində əksəriyyəti köçkünlər məntəqəsində yaşayanlar, yetimlər və qəyyumsuz insanlar olan minlərlə cavan bu orduya qoşuldu.

Talibançılar özlərini «sülh ordusu» (!) kimi təqdim edirdilər. Əksəriyyəti Pəştu olan və əvvəlki müharibələrdən, bu ölkəyə hakim kəsilən hərc-mərclikdən bezən bu şəxslər talibançıları himayə etməyə başladılar. Halbuki, Taliban qrupunun özəyini təşkil edənlərin çoxu Pakistanın ifratçı vəhhabi mədrəsələrində təhsil almışdılar.

Talibançılar ١٩٩٤-٩٥-ci illərdə Əfqanıstanın cənub və qərbində müharibəyə başladılar, Qəndəhar, Hərat və sair qonşu şəhərləri öz ixtiyarlarına keçirdilər. ١٩٩٥-ci ildə Kabulun ətraf məntəqələrinə qədər irəlilədilər, lakin həmin ildə hökumət qüvvələri tərəfindən geri oturduldular. Onlar Kabulu ələ keçirmək üçün cidd-cəhdlə çalışaraq, nəhayət ١٩٩٦-cı ildə bu şəhəri öz ixtiyarlarına keçirdilər və əlli min nəfəri qətlə yetirdilər! Bürhanuddin Rəbbani və Gülbüddin Hikmətyar ölkənin şimalına qaçdılar. Talibançılar Kabulu işğal etdikdən sonra Sovet hökuməti tərəfindən orada fəaliyyət göstərən Məhəmməd Nəcibullahı e`dam etdilər, ifratçı vəhhabi məzhəbinin quru qanunlarını icraya qoydular.

Taliban qüvvələrində ən yüksək məqama malik olan Molla Məhəmməd Ömər bu qrupun yüksək vəzifəli şəxslərindən təşkil olunan bir şura tə`sis etdi. Son qanun da Molla Məhəmmədin imzası ilə icra mərhələsinə qoyulurdu!

Taliban Kabul radiosu və maşınların üzərində qoyulmuş mikrofonlar vasitəsi ilə öz qanunlarını camaatın qulağına çatdırırdı. Kino-teatrların fəaliyyətini dayandırmışdılar, kişiləri şallaq zərbəsi ilə məscidlərə gəlib namaz qılmağa vadar edirdilər. Qız məktəbləri tamamilə bağlanmış, qadınların evdən xaricdə işləmələri qadağan edilmişdi. Nəticədə xəstəxana qulluqçularının əksəriyyəti işdən kənarlaşdırılmışdı. Halbuki, qadınların çoxu ərlərini müharibədə əldən vermiş və öz məişətlərini tə`min etməkdə aciz qalmışdılar.

Talibançılar müqəssirləri heç bir məhkəmə təşkil etmədən cəzalandırır, başlarını qoyun başı kimi kəsirdilər. Onlar üçün kimi öldürmələri çox da mühüm deyildi; istər sünni, istərsə də şiə, hər kəs onlarla müxalifət etsəydi, boynunu qılıncla vururdular.

Taliban rejimi Üsamə ben Laden üçün çox təhlükəsiz, əmin-amanlıq bir məkan icad etmişdi. Çünki o, ٨٠-cı onilliklərdə Əfqanıstanın xeyrinə və Sovet hökumətinin əleyinə çoxlu tədbirlər görmüşdü. Məhz bu müharibənin sonunda o, «Əl-qaidə» terrorist qrupunu təşkil etmiş, bu qrup da Talibanın qorunub-saxlanmasında çoxlu fəaliyyətlər göstərmiş və Talibanla çiyin-çiyinə olaraq şimalda e`tilaf (koalisiya) qrupu ilə müharibə aparırdılar.

Amerikalılar Ben Ladenin çox bacarıqlı və terrorist bir şəxs olduğunu dərk etmişdilər. Çünki, o, ١٩٩٨-ci ildə Keniyada və Tanzaniyada Amerika səfirliyinə hücum etmiş, nəticədə ٢٥٠ (yaxud ١٩٠) nəfər ölmüş, ١٤٠٠ nəfərdən çox adam yaralanmışdı!

Amerikalıların iddia etdiyinə görə, ١١ sentyabr hadisələri də Ben Ladenin vasitəsilə baş vermişdir. Aydın məsələ idi ki, Amerika Üsaməni Talibandan tələb edir, lakin Taliban qrupunun rəhbəri bu tələbə məhəl qoymurdu. Çünki o, Ben Ladenə borclu idi və öz mənafeyinin qorunub-saxlanmasını onda görürdü.

Oktyabr ayında Amerika özünün «terrorizm əleyhinə hücumlar»ını başladı və ilk hücumlarını talibançılara və «Əl-qaidə»yə yönəltdi. İngilislər də Amerika ilə eyni fikirdə olub bu işə kömək etdilər. Bu zaman şimaldakı e`tilaf qrupları da talibanın əleyhinə hərəkata başladı və Amerika tərəfindən himayə olundular, Kabul və sair mühüm şəhərləri ələ keçirdilər. Elə həmin ildə Taliban özünün əsas müqavimət qüvvəsini və Həratı əldən verdi itirdi.

Taliban öz qüdrətinin zirvəyə çatdığı bir dövrdə Pakistan,

Səudiyyə Ərəbistanı və Amerika kimi dövlətlər tərəfindən himayə olunurdu, lakin bu himayələr çox çəkmədi. Təxmini ehtimallara görə, Taliban hərəkatı ١٩٩٥-٩٦-cı illərdə öz terrorist əməliyyatlarını davam etdirmək üçün ildə yetmiş milyon dollar pula ehtiyac duyurdu. Hindistanda çap olunan «Təhlili stratejik» nəşriyyəsinin yazdığına görə, bu büdcənin ümdə hissəsi Səudiyyə Ərəbistanı tərəfindən tə`min olunurdu. Həftəlik "Nyuzvik" qəzeti bu məsələ ilə əlaqədar yazırdı: **«Riyaz şəhəri Taliban hərəkatının maddi və iqtisadi mənbələrinin ən mühümüdür!»**

Taliban qrupunun rəhbəri Molla Məhəmməd Ömər Səudiyyə Ərəbistanına etdiyi səfərdə bu ölkənin yüksək məqamlı şəxsiyyətləri ilə görüşüb söhbətlər aparmış, Riyaz da təqribən ١٠ milyon dollar məbləğdə pulu onun ixtiyarında qoymuşdu ki, özünün bu hesabsız-kitabsız terrorizm əməliyyatlarını davam etdirsin. Lakin qeyd etdiyimiz kimi, sonralar onların hamısı Talibana arxa çevirdi və Taliban hərəkatı tarixin zibilliyinə gömüldü.[١]

Talibanın törətdiyi saysız-hesabsız qətl və terrorist aktları görə amerikalılar – özləri də dünya terroristlərinin rəhbərlərindəndir – onlara hücum etdikdə nəinki Talibanı müdafiə etmədilər, əksinə onların süqut etməsinə də kömək göstərdilər. Əfqanıstan xalqını istismar etmək üçün Amerikanın yaratdığı bütün bu problemlərə baxmayaraq, Əfqan xalqı onları Talibandan yaxşı hesab edirlər, çünki onlar Talibanın terrorçuluğunun Amerikanın terrorçuluğundan daha kəskin olduğunu güman edirdilər.

Qeyd etdiyimiz kimi, Taliban qrupu qadınları və qızları təhsildən mütləq şəkildə məhrum edir, hər növ yeni həyat tərzilə, nə qədər faydalı və müsbət olsa da belə, mübarizəyə qalxır və onların hamısını «bid`ət» adlandırırdı.

Onlar kişiləri, uzun saqqal saxlamadığına görə danlayır və bə`zən həbs edir, ölkədə tiryək və nə`şə istehsalını genişləndirir, narkotik maddələrin istehsal və qaçaq yolla xarici ölkələrə göndərilməsinə layiqli kömək edirdilər. Bununla eyni zamanda hətta siqaret çəkilməsini belə, haram hesab edirdilər! Çünki, narkotik maddələrin istehsalından əldə olunan böyük gəlir vasitəsi ilə silah

---

[١] Dünyanın məşhur mətbuat və saytlarından götürülmüşdür.

əldə edir, öz din qardaşlarını qətlə yetirirdilər. Heç kəs bu əməli təzadları izah etməyə qadir deyildi: Siqaret çəkilməsi haram, uzun saqqal saxlanılması vacib, amma tiryək kimi haram olan narkotik maddələrin geniş miqyasda istehsal edilməsi caiz!

## SƏHABƏ ORDUSU

Şiələr və sünnilər Hindistan yarımadasında uzun əsrlər boyu bir-birinə yanaşı, müsəlman qardaşlar kimi yaşayırdılar. Amma təəssübkeş və qansız vəhhabilər şiələri kütləvi şəkildə qırmağa başladılar; onlar rəhmsiz terrorlara əl ataraq bu müsəlmanların qanını axıtmağa başladılar, çoxlu günahsız qadın, kişi, uşaq və ahıl qocaların qanını axıtdılar. Onlar da vəhhabilərlə mübarizəyə qalxdılar və təhlükəli, qorxunc bir mühit hər yeri bürüdü.

Dünya müxbirlərinin nəzərində bu ifratçı qrupun yaranıb inkişaf etməsi belədir:

Peyğəmbəri-Əkrəm (səlləllahu əleyhi və alih)-in ardıcılı olduğunu iddia edən və "səhabə ordusu" adlandırılan bu ordu sünnilərin bir firqəsindən ayrılan ifratçı qrupdur.

Bu qrup ٨٠-cı illərdə Movlana Həqnəvaz Cəhəngəvi tərəfindən tə`sis olunmuşdur. (Bu dövr İran İslam inqilabının ilk illərinə təsadüf edirdi.) Səhabə ordusunun yaradılmasında əsas məqsəd İran İslam inqilabının Pakistan xalqına qoyacaq tə`sirin qarşısını almaq idi.

Bu qrupun ən mühüm hədəflərindən biri imam Hüseyn (əleyhissalam)-a əzadarlıq mərasimi ilə mübarizə aparmaq və həqiqətdə o həzrətin qiyamına xələl yetirmək idi. Onlar «Xilafəti raşidi» adlı jurnalın nəşr olunduğu illərdə dəfələrlə bu istəyi irəli çəkmiş və Pakistan dövlətindən tələb etmişdilər ki, şiələrin bütün imamzadə və Hüseyniyyələrini yığışdırsın bütün orta və ali məktəblərdə «Aşura» əzadarlığının keçirilməsinin qarşısını alsın. Əlbəttə, bu istək Pakistan dövləti tərəfindən heç vaxt qəbul olunmamışdı.

Bu qrupun izlədiyi hədəflərdən digər biri də Pakistanda ١٩٧٩-cu ildən fəaliyyət göstərən «Cə`fəri hərəkatı» adlı şiə qrupu ilə qarşılaşmaq idi.

Səhabə ordusunun təşkil olunmasının əsas səbəblərindən biri də şiələrin ehtimali təhlükələri və onların hərbi qüdrət baxımından

inkişaf etmələrindən yaranan qorxu idi ki, bu da onların məntəqədə siyasi və məzhəbi cəhətdən inkişaf etməsindən qaynaqlanır.

Pərviz Müşərrəfin e`lan etdiyi faktlara əsasən, müxalif tərəflər arasında münaqişədə təkcə bir il ərzində qırx min nəfər qətlə yetirilmişdir. Səhabə ordusu şiələrə hücum etməzdən əvvəl Pakistanda yaşayan iranlıları da hücuma mə`ruz qoyur və iddia edirdilər ki, onlar İrandakı şiə hökuməti tərəfindən himayə olunur, buna görə də onları aradan götürmək lazımdır!

Səhabə ordusu istəyirdi ki, Pakistan rəsmi olaraq sünni ölkəsi kimi təqdim olunsun. Bu qrupun düzəltdiyi hərbi qala və səngərlər, əsas e`tibarı ilə, Pakistanın cənubunda, mərkəzində və çox əhali yaşayan Pəncab məntəqəsində, eləcə də Kəraçi sərhədlərində yerləşir. Bu qrupun dörd yüzdən artıq ofis və fəaliyyət mərkəzi var. Pəncab əyalətinin hər bir bölgəsində bu qrupun şaxələri mövcuddur və bu qrupun üzvlüyünə təqribən yüz min nəfər ad yazdırmış, xarici ölkələrdə də, o cümlədən, Birləşmiş Ərəb Əmirlikləri, Səudiyyə Ərəbistanı, Banqladeş, Kanada və s. fəaliyyət mərkəzləri açmışlar.

Pəncab əyalətindəki məktəb və dini mədrəsələrin çoxu bu qrupun vasitəsilə idarə olunur. Mövcud faktlara əsasən, Pakistandan xaricdə olan sünni mədrəsələrinin də çoxu Səhabə ordusunun qüvvələri və müəllimlərinin nəzarəti altında idarə olunur, onlar öz üzvlərinə müxalifləri terror etmək üçün tə`lim verirlər.

Mövlana Cəhəngəvi ١٩٩٠-cı ildə qətlə yetirildi. O, həmin ildə milli şura seçkilərində iştirak etmiş, lakin kifayət qədər rə`y toplaya bilməmişdi. Buna baxmayaraq, əvvəldə olduğu kimi, öz üzvləri arasında sevilirdi. Onun qətlə yetirilməsindən sonra Mövlana Ə`zəm Tariq bu qrupun məs`uliyyətini öhdəsinə götürdü.

Səhabə ordusu Taliban hərbçiləri vasitəsilə himayə olunurdu, Ə`zəm Tariq də Taliban qrupunun rəhbərini himayə edəcəyini aşkar şəkildə e`lan etmişdi. O da televiziya və kinoların qadağan edilməsi kimi qanunları şiddətlə dəstəkləyirdi.

Ə`zəm Tariq əvvəlcə «Ləşkəri Cəhəngəvi» tərəfindən himayə olunurdu, lakin sonralar, ٢٠٠٣-cü ilin fevral ayında özünün bu ordu ilə olan rabitəsini inkar və iddia edərək dedi ki, Səhabə ordusunun üzvlərindən bə`zisi İslam qanunlarının icrası naminə olan «sülh» üslubumuzdan bezmiş və «cəhəngəvi ordusunu» təşkil etmişlər.

Ə`zəm Tariq təqribən ١٠٣ dəfə şiə rəhbərlərinin terror olunmasını öhdəsinə götürməklə müttəhim olunurdu.

Bu qrupun büdcəsi və xərcləri ifratçı sünnilər, eləcə də Səudiyyə Ərəbistanında və Fars körfəzi məntəqəsində yaşayan sərmayədarlar tərəfindən tə`min olunurdu. Bə`zən də daxildəki ifratçı firqələr, o cümlədən «Cəmaəti İslami», «Cəmaəti üləmayi İslami» və sair həməqidələri tərəfindən himayə olunurdular.

٢٠٠١-ci ilin avqust ayının ١٤-də Pakistan dövləti ifratçı qrupların fəaliyyətlərinin dayandırılmasına dair qərar çıxartdı. Bu qərardan beş ay sonraya qədər bu qrup özünün ifratçı-terrorist fəaliyyətlərini, əvvəldə olduğu kimi, davam etdirirdi. Buna görə də Pərviz Müşərrəf ٢٠٠٢-ci ilin yanvar ayının ١٢-də bu qrupun fəaliyyətini qadağan etdi. Bunun ardınca Səhabə ordusu hücuma mə`ruz qaldı və onların üzvlərindən çoxu tutulub həbs edildi.

Bu hadisədən sonra Ə`zəm Tariq öz fəaliyyətini yeni bir ünvan altında – «Milləti İslamiyyə» adı altında başladı və xarici havadarlarının tərəfindən külli miqdarda pulla tə`min edildi.

٢٠٠٣-cü ilin noyabr ayının ١٥-də Pakistan dövləti bu qrupun fəaliyyətlərini yenidən qadağan etdi və bu qrupun aparıcı üzvlərini tutdu, bankdakı pullarını müsadirə etdi və onları, yığışdıqları yerlərdə –məscidlər, evlər və sair yerlərdə hücuma mə`ruz qoydu.

Pakistan dövləti özünə yeni ad alan bu qrupun digər fəaliyyətlərinin qarşısını almaq üçün həbs olunanlardan altı yüz nəfərini yüz min rupiyə cəriməyə məhkum etdi.

٢٠٠١-ci ilin oktyabr ayının əvvəllərində Ə`zəm Tariq də tutuldu. Həbsdə olmasına baxmayaraq ٢٠٠١-ci il ١٠ oktyabr seçkilərində iştirak etdi və kifayət qədər rə`y toplayaraq Pəncab əyalətinin federal məclisinin müstəqil bir üzvü kimi seçildi və nəticədə ٣٠ oktyabrda azad edildi.

Azad edildikdən bir neçə ay sonra Zəfərullahxan Cəmalinin seçilmiş dövləti tərəfindən himayə edildi və nəticədə şiələr əleyhinə ifratçı terrorist fəaliyyətlərini davam etdirməyə başladı.

Onun ٢٠٠٣-cü ilin oktyabr ayının ١١-də qətlə yetirilməsindən sonra məntəqədə təhlükəsizlik qüvvələri yerləşdirildi və sonrakı gün onun rəhbərliyi altında idarə olunan mədrəsənin üzvləri onun dəfn mərasimində çox təm-təraqla iştirak etdilər, İslamabaddakı Məclis

binasının qarşısında onun cənazəsinə namaz qıldılar, mərasimdən sonra iştirakçılar mağazalara, restoranlara və bir neçə kino-teatra hücum etdilər, oranı yandırıb çoxlu təxribatçılıq aktları törətdilər.[١]

Səhabə ordusunun adı hətta namaz qılanların arasında, məscidlərdə və Pakistan ölkəsinin hər bir yerində belə, çox qəribə terroristliyi və rəhmsiz qırğınları xatırladır.

## İRAQDA TERROR ƏMƏLİYYATLARI

İfratçı və təəssübkeş vəhhabilər son illərdə özlərinin terrorist çöhrələrinin digər birini İraqda aşkar etmişlər; onlar günahsız xalqı bacardıqları qədər qırmış, qadın-kişi, qoca-cavan, sünnü-şiə, kürd və sair millətləri hədəfə tuş etmiş və yer onların al-qanına boyanmış, tikə-tikə olmuş bədənləri xiyabanlara, çöllərə dağılmışdı.

Onlar bu dəhşətli terror aktlarını təkcə müsəlmanlara qarşı deyil, ümumiyyətlə bütün dünya xalqlarına qarşı törətmişlər. Dünya xalqları təəccüblə «görəsən bunlar insan qanına susamışlarmı?», «Bunların hədəfi nədir?» «Hansı məzhəbə tabedirlər?» - deyə soruşurlar.

Bə`ziləri israrla bu terrorist hərəkətləri İraqdakı «Bə`s» partiyasının tör-töküntülərinə aid edirlər ki, bu da böyük bir yanlışlıqdır; çünki bu terrorların çoxunda intihar əməliyyatlarından istifadə olunur ki, bə`sçilər bu üslubdan heç vaxt istifadə etmirdilər. Bu da yalnız özlərini müsəlman, digərlərini isə müşrik, qətlini vacib hesab edən təəssübkeş vəhhabilərin işidir!

## VƏHHABBİLƏRİN ÖZ MƏRKƏZİNDƏ TERRORİZM

Bunların hamısından da qəribə və dəhşətlisi budur ki, təəssübkeş vəhhabilər, hətta öz vəhhabi həmvətənlərinə belə rəhm etmirlər. Onlar Riyaz, Cəddə və digər məntəqələrdə törətdikləri partlayışlar nəticəsində öz günahsız həmvətənlərindən çoxunu qanına qəltan etmişlər.

Hətta bu ilin (١٤٢٥-ci hicri-qəməri, ٢٠٠٤-cü miladi) həcc mərasimində belə cümə namazının xətibləri namaz qılanların böyük

---

١ «Enkarta» adlı ensiklopediya və dünyanın məşhur informasiya vasitələrindən iqtibas olunmuşdur.

saylı yığıncağında bu qrupu məzəmmət və onların terrorist hərəkətlərini məhkum etməklə əlaqədar çoxlu bəhslər aparmış, «la təkfirə və la irhabə» – nə başqalarını kafir hesab etmək, nə də terror törətmək – şüarlarını verdilər. İş o yerə çatmışdı ki, Ərəbistan dövləti irhab (terrorizm) qarşısında mühüm bir konfrans təşkil etmiş və onlarla mübarizə aparmaq üçün müxtəlif ölkə başçılarını həmahəng bir proqram tənzim olunmasına də`vət etmişdir.

Amma «görəsən terroristlər kimlərdir?» sualının cavabı budur təəssübkeş vəhhabilərdir ki, özlərindən başqa hamını kafir hesab edir və onların qanını halal sayırlar.

Ərəbistan dövləti bu tədbirlərlə özünü vəhhabilərlə bir cərgədə olmaqdan kənara çəkmək və həmçinin, onların caynaqlarından xilas olmaq üçün çox tə`cili və qətiyyətli addımlar atılmasını istəyir.

***

Bu xoşagəlməz halların nəticəsində çox təəssüflə, İslamın adı dünya xalqlarının zehnlərində terrorizmlə yanaşı hallanmağa başladı, İslam müxaliflərinin əlinə çoxlu bəhanələr verdi, hətta ölkələrin çoxunda müsəlmanları «insan öldürən», «qatil» kimi təqdim etdilər. Əlbəttə, Amerikanın, xüsusilə sionistlərin apardığı zəhərli təbliğatlar da bu işə çoxlu kömək etdi; halbuki, İslam dini bəşəriyyətə sülh, ədalət, məhəbbət peyğamını bir töhfə və ərməğan gətirmişdir.

Hamının bildiyi kimi, Qur`anın ١١٤ surəsi vardır və bir surə istisna olmaqla onların hamısı Allahın xüsusi və ümumi rəhmətinə işarə edən "Rəhman" və "Rəhim" adları ilə başlanır. Bir istisna halı isə, müsəlmanlarla sülh müqaviləsini pozan şəxslərə qarşı müharibə e`lan etdiyindən, «bismillah»la başlanmır.

Qur`an tam aşkar şəkildə Peyğəmbəri-Əkrəm (səlləllahu əleyhi və alih)-ə buyurur:

***«Biz səni kobud, daşürəkli qərar vermədik; əgər belə etsəydik, camaat sənin ətrafından dağılışardı.»***[١]

İslam rəvayətlərində də oxuyuruq: *"Həlid-dinu illəl hubb – yə`ni din məhəbbətdən başqa bir şeydirmi?!"*[٢] Allaha, Peyğəmbər (səlləllahu əleyhi və alih)-ə, saleh insanlara, Allahın yaratdığı bütün məxluqata məhəbbət. Lakin bünövrəsi məhəbbət əsasında qurulan bu

---

[١] «Ali İmran» surəsi, ١٥٩

[٢] «Kafi», ٨-ci cild, səh.٨٠.

müqəddəs din vəhhabi qruplarının törətdiyi terrorist əməllər nəticəsində elə bir vəziyyətə düşmüşdür ki, İslamın çöhrəsinin çirkin və qarışıq göstərilməsi üçün müxaliflərin əlinə çox sadə bəhanələr verir.

## VƏHHABİ RƏHBƏRLƏRİNİN TƏ`LİMLƏRİNDƏ TERRORİZMİN KÖKÜ

Əvvəlcə vəhhabi məsləkinin banisinin həyatını qısa şəkildə bəyan və şərq və qərb tarixçilərinin yazdıqlarına əsasən, bu barədə bir qədər mə`lumat təqdim edirik.

Məşhur bir məsələdir ki, vəhhabi məzhəbinin rəisi olan Məhəmməd ibni Əbdül-Vəhhab ١١١٥-ci hicri ilində Hicazın kiçik şəhərlərindən biri olan Üyeynədə dünyaya gəlmiş və ١٢٠٧-ci ildə dünyadan getmişdir. Onun atası hənbəli qazilərindən idi və uşaqlıqda oğluna elm öyrətmişdi.

«İzalətuş-şubəhat» kitabının müəllifi yazır: O, uşaqlıq yaşlarından hicrətin ٨-ci əsrində yaşayan İbni Teymiyyənin və İbni Qəyyim Covzinin kitablarını oxumağa çox maraq göstərirdi və öz fikirlərinin əsasını bu iki şəxsdən götürmüşdür.

Çoxları yazmışlar ki, atası Məhəmmədin elə cavanlıq yaşlarından çoxlu ideoloji səhvlərə yol verdiyini başa düşmüşdü və onun gələcəyindən nigaran idi: onu daim danlayır və bu işlərdən çəkindirirdi.

Məhəmməd ibni Əbdül-Vəhhab çoxlu səfərlər etdi: əvvəlcə Məkkə və Mədinə, sonra Bəsrəyə getdi, ordan İsfahana gəldi, bir müddət İsfahanda Mirzəcan İsfahani adlı bir alimin yanında dərs oxudu, sonradan Quma gəldi və orada bir müddət qaldı. Bundan sonra Osmanlı hökumətinə, Şama, Misirə getdi və sonra Cəzirətul-Ərəbə (Nəcdə) qayıdıb öz əqidələrini aşkar etməyə başladı.

Əvvəldə bir qrup onunla müxalifətə qalxdılar və onu Hərimələ şəhərindən qovdular. O isə Uyeynə şəhərinə getdi. Onun düzgün olmayan əqidə və yanlış fikirlərinin xəbəri Ehsa və Qətifin əmiri Süleyman ibni Məhəmmədə çatdı. O Uyeynənin hakimi Osmana göstəriş verdi ki, Məhəmmədi tutub qətlə yetirsin. Lakin Osman, əli onun qanına batmasın deyə, onun şəhərdən ixrac olunmasına dair göstəriş verdi.

Nəhayət o, Dir`iyyə şəhərinə sığındı. Məntəqənin hökmranı Ənizə qəbiləsindən olan Məhəmməd ibni Səud idi. Şeyx Məhəmməd onunla görüşüb öz fikirlərini ona təqdim etdi və söz verdi ki, onun köməkləri nəticəsində bütün Nəcd əyalətinə hakim kəsilə bilər!

Səudi padşahlarının cəddə babası Məhəmməd ibni Səud hiss edirdi ki, öz hakimiyyət dairəsini genişləndirmək üçün Məhəmməd ibni Əbdül-Vəhhabın varlığından kömək ala bilər. Bu zaman bir qrup ehsasatlı, ifratçı (emosional) cavan onun ətrafına yığışaraq, onun fərmanı qarşısında candan-başdan keçməyə hazır olduqlarını bildirdilər. Onlar İbni Səudun hədəflərinin həyata keçirilməsi üçün yaxşı qüvvə hesab olunurdular.

İbni Səud Şeyxi iki şərtlə himayə və müdafiə etməsini qəbul etdi. Birincisi bu idi ki, Şeyx ondan başqa heç kəslə əlaqə bərqərar etməsin. İkincisi isə bu idi ki, hər il Dir`iyyə şəhərinin əhalisindən aldığı vergiləri yenə də alsın! Şeyx birincini qəbul etdi, lakin ikincini üstüörtülü şəkildə rədd edərək dedi: «Ümidvaram ki, Dir`iyyə şəhərinin vergilərindən daha artıq qənimətlər və fəthlər sənə nəsib olacaq!»

Unutmaq olmaz ki, Şeyx Məhəmmədin nəzərdə tutduğu bu qənimətlər əvvəlcə Hicaz, Məkkə, Mədinə, sonra isə sair İslam ölkələrinin müsəlmanlarının şəxsi və ümumi əmlakı idi; itaət etməyəcəkləri surətdə müsadirə edilərək onlardan alınmalı idi; çünki, əvvəldə dediyimiz kimi, o öz tabeçilərindən başqa hamını müşrik, qanını halal, əmlakını isə mübah sayırdı.

Məhəmməd ibni Əbdül-Vəhhabın ardıcılları Hicazın müxtəlif şəhərlərinə hücum edərək vəhhabiliyi yaymaq və həqiqətdə ölkə sərhədlərini genişləndirmək üçün çox dəhşətli qırğınlar törədərək nahaq qanlar axıtdılar və camaatın mal-dövlətini tarac etdilər.

Məhəmməd ibni Əbdül-Vəhhabın ölümündən sonra Səudi padşahları onun proqramlarını davam etdirdilər və öz hökumət dairələrini genişləndirib bütünlükdə Nəcd və Hicaz əyalətlərinə hakim kəsildilər.

***

Vəhhabiyyət tarixində qeyd olunan, hətta vəhhabi tarixçilərinin belə e`tiraf etdiyi ən dəhşətli cinayət və çirkin əməllərindən biri Taif şəhərinin əhalisinin kütləvi şəkildə qırılması, bundan da dəhşətlisi

İraq və Kərbəla əhalisinin kütləvi şəkildə qətlə yetirilməsi idi.

Vəhhabilər ١٢١٦-cı ildə (Məhəmməd ibni Əbdül-Vəhhabın vəfatından təqribən ١٠ il sonra) qənimət əldə etmək, ölkə sərhədlərini genişləndirmək və zahirdə tövhidi (əlbəttə, öz gümanlarına görə tövhid hesab etdikləri şeyləri) yaymaq üçün bir neçə dəfə Kərbəla və Nəcəf şəhərlərinə hücum etdilər. Əli (əleyhissalam)-ın ziyarət mövsümündə yaranan fürsətdən istifadə edərək (Kərbəla əhalisindən çoxu da Nəcəfə gəlmişdi) Kərbəlaya qəfil hücum etdilər, şəhər divarını uçurtdular və şəhərə daxil olub küçə-bazarda qarşılaşdıqları minlərlə qadın və uşağı qətlə yetirdilər, yolları üzərində ələ keçirdikləri hər bir şeyi qarət etdilər. İmam Hüseyn (əleyhissalam)-ın hərəmində olan nəfis əşyaları götürdükdən sonra oranı dağıtdılar, oradakı bütün cəvahiratları ələ keçirdilər.

Bə`ziləri bu hücumda qətlə yetirilənlərin sayını ١٥٠ min nəfər yazmış və demişlər ki, bu qırğından sonra Kərbəlanın küçələrindən qan seli axırdı. Maraqlıdır ki, onlar bu yaramaz işin adını «cihad fi səbilillah» və «tövhidin yayılması uğurunda mübarizə» adlandırırdılar.

Şərq və qərb tarixçilərinin çoxu, hətta səudi tarixçiləri belə Kərbəla faciəsini qeydə almışdır. Bu barədə «Tarixul-məmləkətil-Ərəbiyyətis-Səudiyyə», «Ünvanul-məcd fi tarixin-Nəcd», müasir şərqşünas Nasi Lifin yazdığı «Tarixul-Ərəbiyyətil-Səudiyyə» Seyyid Cavad Amulinin yazdığı «Miftahul-kəramə» və digər kitablara baxa bilərsiniz. [١]

Bir daha vəhhabiyyətin terrorist hərəkətlərinin kökünü araşdırırıq.

Məhəmməd ibni Əbdül-Vəhhab bir neçə kiçik kitabça yazmış və onlarda öz əqidəsini aşkar şəkildə bəyan etmişdir. Onun İslam elmləri barəsində mə`lumatı və savadı çox az idi, İslamın mühüm elmiyyə hövzələrində və böyük alimlərin yanında heç vaxt dərs oxumamışdı. Buna görə də çox böyük səhvlərə yol verir və öz səhvlərini də təəssüblə, israrla müdafiə edirdi.

---

[١] Vəhhabiyyətin macəra dolu əqidə və tarixi barəsində yazılan aşağıdakı kitablara müraciət edə bilərsiniz: «Əl-islam fi qərnil-işrin», «Cəzirətul-ərəb fi qərnil-işrin, «Tarixul-Ərəbiyyətis-Səudiyyə», «Tarixun-Nəcd» (Alusi), «Kəşful-irtiyab», Tarixi vəhhabiyyun (Mərhum Fəqihi.)

Onun kitablarından biri «Kəşfuş-şubəhat»dır. Bu kiçik kitabı, – adından da göründüyü kimi – İslam alimlərinin (əsas e`tibarı ilə sünnülərin) ona tutduğu iradlara cavab olaraq yazmışdır.[١]

Həmin kitabın araşdırılıb tədqiq edilməsi vəhhabiyyət əqidəsində terrorizmin köklərini anlamaq üçün kifayətdir:

١-O, tövhid və şirk məsələləri barəsində düzgün olmayan mə`lumata malikdir və gələcək bəhslərdə qeyd edəcəyimiz kimi, Allah yanında Peyğəmbəri-Əkrəmdən şəfaət istəyən şəxslərin hamısını, bu işin Qur`anın ayələri və rəvayətlərlə tam uyğun olmasına baxmayaraq müşrik və kafir bilir, belə bir şəxsin canı, malı və namusunu mübah hesab edir.[٢]

Şübhəsiz, vəhhabilərdən başqa bütün müsəlmanlar – istər şiə, istərsə də sünnilər Allah dərgahında Peyğəmbəri-Əkrəmdən şəfaət istəyirlər, buna görə də onların hamısı kafirdir, onların malı, canı, qanı və qadınlarının namusu vəhhabilər üçün halaldır!

٢-Onlar bu barədə ifrata varıb aşkar şəkildə deyirlər: Bizim dövrümüzün müşrikləri Peyğəmbərin müharibə apardığı müşriklərdən daha pisdirlər! İki dəlilə görə: Əvvəla, Peyğəmbər (səlləllahu əleyhi və alih) dövrünün müşrikləri Allahdan qeyrisinə yalnız aramlıq halında təvəssül edirdilər; lakin Qur`an ayələrinə əsasən, bəlaya düçar olduqları (məsələn dəryada təlatümə düşdükləri) zaman Allaha xaliscəsinə təvəssül edirdilər:

فَإِذَا رَكِبُوا فِي الْفُلْكِ دَعَوُا اللَّهَ مُخْلِصِينَ لَهُ الدِّينَ فَلَمَّا نَجَّاهُمْ إِلَى الْبَرِّ إِذَا هُمْ يُشْرِكُونَ

«Ənkəbut» surəsi, ٦٥

Lakin bizim dövrümüzün müşrikləri hər bir halda həm firavanlıq və asayişdə, həm də bəlalarda Allahdan qeyrisinə təvəssül edirlər.

İkincisi, cahiliyyət dövrünün müşrikləri daş və taxta parçalarına pərəstiş edirdilər ki, onların hamısı da Allahın məxluqu və Ona müti idi. Lakin bizim əsrimizin müşrikləri fasid şəxslərə pərəstiş edirlər!

---

[١] Bu proşuranı şərh edənlərdən biri Məhhəmməd ibni Saleh Əsimindir ki, o, nisbətən mö`tədil və savadlı olmuşdur, lakin çox təəssüflə, ya öz məqamını əldən vermək qorxusundan, yaxud da təqiyyə üzündən çalışmışdır ki, Məhəmməd ibni Əbdül Vəhhabın sözlərini (çox az hallar istisna olmaqla) yozsun. Bizim nəql etdiklərimiz də bu kitabın mətnindəndir.

[٢] «Kəşfuş-şübəhat»ın, şərhi (Əsimin), səh.٨١.

(Zahirən, onun məqsədi sufi başçılarından bə`ziləridir).[١] Bunula da onların malı və namusu daha artıq mübah olacaqdır!

Əlbəttə, bu kimi çıxarışlar bir sıra müğalitələrin nəticəsidir ki, kitabın son fəslində onları bəyan edəcəyik. Burada məqsədimiz onların özlərindən qeyrilərinin canı, malı və namusuna qarşı rəva gördükləri hörmətsizliklərin kökünü axtarmaqdır.

٣-Onların terrorist əməllərinin nümunələrindən biri də budur ki, öz müxalifləri ilə – onlar sünni alimlərdən böyük bir qrupudur – söhbət edərkən çox çirkin və təhqiramiz sözlərlə yad edirlər. O cümlədən, bir dəfə «ey müşrik!»[٢], digər yerdə «ey ə`daullah (Allahın düşmənləri)!»[٣] başqa bir yerdə isə «lil-müşrikinə şubhətun uxra – müşriklər üçün digər bir şübhə vardır!»[٤] Başqa bir yerdə: «haulail-müşrikunəl-cuhhal – bu cahil müşriklər.»[٥] Digər bir yerdə «ə`daut-tövhid» tövhid düşmənləri[٦] deyə xitab edir. Bə`zən də deyilir ki, bir savadsız, avam adam müşriklərin alimlərindən min nəfərinə qələbə çalar (şəfaətə e`tiqadlı olan müsəlmanlar nəzərdə tutulur).[٧]

Əvvəllər qeyd edildiyi kimi, bu məzhəbin rəhbəri İslam tə`limlərindən çox az faydalanmışdır. Belə nəzərə çarpır ki, böyük alimlərin cavablandırması qarşısında əsəbiləşdiyinə görə onlara bu cür kobud, təhqiramiz sözlərlə xitab etmiş və onların hamısını küfr, şirk, cəhalətlə müttəhim etmişdir. Halbuki, Qur`ani-məcid tam aşkar şəkildə buyurur:

وَلاَ تَقُولُواْ لِمَنْ أَلْقَى إِلَيْكُمُ السَّلاَمَ لَسْتَ مُؤْمِنًا تَبْتَغُونَ عَرَضَ الْحَيَاةِ الدُّنْيَا

*"Əmvalını müharibə qəniməti kimi ələ keçirəsiniz deyə, zahirdə müsəlman olduğunu deyən və sizinlə sülh edən adamlara "sən müsəlman deyilsən!" deməyin!"*[٨]

---

[١] «Şərhi kəşfiş-şübəhat», səh.١٠٠.)
[٢] «Şərhu kəşfiş-şübəhat», səh.٧٧.
[٣] Yenə orada, səh.٧٩.
[٤] Yenə orada, səh.١٠٩.
[٥] Yenə orada, səh.١٢٠.
[٦] Yenə orada, səh.٦٥.
[٧] Yenə orada, səh.٦٨.
[٨] «Nisa» surəsi, ayə:٩٤.

## QƏTL-QARƏT ÜÇÜN İCAZƏ!

Yuxarıda qeyd olunanlardan anlamaq olar ki, nə üçün taliban, əl-qaidə və sair təəssübkeş vəhhabilər dünyanın müxtəlif yerlərində müsəlmanların qanını asanlıqla tökür, onların mal-dövlətini qarət edirlər.

Talibanların Əfqanıstanda qırdıqları insanların əksəriyyəti (istər sünni, istərsə də şiə), eləcə də əl-qaidənin və vəhhabi təəssübkeşlərinin Pakistanda və İraqda terror nəticəsində öldürdükləri şəxslərin hamısı müsəlman idilər...

Bu qrupun bu qədər rəhmsiz, qansız olmasının əsl səbəbkarı kimdir? Cavab: Qeyri-vəhhabilərin hamısını müşrik sayan, onların mal-dövlətini, namusunu mübah hesab edənlərdir! Təəccüblü deyildir ki, bu məzhəb tərəfdarlarının axıtdığı qanlar, əsas e`tibarı ilə, müsəlman qanı, qarət olunan mal-dövlətin hamısı da müsəlman mal-dövləti olmuşdur.

## TERRORİZM VƏ İSLAMIN KÖKSÜNƏ ENDİRİLƏN AĞIR ZƏRBƏLƏR

Tarix boyu çox az insanlar İslama təəssübkeş vəhhabilər qədər zərbə vurmuşlar. Halbuki, İslam dini, rə`fət və rəhmət dinidir, hər işin Allahın ümumi və xüsusi rəhmətinin nişanəsi olan Rəhman və Rəhim adı ilə başlanmasına tövsiyə edir.[١]

Həmin din buyurur ki, *hətta müşriklər belə dində təhqiqat aparmaq üçün sizin yanınıza gəlsələr, onlara pənah verin ki, Qur`an ayələri barəsində təhqiqat aparsınlar və sonra onları öz vətəninə qaytarın (istər İslamı qəbul etsin, istərsə də etməsin.)*[٢]

Elə bir İslam ki, *«pisliklər qarşısında yaxşılıq edin»* – deyə əmr edir ki, sizin inadkar düşmənləriniz bu qədər mehr-məhəbbətdən (xəcalət çəksinlər və) sizinlə dost olsunlar.[٣]

Elə bir İslam ki, *«din məhəbbətdən başqa bir şeydirmi.!»*[٤] - deyə buyurur.

---

[١] «Əl-bəyan» təfsiri, cild ١, səh.٤٦١.
[٢] «Tövbə» surəsi, ayə:٦.
[٣] «Fussilət» surəsi, ayə:٣٤.
[٤] «Xisal», səh.٢١, İmam Sadiq Æ-dan.

Bəli, vəhhabilər bu qədər lətif, ülvi, gözəl və məhəbbətlə dolu olan İslamı o qədər çirkin göstərirlər ki, dost-düşmən ona nifrət və bezarlıq edir.

Bizim əsrimizdə isə İslamın cazibəsi öz işini görmüş və *«dəstə-dəstə Allah dininə daxil olarlar»* («Nəsr», ٢) ayəsinə uyğun olaraq insanlar dəstə-dəstə müsəlman olurlar. Lakin bu təəssübkeş və kobud insanların əməlləri İslamın geniş miqyasda yayılmasının qarşısını alır və İslama, müsəlmanların köksünə ağır zərbələr endirirlər! Pərvərdigara, onları düz yola hidayət et!

## QƏRİBƏ TƏZAD

Çox qəribə haldır ki, bu məzhəb sayəsində hakimiyyətə gələn bir hökumət (Səudiyyə Ərəbistanı) bu deyilənlərə diqqət yetirmədən bütün dünya ölkələri ilə – İslami ölkələrdən tutmuş, qeyri-İslami dövlətlərə qədər – siyasi, iqtisadi və mədəni əlaqələr qurmuşlar, yə`ni onlar dünyanın bütün müşrikləri ilə dostdurlar!

Onlar bütünlüklə Məkkə və Mədinəni «müsəlman müşriklərini» qəbul etmək üçün ən gözəl otellər ocağına çevirmişlər! Hər il həcc və ümrə mərasimini yerinə yetirmək üçün müsəlmanlar oraya gəlir və vəhhabilər «şirk əhlini» ən gözəl şəkildə qarşılayırlar! Bu müşriklər onlar üçün çox böyük məbləğdə qazanc gətirirlər, Qur`ani-kərim isə belə buyurur:

يَا أَيُّهَا الَّذِينَ آمَنُواْ إِنَّمَا الْمُشْرِكُونَ نَجَسٌ فَلاَ يَقْرَبُواْ الْمَسْجِدَ الْحَرَامَ بَعْدَ عَامِهِمْ هَـذَا وَإِنْ خِفْتُمْ عَيْلَةً فَسَوْفَ يُغْنِيكُمُ اللّهُ مِن فَضْلِهِ إِن شَاء

***«Ey iman gətirənlər! Müşriklər nəcisdir, onları bu ildən e`tibarən Məscidul-Harama qoymayın; əgər yoxsulluqdan qorxursunuzsa, (bilin ki,) Allah sizi Öz mərhəməti ilə ehtiyacsız edəcəkdir.»*** [١]

Doğrusu, nə üçün burada müşriklər tövhidçi olur və Allah qonaqları kimi məhəbbətlə, alqışla qarşılanır, vəhhabilər böyüklü-kiçikli öz evlərini onların ixtiyarına verirlər?!

---

[١] «Tovbə» surəsi, ayə:٢٨.

## AŞKAR ŞƏKİLDƏ E`LAN EDİRİK...

Mən İslam elmlərinin xidmətçilərindən biri kimi uca səslə deyirəm: Bu terrorist qrupun (təəssüblü vəhhabilərin) İslam barəsində təqdim etdikləri sima bu dinin həqiqi siması deyildir; əksinə, İslam elmlərindən çox az miqdarda bəhrələnən və İslam alimlərinin əksəriyyəti tərəfindən müxalifətlə qarşılanan bir qrupun şəxsi əqidəsidir.

Biz kitabın son bölməsində Qur`anın və İslam hədislərinin aşkar buyuruğu əsasında onların bu çıxarışda xətaya yol verməlırini aydınlaşdıracağıq ki, onların arasında olan və məntiqi dəlilləri qəbul edən mö`tədil əqidəli şəxslər İslamın düzgün yolunun vəhhabilikdə deyil, başqa yerdə olduğunu bilsinlər.

Mən böyük İslam alimlərinin qarşısında tə`zim edir və onların hamısından xahiş edirəm ki, əl-ələ verib bir səslə desinlər: Özlərindən başqa hamını müşrik hesab edən və buna görə də onların qanını və malını mübah (hədər) hesab edən bu kiçik təəssübkeş qrup İslamın həqiqi nümayəndələri deyildirlər. Aydındır ki, bugünkü dünyada belə məzhəbə heç bir yer yoxdur, onlar artıq süqut və tənəzzül mərhələsindədirlər və onların ömrü artıq sona çatmışdır. Biz mehr-məhəbbətdən ibarət olan İslam dinini dünyaya özünün həqiqi formasında təqdim etməliyik ki, hamı tərəfindən qəbul olunsun, İslam özünün genişmiqyaslı inkişafına həmin qaydada davam etsin, məzlum təbəqələrin qəlblərini və fikirlərini ayıldıb təsxir edərək öz ixtiyarına keçirsin.

Hamısından qəribəsi budur ki, bu qrupun törətdiyi cinayətlər özlərinin hakimiyyətə gətirdiyi hökumətin (Ali Səud hökumətinin) boğazını tıxmış və onlar Səudiyyə ölkəsində çox dəhşətli terrorlar icad etmişlər, hətta Səudiyyə dövləti belə, onların yerli əhali üçün yaratdığı təhlükələri e`tiraf etmiş, onların fəaliyyət hüdudlarını məhdudlaşdırmaq qərarına gəlmiş və vəhhabilərin dini mərkəzlərində tədris olunan tə`limatlara yenidən baxılmasına – təftişə başlamışdır. Bu dövlət ifratçı şəxsləri məscidin imamətindən kənarlaşdırmışdır ki, bu da təəssübkeş vəhhabiyyətin ömrünün sona çatmasına dair bir dəlildir, çünki onlara özünün yaranma mərkəzində belə artıq yer yoxdur.

## ٢-ƏQİDƏNİN ZORLA QƏBUL ETDİRİLMƏSİ

İslam dininin danılmaz prinsiplərindən biri də müxtəlif İslam firqələrinin bir-biri ilə qarşılıqlı anlaşmada yaşamasıdır, bu da məntiqi və dostcasına olan yollarla mümkündür. Qur`an hətta qeyri-müsəlmanlar barəsində də həmin göstərişi vermişdir:

ادْعُ إِلِى سَبِيلِ رَبِّكَ بِالْحِكْمَةِ وَالْمَوْعِظَةِ الْحَسَنَةِ وَجَادِلْهُم بِالَّتِي هِيَ أَحْسَنُ إِنَّ رَبَّكَ هُوَ أَعْلَمُ بِمَن ضَلَّ عَن سَبِيلِهِ وَهُوَ أَعْلَمُ بِالْمُهْتَدِينَ

***"(İnsanları) hikmətlə, gözəl öyüd-nəsihətlə pərvərdigarının yoluna də`vət et; Həmin üslub ki, daha gözəldir, onunla dəlil gətirib mübahisə apar. Pərvərdigarın hər kəsdən daha yaxşı bilir ki, kim Onun yolundan azmışdır və O, hidayət olunanları daha yaxşı tanıyır."***[١]

Başqa bir ayədə isə buyurur:

وَلَا تُجَادِلُوا أَهْلَ الْكِتَابِ إِلَّا بِالَّتِي هِيَ أَحْسَنُ إِلَّا الَّذِينَ ظَلَمُوا مِنْهُمْ وَقُولُوا آمَنَّا بِالَّذِي أُنزِلَ إِلَيْنَا وَأُنزِلَ إِلَيْكُمْ وَإِلَهُنَا وَإِلَهُكُمْ وَاحِدٌ وَنَحْنُ لَهُ مُسْلِمُونَ

***"Kitab əhli ilə, ən yaxşı yoldan başqa bir yolla mübahisə etmə! Yalnız onlardan zülm edənləri istisnadır, (onlara) de: Biz Allah tərəfindən bizə və sizə nazil olanların hamısına iman gətirmişik, bizim və sizin mə`budunuz vahiddir və biz Onun qarşısında təslimik."***[٢]

İslam dini heç vaxt yol vermir ki, bir kəs öz müxaliflərinə «müşrik cahillər», «Allah düşmənləri», «tövhid düşmənləri» və sair kimi çirkin sözlərlə xitab edərək yalnız özünü İslamın mehvəri hesab etsin, küfr və şirk şallağını hər kəsin başına endirsin. Həmən iş ki, bu cəmiyyət özünün əksər kitablarında qeyd etmişdir.

Müsəlmanlar İslamın e`tiqadi və tə`lim prinsiplərində bir-birilə müştərəkdirlər, İslam alimləri müəyyən cüzi məsələlərdə ixtilafı nəzərə malik olsalar da, fiqhi məsələlər baxımından bir-biri ilə müttəhiddirlər.

Bu nəzər ixtilafları onların arasında çəkişməyə, çarpışmaya və qan axıdılmasına səbəb olmamalı, əksinə məntiqi dəlillər, düzgün

---

[١] «Nəhl» surəsi, ayə:١٢٥.

[٢] «Ənkəbut» surəsi, ayə:٤٦

dialoqlar və insaflı danışıqlar yolu ilə öz fikirlərini bir-birləri ilə yaxınlaşdırmalıdırlar.

Təəssübkeş vəhhabilər (sələfilər) isə İslamın bu ədalətli və ağıl qəbul edən məntiqi qarşısındadırlar. Onlar inanırlar ki, şirk və tövhid məsələsi barəsində öz çıxarışlarını təhdid, qətl, qan axıdılması, mal-dövlətin, əmlakın qarət olunması yolu ilə olsa belə, başqalarına qəbul etdirməlidirlər. Onların sənədləri bu məzhəbin əsasını qoyanların kitablarında mövcuddur ki, irəlidə onların bir qisminə işarə edəcəyik.

Onların alimlərinə «əgər siz alimsinizsə, biz də alimik, biz sizdən artıq elm öyrənmişik, kitab yazmışıq; əgər siz müctəhidsinizsə, biz də müctəhidik. «Əl-əzhər»in, Dəməşqin, İordaniyanın, sair İslam ölkələrinin hövzələrində də çoxlu müctəhidlər vardır, hansı dəlilə əsasən başqaları sizin (şirk və tövhid barəsindəki) əqidənizi, bizim nəzərimizlə müqayisədə yüz faiz yanlış olduğu bir halda, qəbul etməliyik?!» Onlar isə deyirlər ki, əsas söz bizim dediyimizdir və İslam da bizim nəticə olaraq əldə etdiyimizdən ibarətdir!

Biz deyirik: Sizin sair İslam alimlərindən nə kimi üstünlüyünüz vardır ki, öz əqidənizi onlara qəbul etdirmək istəyirsiniz?! Nə üçün şallaqla başqalarını vurursunuz?! Bu kimi suallar qarşısında onların heç bir məntiqi dəlilləri yoxdur.

Onlar öz yanlış təsəvvürlərinə görə elm və imanın son zirvəsinə çatmış, cəhalət və xəbərsizlik zirvələrini arxada qoymuş, onu ötüb keçmişlər!

Bu da hazırkı dünyada heç kəsin qəbul etmədiyi, müsəlmanlar arasında heç bir əsası olmayan məsələlərdən biridir. Məhz buna görə də onların ömürlərini sona çatdığını deyirik.

## ACI BİR XATİRƏ

Heç vaxt unutmaram: Allah Evinin ziyarətinə getdiyim ilk illərdə Mədinədə qəribə bir mübahisənin şahidi oldum və bu mübahisədən fikrə daldım. Uzun saqqallı və "əmr be mə`ruf" adlı bir qrup (vəhhabi təəssübkeşləri) Peyğəmbəri-Əkrəm (səlləllahu əleyhi və alih)-in qəbrinin ətrafını tutmuşdular, hər birinin əlində də bir şallaq var idi. Hər kim Peyğəmbərin qəbrini öpmək məqsədi ilə yaxınlaşırdısa, onun başına vurur və deyirdilər: «Bu dəmirdir, bu

çubuqdan başqa bir şey deyildir, sizin bu işiniz şirkdir!»

Onlar bu məsələdən qafil idilər ki, heç bir ağıllı şəxs dəmiri, yaxud çubuğu sadəcə dəmir və çubuq olduğuna görə öpmür, əksinə bu iş o qəbrin sahibinə məhəbbət, eşq bəsləməyi izhar etmək üçün bir simvoldur; necə ki, bütün müsəlmanlar, hətta vəhhabilərin özləri belə Qur`anın cildini öpürlər. Qur`ana və Peyğəmbəri-Əkrəm (səlləllahu əleyhi və alih)-ə eşq-məhəbbət izhar etmək şirkdirmi?! Heç bir ağıl və məntiq belə əqidə ilə müvafiq deyildir.

Bütün dünya xalqları öz ölkələrinin bayrağını öpür və ona ehtiram göstərirlər. Onların məqsədi dəyərsiz bir parçaya məhəbbət bəsləməkdirmi?! Bəlkə də hər hansı adi parçanın bir hissəsi olmuş, sonradan bayrağa çevrilmiş, onun digər hissələrindən isə köynək, şalvar tikilmişdir?

Şübhəsiz, bunların məqsədi ölkələrinin istiqlaliyyətinə ehtiram qoymaq və vətənlərinə məhəbbəti aşkar etməkdir.[١]

Görəsən ağıllı bir kəs öz vətəninə, suyuna, torpağına məhəbbət bəsləyib ehtiram qoymağı şirk hesab edirmi?!

Maraqlıdır ki, bütün vəhhabilər Həcərül-əsvədə ehtiram qoyub, onu öpürlər, biz isə onlara «bu daşdır, heç bir faydası yoxdur, bizim həyatımız və taleyimiz onun əlində deyildir!» - dedikdə onlar cavab verib deyirlər ki, Peyğəmbər onu öpmüşdür,[٢] biz də ona tabe olaraq bu daşı öpürük!

Biz deyirik ki, məqsədiniz Peyğəmbər (səlləllahu əleyhi və alih) -in sizə şirkə düçar olmağa icazə verməsidirmi və bu hal istisna və bir növ caiz olan şirkdir, yoxsa öpmək onun şirk olmadığına dəlildir?! Burada sükut edərək heç bir cavab vermirlər.

Bundan əlavə, deyirik ki, sizin hamınız Qur`anın cildini öpür və bu işi də caiz hesab edirsiniz. Bir dəri parçasının nə qədər dəyəri

---

[١] «Səfinətul-bihar», vətən maddəsi.

İmam Əli Æ nəql olunan hədisdə deyilir:

عُمِرَتِ الْبُلْدَانُ بِحُبِّ الْأَوْطَانِ

*"Ölkələr vətən məhəbbəti ilə abad olunmuşdur."*

«Mizanul-hikmə», ٤-cü cild səh. ٣٥٦٦. Peyğəmbəri-Əkrəm ¡-in Məkkədən hicrəti ilə əlaqədar münasib bir hədis «Dürrul-mənsur» kitabından nəql olunmuşdur: ١-ci cild, səh. ٣٠٠.

[٢] «Səhihi Buxari», ٢-ci cild, səh. ١٥٩.

vardır ki, onu öpürsünüz?! Deyirlər ki, bizim bu işdə məqsədimiz Qur`ana məhəbbət və ehtiram göstərməkdir!

Biz deyirik: Bu iş şirk deyildirmi?!

Deyirlər: Peyğəmbər səhabələri Qur`anı öpürdülər.[١]

Biz deyirik ki, o həzrət sizin müşrik olmağınıza icazə veribdirmi? Halbuki, şirkin dəlili heç bir vəchlə təxsis oluna (müəyyən halların istisna edilə) bilməz!

إِنَّ اللّهَ لاَ يَغْفِرُ أَن يُشْرَكَ بِهِ وَيَغْفِرُ مَا دُونَ ذَلِكَ لِمَن يَشَاء وَمَن يُشْرِكْ بِاللّهِ فَقَدِ افْتَرَى إِثْمًا عَظِيمًا

***"Allah-taala heç vaxt şirki bağışlamır, ondan aşağı olan günahları isə istədiyi şəxslər üçün (layiqli bildiyi halda) bağışlayır. Hər kəs Allaha şərik qərar versə, böyük bir günaha mürtəkib olmuşdur."***[٢]

Şübhəsiz, şirkin batil olması qəti əqli hökm ilə sübuta yetmişdir, əqli hökmlərdə isə istisnaya yol verilmir.

Onlar burada da cavab verməyib sükut edirlər.

Qısa sözlə, onlar təzad və ziddiyyətlər dəryasında üzür, özləri də az-çox bilirlər, amma üzə gətirmirlər.

## ALLAH EVİNİN İDARƏÇİLƏRİNİN ƏSL VƏZİFƏLƏRİ

Şübhəsiz, şərif məkanlar və Allahın Evi olan Beytullahil-həram bütün dünya müsəlmanlarına aiddir:

جَعَلَ اللّهُ الْكَعْبَةَ الْبَيْتَ الْحَرَامَ قِيَامًا لِّلنَّاسِ وَالشَّهْرَ الْحَرَامَ وَالْهَدْيَ وَالْقَلاَئِدَ ذَلِكَ لِتَعْلَمُواْ أَنَّ اللّهَ يَعْلَمُ مَا فِي السَّمَاوَاتِ وَمَا فِي الأَرْضِ وَأَنَّ اللّهَ بِكُلِّ شَيْءٍ عَلِيمٌ

***"Allah-taala Kə`bəni – Beytul-həramı camaatın işlərinin möhkəmliyi və onların sahmana salınması üçün qərar vermişdir. Həmçinin, haram ay, nişansız və nişanlı qurbanlıqları da; bu hökmlər (hesab-kitab üzündən, dəqiq olması) ona görədir ki,***

---

[١] Küveytinin «Dairətul-məarif» kitabının (təqbil) maddəsində oxuyuruq: Hənbəlilərin və hənəfilərin arasında məşhur bir məsələdir ki, Qur`nı öpmək caizdir. Ömərdən nəql olunmuşdur ki, hər gün sübh Qur`anı öpürdü. Osmandan da nəql olunmuşdur ki, Qur`anı öpüb öz üzünə çəkirdi.

[٢] «Nisa» surəsi, ayə:٤٨.

***Allahın asimanda və yerdə olanları bildiyini, Allahın hər bir şeyə agah olduğunu biləsiniz."*** [1]

لِلنَّاسِ سَوَاء الْعَاكِفُ فِيهِ وَالْبَادِ

***"Bütün insanlar – yaxından və uzaqdan gələnlər Allah Evinin ətrafında bərabərdirlər."*** [٢]

Deməli, Kə`bə evinin idarəçiliyini öhdəsinə alanların da vəzifələri bu İslam mərkəzini yalnız öz məzhəblərinin təbliğ olunması, öz əqidələrinin başqalarına zorla qəbul etdirmək deyil, əmin-amanlıq, nəzm-inzibat bərqərar etmək, zairlər üçün lazım olan məkanları hazırlamaqdır.

Onların özlərinin şəxsi nəzər və çıxarışlarını müxtəlif ölkə alimlərinin istinbat və ictihadları ilə əldə olunan İslami məsələlərə zorla qəbul etdirməyə haqları yoxdur, hətta cahiliyyət əsrində belə, Kə`bə evinin idarəçilərinin işləri Qur`anda qeyd edilənlərdən artıq deyildi:

أَجَعَلْتُمْ سِقَايَةَ الْحَاجِّ وَعِمَارَةَ الْمَسْجِدِ الْحَرَامِ

***"Yə`ni onların işi Allah evinin hacılarına su çatdırmaq, Kə`bə evini abad şəkildə saxlamaq idi."*** [٣]

Deməli, əgər bu ölkənin alimləri tövhid məsələsində xüsusi bir nəzərə malikdirlərsə, öz əqidələrini başqalarına qəbul etdirməyə haqları yoxdur, xüsusilə bunu qeyd edək ki, başqa xalqların böyük alimləri onların bu kimi çıxarışlarını yanlış hesab edirlər.

Misal üçün: bu qrup Peyğəmbəri-Əkrəm (səlləllahu əleyhi və alih)-dən şəfaət istəmək, yə`ni o həzrəti Allah dərgahında bəndələrin istəkləri üçün vasitəçi etmək məsələsini küfr hesab edirlər, halbuki başqaları onu eynilə tövhid sayırlar.

Yaxud onların bid`ət saydığı bir şeyi, başqa ölkə alimləri sünnə hesab edirlər.

Vəhhabilərin və ümumiyyətlə heç bir digər qrupun haqqı yoxdur ki, özlərinin şəxsi əqidələrini başqalarına zorla qəbul etdirsinlər.

Burada tə`kid edirəm ki, onların işi yalnız bu müqəddəs məkanlarda nəzm, inzibat, təhlükəsizlik və abadlıq işlərini

---

[١] «Maidə» surəsi, ayə:٩٧
[٢] «Həcc» surəsi, ayə:٢٥
[٣] «Tövbə» surəsi, ayə:١٩.

görməkdir, nəinki onu öz məzhəblərinin təbliğatı üçün bir mərkəzə çevirələr. Maraqlıdır ki, Səudiyyə Ərəbistanın padşahına "hakimul-hərəmeyniş-şərifeyn" (iki şərif hərəmin hakimi) deyil, «xadimul-hərəmeyniş-şərifeyn» (iki şərif hərəmin xidmətçisi) deyirlər. Onda nə üçün vəhhabi-sələfi alimləri özlərini hakimul-hərəmeyn hesab edirlər, halbuki, «vəliyyi əmr»lərə itaət etməyin onlara vacib olduğuna inanırlar?!

Əlbəttə, bütün İslam alimlərinin fikir birliyinə əsasən, şəriətdə qadağan olunan şeyləri qadağan etmək lazımdır. Bir sözlə, azlıqda yaşayan bir qrup tərəfindən hər hansı bir fikrin müsəlmanların əksəriyyət təşkil edən hissəsinə zorla qəbul etdirilməsi heç bir məntiqlə uyğun deyildir. (Halbuki, azlıqda yaşayan həmin qrup elmi cəhətdən son dərəcə aşağı səviyyədədir.) Lakin təəssübkeş sələfilər öz əqidələrini başqalarına qəbul etdirmək üçün ən çirkin və pis üslublardan istifadə edirlər və bu da təəssüflü və acınacaqlı hallardan biridir.

## ƏQİDƏNİN ZORLA QƏBUL ETDİRİLMƏSİNİN ƏN PİS HALLARI

Təəssübkeş vəhhabilər son zamanlar bə`zi İslam məzhəblərini batil hesab etmək üçün kitablar yazaraq onları hacıların arasında yayırlar. Kaş o kitablarda ədəbli məsələlər olaydı! Amma onlarda çox çirkin ədəbiyyat, insanda nifrət oyadan sözlər, müxtəlif iftira, yalana, töhmət, başqalarını şirk və küfrlə müttəhim edən sözlər vardır.

Halbuki, əgər bu çirkin kitabların əleyhinə məntiqi və ədəbli bir cavab yazılsa, onun yayılmasına heç vaxt icazə verməzlər!! Yoxsa şərif

فَبَشِّرْ عِبَادِ الَّذِينَ يَسْتَمِعُونَ الْقَوْلَ فَيَتَّبِعُونَ أَحْسَنَهُ

***“Belə isə, bəndələrimə müjdə ver; həmən kəslərə ki, sözləri eşidir və onların ən yaxşısına tabe olurlar.”***[١]

ayəsinin məfhumu budur?! Aydındır ki, bu məzhəb malik olduğu belə bir «mədəniyyətlə» yanaşı, hazırkı dünyada heç bir müsbət mövqeyə malik deyildir və tezliklə tarixin səhifəsindən sili-

---

[١] «Zümər» surəsi, ١٧-١٨

nərək arxivlərə göndəriləcək. İnşallah! Xüsusilə bizim əsrimizdə: başqalarının e`tiqadlarına ehtiram qoyulmasının elm sahiblərinin nəzərində xüsusi mövqeyə malik olduğu və məhz bu işin də bu məzhəbin süqut edib tənəzzülə uğraması amillərindən biri olduğu hazırkı dövrdə. Çünki heç bir müsəlman belə yaramaz işləri qəbul etməyə razı deyildir ki, Allah evinin idarəçilərin öz sözü ilə desək, onların hamısını müşrik və kafir hesab etsin və öz əqidəsinin zorla qəbul etdirilməsinə israr etsin.

Peyğəmbər (səlləllahu əleyhi və alih)-in hərəmi, «Bəqi» qəbirləri bütün müsəlmanlara aiddir, oranın işlərinə baxan şəxslərin vəzifəsi nizam-intizamın, nəzm-inzibatın, əmin-amanlığın tə`min edilməsi, zairlər üçün imkan yaradılması, bütün müsəlmanların əqidə birliyində olduğu şeylərə zidd olanların qarşısını almaqdır və bundan artıq vəzifələri yoxdur. Onlar gərək bütün dünya müsəlmanların əqidələrinə ehtiram qoysunlar, onların müqəddəs saydıqları şeylərə hörmətsizlik etməkdən çəkinsinlər, ayaqlarını öz yorğanlarından artıq uzatmasınlar; çünki bu işə nə Allah razıdır, nə Allahın məxluqu; nə də belə bir işlərin xeyir aqibəti ola bilər.

Allahın əmin-amanlıq hərəmi gərək hər bir cəhətdən əmin-amanlıqda olsun. Bu necə əmin-amanlıqdır ki, əgər vəhhabi olmayan müsəlmanlar öz ayağını dala, ya qabağa qoysalar, onları şirklə müttəhim etsinlər?!

Heç vaxt unutmaram: Allah evinin ziyarətinə getdiyim ilk səfərlərin birində müxtəlif ölkə müsəlmanlarından bir qrupunu gördüm, onlar Peyğəmbər (səlləllahu əleyhi və alih) minbərini öpmək istədikləri zaman polislərlə əlbəyaxa olurdular.

Zahirdə əmr be mə`ruf mə`murlarından olan bir nəfər ayağa qalxdı və dedi: «Allaha and olsun, bu qrupa qılıncla həmlə etmək (və qanlarını axıtmaq) olar!»

Bunların arasında nə kimi fərq vardır: siz Qur`anın cildini öpürsünüz, onlar da Peyğəmbərin uzun müddət üstünə çıxdığı, camaata moizə edib elm öyrətdiyi, tə`lim-tərbiyə verdiyi bir minbəri öpürlər?! Nə üçün öz ardıcıllarınızın yox, onların qətlinə fərman verirsiniz?! Siz bu işi bid`ət hesab edirsiniz, onlar isə sünnə sayırlar.

İndi mə`lum olur ki, nə üçün taliban və əl-qaidə üzvləri olan ifratçı vəhhabilər iki il bundan əvvəl özlərinə bomba bağlayaraq ١٥٠

nəfər sıravi adamı öldürüb ٣٠٠ nəfəri yaralamağa icazə verir! Halbuki, onların arasında körpə uşaqlar, qadınlar və yaşlı qocalar var idi. Bunlar həmin təfəkkür tərzinin dərdli və acı səmərələridir, onlar hazırkı dünyada İslamın çöhrəsini çox iğtişaşlı vəziyyətə salmış, hətta Səudiyyə Ərəbistanının özündə belə – onların mərkəzi qərargahı olduğu halda – asayişini pozmuşlar.

Belə bir proqramlar və belə yanlış təfəkkür əbədi olaraq qala bilərmi?!

## ZİYALI VƏ MÖ`TƏDİL VƏHHABİLƏR

Son zamanlar Səudiyyə dövlətinin, həmçinin ziyalı və mütəfəkkir vəhhabilərdən bir qrupunun mö`tədilliyə doğru gəlib, keçmiş təfəkkürlərinə yenidən baxışa (təftişçiliyə) doğru müsbət bir qədəm atmaları görünür.

Bu hərəkət müsbət istiqamətdə irəliləyərsə, onda İslamın müxtəlif firqələri arasında qurucu dialoq keçmişdə vəhhabilərlə müsəlmanlar arasında olan çəkişmə, mübarizə, müharibə, yaramaz sözlər demək və onları şirk və küfrlə müttəhim etməyin yerinə keçə bilər.

Baxmayaraq ki, bu məsələ hələlik özünə ümumi bir forma almamışdır, lakin bu bərəkətli ağacın cücərməsindən hekayət edən çoxlu hallar görünməkdədir.

Xəbər verildiyi kimi, Hicazın şiə alimlərindən bə`ziləri mö`tədil əqidəli vəhhabi alimləri ilə elmi mübahisə aparmış və onların dialoqları kütləvi informasiya vasitələrinin bə`zilərində efirə buraxılmışdır. Bu da təəssübkeş vəhhabilərin küfr və bid`ət adlandırıb, bu işdən çox əsəbiyyət keçirdiyi həmin şeydir. Sanki İslamın zavala uğradığını təsəvvür edirlər, halbuki, əgər Qur`anın buyurduğu *gözəl tərzdə, elmi mübahisə apar (buna mücadilə billəti hiyə əhsən deyilir)* bu səviyyədə yayılarsa, İslam dini terroristlərin şərindən xilas olacaq, bu dinin dünya səviyyəsində intibahı üçün yeni fəsil açılacaqdır. Elə bir fəsil ki, onda dostcasına olan söhbətlər, istidlal və məntiq başqalarını kafir hesab edib təhqirlə yanaşmaq, qanını axıdıb, mal-dövlətini qarət etməyin yerinə keçəcək, İslam Səudiyyə Ərəbistanında özünün həqiqi axarına qayıdacaqdır.

Bu ölkənin mö`tədil əqidəli yazıçılarından bə`ziləri də öz

yazılarında həmin yolu qələmlə ötməkdədirlər. Nümunə üçün, Məhəmməd ibni Ələvi adlı bir alimi göstərmək olar.[1] Son zamanlar «Məfahimu yəcibu ən tusəhhəhə» (elə məfhumlar ki, onların üstündə düzəliş aparılmalıdır) adlı bir kitab yazmışdır.

Bu kitab öz növbəsində qəribə hadisələrdən hesab olunur ki, onun şərhi, Allahın istəyi ilə, bu kitabın axırında qeyd olunacaqdır.

## İFRATÇI VƏ ŞİDDƏTLİ TƏƏSSÜB

Bizim zəmanəmizin ürfündə «təəssüb» kəlməsi hər hansı bir şeyə qarşı şiddətlə e`tiqad bəsləyib, iltizamlı olmaq mə`nasınadır – istər Allah və məadla əlaqəli olan e`tiqadi işlərdən olsun, istərsə də əxlaq məsələsi; istər qövm-qəbilə arasında olan adət-ən`ənə olsun, istərsə də hər hansı bir şəxsi müdafiə etmək barəsində.

Əli (əleyhissalam)-ın "Nəhcül-bəlağə"də buyurduğu kəlamlardan – «Qasiə» xütbəsindən[2] məlum olur ki, qədimdə də təəssübün qeyd etdiyimizə yaxın mə`nası olmuşdur. Lakin o həzrət təəssübü iki cür təfsir etmişdir: ١-bəyənilən və müsbət təəssüb, ٢-məzəmmət olunan mənfi təəssüb.

Mənfi təəssübə misal olaraq İblisin təəssübünü qeyd etmək olar ki, bu iş onu Adəmə səcdə etməkdən saxladı. İmam (əleyhissalam) onu "dünya təəssübkeşlərinin rəhbəri" adlandırır və buyurur: *«Allahın düşməni olan İblis təəssübkeşlərin rəhbəri və müstəkbirlərin sələfidir.»*[3]

Bəyənilən təəssüb barəsində isə buyurur: *"Əgər təəssüb etməyə məcbur olsanız, yaxşı işlərin və gözəl sifətlərin əldə edilməsi üçün təəssüb etməyiniz çox yaxşıdır."*

Məzəmmət olunan təəssüb – daim fikir donuşluğu və hər bir şeyə bir yönlü nəzər salmaq, məntiqsiz olan mühakimələr yürütməkdir ki, həmişə, xüsusilə bizim əsrimizdə nifrətə və geriliyə səbəb olur.

---

[1] Məhəmməd ibni Ələvi Məkkənin hörmətli alimlərindən və nüfuz sahibi olan bir şəxsdir. O, çox geniş səviyyəli dərslər bərqərar edirdi, ١٤٢٥-ci ilin ramazan ayının ١٥-də Allahın rəhmətinə qovuşmuşdur. Onun müxtəlif kitabları vardır ki, mühəqqiqlərin diqqət mərkəzindədir. O cümlədən «Məfahim» kitabını qeyd etmək olar.

[2] «Nəhcül-bəlağə», ١٩٢-ci xütbə.

[3] «Nəhcül-bəlağə», ١٩٢-ci xütbə.

Bu növ təəssübün nişanələri radikalçılıq, tünd və kobud mövqe seçmək, bə`zən qan töküb əmlakı qarət etmək, başqaları təhqir etmək, çirkin sözlərdən istifadə etmək və s.

Bu kimi təəssübkeş adamlar başqalarının fikirlərinə azacıq belə, əhəmiyyət vermirlər; onlar öz müxaliflərinin dəlillərini dinləmək üçün qulaqları yoxdur, onlar təkəbbürlü adamlar olub, yalnız özlərini görürlər.

Qeyd olunanların hamısı ifratçı vəhhabilərin sözlərində, əməllərində və çox təəssüflə, bu qrup rəhbərlərinin kitablarında görünür (ki, onların bə`zi nümunələri keçdi). Onlar çox kiçik və əhəmiyyətsiz bir şeylə müsəlmanları müşrik sayaraq onların qanını halal, malını isə mübah hesab edirlər.

Öz müxaliflərinin alim və böyük şəxsiyyətlərinə "cahil" - deyə xitab edən, onları «ey müşrik!» deyə səsləyən və onun sözünü qəbul etməyən hər şəxsi kafir və qanını halal hesab edənlərin[١] məntiqi əsasda bəhs aparmağa və Qur`anda buyurulan *"gözəl şəkildə mübahisə etməyə"* hazırlıqları ola bilərmi?! Qur`ani-məcid başqalarının haqq sözünü eşitməyə səlahiyyəti olmayan təəssübkeşləri Allahın saleh bəndələri cərgəsində hesab etmir, çünki:

فَبَشِّرْ عِبَادِ الَّذِينَ يَسْتَمِعُونَ الْقَوْلَ فَيَتَّبِعُونَ أَحْسَنَهُ أُوْلَئِكَ الَّذِينَ هَدَاهُمُ اللَّهُ وَأُوْلَئِكَ هُمْ أُوْلُوا الأَلْبَابِ

Bu ayənin məfhumu budur ki, bu üslubla müxalif olan şəxslər Allahın saleh bəndələri deyildirlər.[٢]

Qur`an əvvəlki peyğəmbərlərlə danışan zaman barmaqlarını qulaqlarına tıxaraq onların sözlərini eşitmək istəməyənləri məzəmmət edir. Nuhun öz qövmündən etdiyi şikayəti belə bəyan edir:

وَإِنِّي كُلَّمَا دَعَوْتُهُمْ لِتَغْفِرَ لَهُمْ جَعَلُوا أَصَابِعَهُمْ فِي آذَانِهِمْ وَاسْتَغْشَوْا ثِيَابَهُمْ وَأَصَرُّوا وَاسْتَكْبَرُوا اسْتِكْبَارًا

***"Onları bağışlayasan deyə, hər zaman onları (iman gətirin deyə) də`vət etdimsə, öz barmaqlarını qulaqlarına tıxdılar,***

---

[١] Bunun mənbələri yuxarıda qeyd olundu.
[٢] «Zümər» surəsi, ayə:١٧-١٨.

***paltarlarını özlərinə bürüdülər, müxalifətdə israr etdilər və çox təkəbbürlük göstərdilər.”***[1]

Keçmişdə Məkkə və Mədinə mühitində, eləcə də Hicazın sair yerlərində vəhhabilərin əqidələrini hər növ tənqid etmək qadağan sayılırdı, vəhhabi təəssübkeşləri icazə vermirdilər ki, hətta ehtiramla yanaşı olan elmi tənqidlər belə yayılsın, bu kimi işlərə şiddətli senzura qoyur, hər növ kitabın, hətta Misir kimi İslam ölkəsindən belə gələn kitabların qarşısını alırdılar. (Təəssüflər olsun ki, bu işlər indi də davam etməkdədir.) Əgər bu qanunun əksinə bir şey görünsə də, bu, istisna yönlüdür.

Aydındır ki, bu vəziyyətlə belə, onlar özlərinin donuşluq vəziyyətindən heç vaxt çıxa, onların elmi cəhətdən inşaf etmələrinə səbəb olan məntiqi tənqid və iradlardan bəhrələnə bilməzlər.

Maraqlıdır ki, bizim şiə kitabxanalarımız sünnülərin, hətta vəhhabilərin kitabları ilə doludur və bu kitabların varlığından öz məzhəbimizə heç bir qorxumuz yoxdur, halbuki, Ərəbistanda çox az kitabxana tapmaq olar ki, orada şiə kitabı olsun (bə`zən heç bir kitab da yoxdur). O ki, qala vəhhabiliyi tənqid atəşinə tutan kitablar! Nə üçün onlar bu işdən bu qədər qorxur, amma biz qorxmuruq?! Cavabını möhtərəm oxucuların vicdanına həvalə edirik.

Bu kimi təəssüblər nəinki bizim əsrimizdə, digər zamanlarda da qəbul olunmamışdır. Bu dəlilə görə də bu təəssübkeş firqənin himayəçiləri gərək öz büsatını yığışdırıb tarixin keçmişinə qovuşsunlar!

Vəhhabi cavanlarını haqqı vardır ki, öz böyüklərdən bu barədə soruşub desinlər: Nə üçün onların əlində sair İslam məzhəblərinin kitabları, eləcə də vəhhabiyyəti elmi və məntiqi cəhətdən tənqid edən kitablar yoxdur?!

Lakin yuxarıda qeyd etdiyimiz kimi, bu kimi ciddi tələbkarlıq və quru təəssübkeşlik vəhhabilərin ziyalı sinfində və mö`tədil qrupunda az görünür. Onlar başqa alimlərlə məntiqi dialoqlar aparmağa başlamışlar ki, bu da çox bərəkətli bir haldır.

---

[1] «Nuh» surəsi, ayə:٧.

## ٤-MƏDƏNİ DƏYƏRLƏR BARƏDƏ AGAHLIĞIN OLMAMASI

## İSLAM TARİXİNİN ƏN DƏYƏRLİ ƏSƏRLƏRİNİN MƏHV EDİLMƏSİ

Çox az ölkələrdə Hicaz qədər İslamın əvvəllərinə aid olan tarixi əsərlər vardır, çünki İslamın əsl vətəni oradır və İslam rəhbərlərinin nəfis və dəyərli əsərləri bu ölkənin müxtəlif yerlərində gözə dəyir. Onların qəbir və məqbərələri, doğum yerləri, səhabələrin, tabeinin və Əhli-beyt (əleyhissalam) imamlarının dəyərli əsərləri, İslam alimləri, fəqihləri, hətta sultanların və onların hökumət mərkəzləri, incəsənət, me`marlıq abidələri və s. mövcud idi. Lakin kobud sifətli və təəssüblü vəhhabilər əksər hallarda onlara şirk damğası vuraraq aradan aparmışlar və onların çox az hissəsi qalmışdır. Yaxşı olar ki, müsəlmanlar bu dəyərli əsərlərin məhv olunması üçün qan ağlasınlar.

Müasir dövrdə hamının bildiyi kimi, hər bir xalq öz əsalət və vücudunu isbat etmək üçün öz tarixi keçmişinə əsaslanır, keçmişdən qalan mühüm tarixi əsər və abidələri öz müddəalarına dəlil gətirir və buna görə də öz tarixi əsərlərini diqqətlə, göz-bəbəyi kimi qoruyub saxlayırlar.

Amma vəhhabilər bu müqəddəs diyarda İslam tarixinin əsərlərindən təqribən heç nəyi saxlamamış, hamısını dağıtmış və aradan qaldırmışdır. Halbuki, bu əsərlərə dəyər baxımından qiymət qoyula bilməzdi!

Onun ən bariz nümunələrindən biri İslamda ən mühüm abidələrdən sayılan «Bəqi» qəbiristanlığıdır. Bu qəbiristan İslam tarixinin mühüm bir bölməsinə özündə yer vermişdi və biz müsəlmanların tarixində yazılı və natiq bir əsər sayılırdı.

Peyğəmbəri-Əkrəm (səlləllahu əleyhi və alih)-in həyat yoldaşları və övladları, Əhli-beyt imamları, böyük alimlər və fəqihlər, yüksək məqamlı səhabələr, dəyərli şəhidlər, İslamın fədakar sərdarları və s. bütün bunların məqbərəsi orada yerləşir. Bəlkə də orada on mindən artıq səhabə dəfn olunmuşdur. Bir sözlə, İslam tarixinin böyük bir qismi «Bəqi»nin daxilində yerləşir.

Lakin hal-hazırda «Bəqi»yə daxil olduqda çox çirkin, viran olunmuş və ürəkbulandırıcı bir mənzərənin şahidi oluruq. Orada bunlardan heç bir əsər-əlamət qalmamışdır, insan göz yaşları

axıtmaqdan başqa bir yol görmür.

Bu quru təəssübçülər çox dərin təəssüflə, bu böyük və qiymətli tarixi əsərləri «şirklə mübarizə» kimi puç bəhanələrlə aradan götürməklə, İslam dünyasına yeri heç vaxt cübran oluna bilməyən, bərpaolunmaz xəsarət vurmuşdur.

Doğrusu, təəssübkeş insan nə qədər xətərlidir! Belə bir adam öz ölkəsinin bütün insanlara məxsus olan, insanın bu günü, keçmişi və gələcəyinə aid olan dəyərli əsərlərini məhv edib aradan aparır!

## DİGƏR BİR TƏZAD: NƏ ÜÇÜN PEYĞƏMBƏRİN MÜBARƏK QƏBRİ HƏLƏ DƏ QALIR?!

Məkkə və Mədinəyə müşərrəf olanlar bilirlər ki, "Bəqi" qəbiristanlığının, Ühüd şəhidlərinin və sair şəxslərin qəbirlərinin dağıdılmasına baxmayaraq, Peyğəmbər (səlləllahu əleyhi və alih)-in əzəmətli qəbri hələ də yerindədir, müsəlmanlar dünyanın hər yerindən o həzrətin ziyarətinə gəlirlər. Belə bir vəziyyətdə onların zehnində belə bir mühüm sual dolaşır ki, görəsən nə üçün bu vəhhabilər Peyğəmbərin qəbrinə dəyməmişlər?!

Həqiqət bundan ibarətdir ki, onlar o qədər zəlildirlər ki, belə bir işə əl ata, bütün dünya müsəlmanlarını öz əleyhinə qiyama vadar edə bilməzlər. Bəli, təəssübkeş vəhhabilər Peyğəmbər (səlləllahu əleyhi və alih)-in əzəmətli qəbrini dağıda, onun yaşıl künbəzlərinin sökə və müqəddəs zərihini aradan götürə bilmədilər.

Onlardan «necə olur ki, "Bəqi" qəbiristanlığının, Ühüd şəhidlərinin və s.-in üzərində olan günbəzlərin aradan götürürsünüz, lakin Peyğəmbərin günbəzi hələ də yerində qalır?», «Əməldə bu kimi ziddiyyətin nə mə`nası vardır?!», «Əgər bunlar bütpərəstlik və şirk əlamətidirsə, onda nə üçün bu məscidin kənarında «böyük bir əlaməti» əzəmətlə saxlamısınız; əgər şirk deyilsə, onda nə üçün qeyrilərini aradan götürmüsünüz?» – deyə soruşduqda, bu sual qarşısında heç bir cavab vermir və bu yerə çatanda doğrudan da heyrət içində donub qalırlar.

Bir müddət öncə, Mədinəyə etdiyim səfərlərin birində bu şəhərin imam-camaatının yanına getdim. O, fəzilət əhli, insaflı bir adam idi. Həmin sualları ondan soruşdum. O, tarixi bir hadisəni söyləməklə mənim zehnimdə dolaşan, vicdanıma daim əziyyət verən bu suala

cavab vermək fikrindən dönmək istədi. O, Nasirud-dövlənin hakimiyyəti dövründə olan bir hadisəni xatırlayıb dedi: Peyğəmbərin qəbrinin qonşuluğunda yaşayan iki yəhudi, evlərinin içindən lağım ataraq Peyğəmbərin pak qəbrini dağıtmaq istəyirdilər. Nasirud-dövlə yuxuda görür ki, Peyğəmbər ona deyir: «Məni bu iki nəfərin əlindən xilas et!» Bir neçə gün bu yuxunu təkrar görür, heyrətdə donub qalır və bilir ki, Mədinədə nəsə bir pis hadisə baş verməkdədir. Mədinəyə gəlib şəhər əhalisinin hamısını bir cərgəyə düzür. Bir-bir hamısının üzünə baxdıqda, yuxuda gördüyü o iki nəfəri tanıyır. Göstəriş verir ki, onları tutub bu məkrli planlarını zərərsizləşdirsinlər və onlara ağır cəza versinlər.

Sonra göstəriş verdi ki, şərif qəbrin ətrafını qazıb onu əridilmiş filizlə doldursunlar ki, poladdan olan bir divar yaransın və gələcəkdə heç kəs belə işlərə cür`ət etməsin.

Aydındır ki, bu cavab əsla qaneedici deyildir, çünki bu ən çoxu şərif qəbrin zirzəmidə olan hissəsinin tikilməsinə diqqət yetirirdi; lakin Peyğəmbərin qəbrinin üzərində olan künbəz zərih hesab olunmurdu. Amma ədəbə riayət etmək, eləcə də mənimlə söhbət edən şəxsin cavabı olmadığından xəcalətli vəziyyətə düşməməsi üçün bəhsi davam etdirmək fikrindən döndüm.

Son zamanlar vəhhabi təəssübkeşlərindən biri demişdir ki, gələcəkdə Peyğəmbərin də qəbrini və künbəzini dağıdacağıq. Əlbəttə, bu, onların təəssübkeş və ifratçı fikirləri ilə uyğun olsa da, şübhəsiz, İslam dünyası müqabilində belə bir cinayətə cür`ət edə bilməzlər. Xüsusilə, bunu qeyd edək ki, bu məsləkin mö`tədil fikirli şəxsləri arasında yeni dalğaların yaranması ilə belə, heç bir hadisə baş verməyəcək, heç kəs bu işi görməyə cür`ət etməyəcəkdir!

Qəribədir ki, bə`zilərinin bu sözləri təkzib etməsinə baxmayaraq, öz rəhbərləri Məhəmməd ibni Əbdül-Vəhhaba da mənsub edirlər. Amma Həsən ibni Fərhan Maliki özünün «Daiyətun və leysə nəbiyyən» kitabında (kitabın axırında qeyd edəcəyimiz kimi) inanır ki, Şeyx Məhəmmədin sözlərində işarə ilə deyilir ki, əgər mənim qüdrətim olsa, Peyğəmbərin də qəbrinin künbəzini və zərihini dağıdaram!

## ٥-DONUŞLUQ VƏ HƏR NÖV YENİLİKLƏ MÜXALİFƏT

Vəhhabi məzhəbinin banisi hər növ yeniliklə mübarizəyə qalxdı, üsul nəzərindən sair müsəlman firqələri tərəfindən inkar olunmayan şeylərlə də mübarizəyə başladı. Çünki o, dində olan yenilikləri – hər növdən olursa olsun, inkar edirdi.[1] Lakin o, bid`ətin mə`nasını izah etməkdə səhvə düçar olduğuna görə, hər bir təzə şeylə mübarizəyə qalxmışdı.

İndi görək bid`ət dedikdə məqsəd nədir? Hər bir təzə şey, hər bir ixtira bid`ət sayılımı? Bəşər mədəniyyətində hər növ yenilikçiliklə mübarizəyə qalxmalıyıqmı?! Vəhhabiyyətin ilk ardıcılları onun sözünü əxz etdikləri üçün, hətta velosipedi belə, «şeytan arabası» hesab etdilər və ondan çəkindilər, Səudiyyə padşahlarının saraylarını ordu qərargahı ilə birləşdirən telefon xətlərini qırıb tökdülər.

Onlar bir neçə il bundan qabağa qədər fotoaparatları haram və Məkkə və Mədinənin bazarlarında onun alverini müəyyən qədər qadağan etmişdilər. Talibanın rəisi Molla Ömər də heç vaxt icazə vermirdi ki, onun şəklini çəksinlər. Onlar qadınların və qızların hətta onlara məxsus olan xüsusi mədrəsələrdə belə, təhsil alması ilə müxalifətə qalxmışdılar. İndinin özündə də hətta kamil hicaba riayət etsələr belə, qadının sürücülüyünü haram hesab edir, Peyğəmbəri-Əkrəm (səlləllahu əleyhi və alih)-in miladını və bu kimi şeyləri bayram keçirməyi bid`ət və haram sayırlar. Təkcə Peyğəmbərin milad bayramını deyil, üstəlik bütün dünya müsəlmanlarını (sünnü və şiə) əqləsığan bu kimi işləri görmələrini məzəmmət edirlər.[2]

Şübhəsiz, böyük fəqihlərin və üsul alimlərinin nəzərində bid`ətin tamamilə başqa bir mə`nası vardır.

Bid`ət sözünün xüsusi mə`nası budur ki, insan dində olmayan bir şeyi dinin bir hissəsi sayaraq dini əməl ünvanı ilə ona əməl etsin. Bid`ətin tə`rifində deyilmişdir: **«Əl-bid`ətu idxalu ma leysə minəd-dini fid-din.»**[3]

---

[1] Peyğəmbər ¡-dən nəql olunan bir hədisdə deyilir: *“Bid`ət qoyan şəxs məxluqların içində ən pis adamdır.”* (“Kənzul-ummal”, hədis ١٠٩٥١). Əli Æ-dan nəql olunan başqa bir hədisdə isə deyilir: *“Elə bir bid`ət yaranmaz ki, onunla yanaşı bir sünnə tərk edilməsin.”* (“Nəhcül-bəlağə”nin şərhi, İbni Əbil-Hədid, ٩-cu cild, səh. ٩٤.) Bu barədə hər iki firqənin kitablarında çoxlu hədislər mövcuddur.

[2] «Fətavəl-lücnətid-daimə lil-buhusil-elmiyyə vəl-ifta», ٣-cü cild, səh. ١٨.

[3] «Ğənaimul-əyyam», ١-ci cild, səh. ٢٧٧.

«Bəhrur-raiq» kitabında (İbni Nəcim Misrinindir) bid`ətin tə`rifi belə deyilir:

Şübhəsiz, heç kəs yeni ixtira olunan texnologiyadan, o cümlədən, velosiped, telefon, fotoaparat, kompüter və s. dən istifadə etməyi dini bir vacib, yaxud müstəhəb hesab etmir; əksinə camaat arasında mövcud olan ürfi bir işdir. Bu da eynilə müxtəlif növ yemək, paltar və binalara oxşayır ki, zamanın keçməsi ilə dəyişilir, özünə yeni forma alır.

Başqa sözlə desək, bizim yerinə yetirdiyimiz əməllərdən bir qrupu ürfi, camaat arasında adi olan bir şeydir və şəriətlə xüsusi bir əlaqəsi yoxdur. Yuxarıda qeyd etdiyimiz misalları burada da gətirmək olar: müxtəlif növ geyimlər, miniklər, yeməklər, adət-ən`ənələr məişət və ev avadanlığı və s.

Faydalı yenilikçilik mə`nasında olan bid`ət bu kimi işlərdə çox yaxşıdır və insanların mədəni cəhətdən inkişaf etməsini göstərir. Deməli, nə velosiped şeytan arabasıdır, nə də fotoaparat şeytanın gözü; nə telefon dinin fəsada çəkilməsi səbəbidir, nə də böyük din şəxsiyyətlərinin, camaat arasında adi bir iş olduğu kimi, təvəllüdünün bayram keçirilməsi. Həmin işlər ki, bə`zən adi insanların "təvəllüd bayramı" kimi ailələrdə keçirilir, bə`zən də kütləvi şəkildə böyük bir din aliminin, yaxud ondan da yüksəkdə Peyğəmbəri-Əkrəm (səlləllahu əleyhi və alih) və sair din böyüklərinin təvəllüdü tam əzəmətlə bərqərar olunur.

Bu kimi işlərin haram olmasına heç bir dəlil yoxdur; burada sadəcə olaraq, bid`ət kəlməsinin mə`nasında yaranan anlaşılmazlıq və yanlış düşüncə, onun fiqhi mə`nasına tanış olmamaq, şər`i təklifləri camaat arasında olan işlərdən ayıra bilməməkdən irəli gəlmişdir.

Bizim din rəhbərlərinin qəbirləri üzərində bina və künbəz tikilməsi ilə heç bir işimiz yoxdur, bu, tamamilə başqa bir məsələdir. Bizim sözümüz adi qəbiristanlıqlar barədədir: Ərəbistanda qəbirlərin yanına getdikdə, çox çirkin və insanı dəhşətə gətirən səhnələrlə qarşılaşırıq. Sanki susuz, otsuz və daş-çınqıllardan ibarət olan əyri-

---

غلب استعمالها علي ما هو (ايجاد) نقص في الدين او زيادة

«Feyzul qədir» kitabında (Mənavi) isə belə deyilir:

الحدث في الدين بعد اكماله

Bu tə`riflərin hamısı da bir mə`naya qayıdır.

üyrü bir səhraya bənzəyir, bir qəbrin üzərinə belə, düz bir daş qoyulmamışdır.

Halbuki, qəbirlərin üstündə sadə bina qurmaq bütün dünya xalqları və əql sahibləri arasında adi bir iş sayılır, onlar ölülərinin qəbirlərini elə şəklə salmaq istəyirlər ki, hörməti qorunub-saxlansın, heç vaxt onlara qarşı təhqir və hörmətsizlik rəva görülməsin. Qəbrin ətrafında müxtəlif ağac, gül əkib becərirlər ki, onların varislərinin qəlbinə təsəlli versin.

Şairlərin, elm xadimlərinin və mə`rifət sahiblərinin qəbirləri üzərində onların şə`ninə layiq və hər bir şəxsin vəziyyətinə uyğun və münasib olan bir bina tikilməsi onlara hörmət əlamətidir.

Bu insani və ürfi bir iş olub əsla bid`ət, şirk və bütpərəstlik deyildir; əksinə insaniyyətə hörmət qoymaq və ədəb qaydalarına riayət etməkdir. Halbuki, haram olan bid`ət – din göstərişlərinə hər hansı bir şeyi artırmaqdan ibarətdir.

Hal-hazırda dünyanın hər yerində belə bir adət vardır ki, məsələn, böyük şəxsiyyətlərin filan şair, ixtiraçı və s. təvəllüdünün yüzilliyi münasibəti ilə yubiley keçirirlər, bu da cavanların elmə, biliyə, elmi-texniki tərəqqiyə, elmə yiyələnməyə təşviq edir. Heç bir ağıllı şəxs deyə bilərmi ki, bu iş bid`ət və şirkdir, yaxud dinə hər hansı bir şeyi artırmaqdır?!

Bizim bu işi böyük din xadimləri üçün yerinə yetirməyimiz isə, camaatın onların fikir, tə`lim və proqramlarına diqqət yetirməsinə səbəb olur; əgər bu işlər onlarla böyük din şəxsiyyətləri arasında əlaqə və bağlılığı möhkəmlədirsə, bu işin harası bid`ət və şirkdir?! Xeyr, bu adi camaat tərəfindən bəyənilmiş bir işdir!

Bə`zən də bu yeniliklərin camaat arasında şər`i məsələlərlə yanaşı irəli çəkilir, – özü də onunla qarışmadan və haram bid`ət ünvanı almadan. Misal üçün, hal-hazırda Məscidul-Həramın və Məscidun-Nəbinin (səlləllahu əleyhi və alih) gözəl minarələrini görürük ki, şübhəsiz, Peyğəmbəri-Əkrəm (səlləllahu əleyhi və alih)-in dövründə mövcud olmamışdır. Peyğəmbərin mehrabı da sadə və gözəl naxışlarla bəzədilmiş, Qur`an ayələri (və bə`zilərinin dediyinə görə bütün Qur`an) çox gözəl şəkildə və gözəl xətlə Hətta o həzrətin özünün və Əhli-beyt imamlarının adları Peyğəmbər (səlləllahu əleyhi və alih) məscidinin içindəki otaqların divarlarına həkk olunmuşdur,

İslamın böyük şəxsiyyətlərinin bə`ziləri o məscidin həyətində dəfn olunmuşdur, halbuki, bu işlərin heç biri Peyğəmbərin dövründə olmamışdır. Bunlar bid`ət və haram iş sayıla bilərmi?! Əgər haramdırsa, onda nə üçün oraya hakim olan vəhhabilər onların hamısını məhv edib aradan aparmayıblar?! Əgər haram deyilsə, onda nə üçün ona oxşar hallara icazə vermirlər?! Şübhəsiz, heç kəs bunları dini göstəriş ünvanı ilə icad etməmişdir; əksinə, camaat arasında adət olan bir sıra işlər kimidir və insanların sağlam zövqü ilə icad edilmişdir.

Fikir donuşluğu nəticəsində həm müsəlmanların, həm də qeyri-müsəlmanların ictimai adət-ən`ənələrindən sayılan bu kimi işlərlə müxalifətə qalxanların hazırkı dünyada heç bir məqamları yoxdur və bu fikir tarixin arxivinə yığılmalıdır. Amma onların içərisində əmələ gələn mö`tədil fikirli şəxslər bu böyük xətaları islah edərək düzəldə bilərlər.

Bir daha təkrar edirəm: haram və qadağan olunan bid`ətlə (barəsində nə ümumi, nə də xüsusi dəlillər gəlmədiyi halda müəyyən bir işi, dini göstəriş adı ilə yerinə yetirmək), onların bid`ət adlandırdığı şeylər tam başqa-başqa şeylərdir.

Misal üçün, biz namaza, oruca, həcc əməllərinə və ədəb qaydalarına və s. kimi əməllərə bir şey artırsaq, yaxud **«şəriət bizə icazə vermişdir ki, filan gecəni Peyğəmbərin miladı ünvanı ilə bayram keçirək»** - desək, bu, bid`ət sayılar.

Təəssüflər olsun ki, bu qrup, fikir donuşluğu və mə`lumatın azlığı nəticəsində bu iki məsələni bir-biri ilə qarışdırmış və camaat arasında mövcud olan yeniliklərlə şəriətdə deyilən bid`ətləri bir-birinə qarışdırmışlar.

## DİGƏR BİR TƏZAD!

Bu qrupun düçar olduğu təzadlardan biri də budur ki, bir gün velosipedi "şeytan arabası" adlandıran və bid`ət hesab edənlər hal-hazırda Amerika və Yaponiyadan gətirilən ən yüksək markalı avtomobillərə minirlər və heç kəs onlara irad tuta bilmir.

Bir gün Səudiyyənin şah sarayını çox sadə şəkildə ordu qərargahı ilə birləşdirən telefonu bid`ət hesab edir və məftillərini kəsib doğrayırdılar, indi isə onların hamısı, hətta küçələrin kənarında

olan qara bazardakı alverçilər belə, əllərində mobil telefonu gəzdirirlər.

Görəsən, ١٨٠ dərəcəli bu dönüş bu kimi fikirlərin süquta uğramasına dəlalət etmirmi?! Maraqlıdır ki, onların hökumətləri bu kimi «gericilik fikirlərinə» e`tina etmədən, ölkənin texniki cəhətdən inkişaf etdirilməsinə çalışır, özü də xaricdən asılı olan texnika və sənayedə qərq olmuşdur.

## İBNİ TEYMİYYƏNİN MÜVƏFFƏQİYYƏT QAZANA BİLMƏMƏSİ DƏLİLLƏRİ

Çoxlarının da bildiyi kimi, vəhhabi məzhəbinin banisi, onun öz e`tirafına görə, İbni Teymiyyənin süfrəsi başında əyləşmişdir. İbni Teymiyyə də şirk, tövhid, şəfaət və s.-də həmin ifratçı fikirlərə malik idi. Amma görəsən, nə oldu ki, o bu büsatı Dəməşqdə (zühur edib fəaliyyət göstərdiyi mərkəzdə) camaat üçün aça bilmədi, amma onun şagirdi Məhəmməd ibni Əbdül-Vəhhab müvəffəqiyyət qazana bildi?! Nə üçün?!

Yaxşı olardı ki, əvvəlcə İbni Teymiyyənin həyat tarixçəsinə qısa şəkildə nəzər salaq.

Əhməd ibni Əbdül-həlim ibni Teymiyyə Hənbəli ٦٦١-ci hicri ilində Hərran şəhərində (Şamın şəhərlərindən biridir) dünyaya gəlmiş, ٧٢٨-ci hicri ilində isə dünyadan getmişdir. Atası monqol-tatar zülmlərindən cana gəldiyi üçün öz ailəsi ilə birlikdə Hərrandan Dəməşqə köçmüşdür.

O, hənbəli məsləkində idi və bu məzhəbi yaymaq fikirinə gəlmişdi. Hənbəlilər kimi, o da kəlam elmini rədd etmiş, mütəkəllimləri bid`ət əhli saymışdır! Allahın sifətləri məsələsində hənbəlilər kimi Allahın Qur`andakı sifətlərini bəyan edən sözləri heç bir təfsir və yozum olmadan qəbul və ümumi şəkildə əqlə meyl etmənin hər növünü məhkum edirdi. O, əhli-hədisin üslub və əqidəsini himayə etməkdən əlavə, ona yeni bir əqaid də əlavə etdi ki, ondan qabaq heç bir yerdə görünməmişdi.

Misal üçün, o, Peyğəmbərin qəbrini ziyarət etmək məqsədi ilə səfərə çıxmağı, qəbrə təbərrük və Peyğəmbərin Əhli-beytinə təvəssül etməyi şirk hesab edirdi! O, Əhli-beyt (əleyhimussalam)-ın sünnünlərin «sihah» kitablarında, hətta müsnədçilərin imamı olan

Əhməd ibni Hənbəlin «Müsnəd»ində gələn fəzilətləri belə inkar edir və çalışırdı ki, imam Əli (əleyhissalam) və onun övladlarının şə`n və məqamlarını Bəni-üməyyə kimi aşağı gətirsin. Amma İbni Teymiyyənin də`vəti sünnü alimləri tərəfindən qəbul olunmadı. Onun İbni Qəyyim kimi bir neçə şagirdindən əlavə, sünnü aləminin böyük şəxsiyyətləri onunla müxalifətə qalxdılar və onun özünü, qoyduğu bid`ətləri rədd etmək üçün çoxlu kitablar yazdılar. O cümlədən, onun müasiri olan alimlərdən biri – Zəhəbi, İbni Teymiyyəyə məktub yazıb onu məzəmmət etdi və istədi ki, səhih hədislər qarşısında təslim olsun.

Zəhəbi ona xitab edərək yazırdı: «İndi ki, ömrünün yetmişinci ilini yaşayırsan və bu dünyadan köçməyin yaxındır; tövbə edib Allah dərgahına qayıtmağının vaxtı çatmamışdırmı?!»

Misirdə də dörd sünnü firqəsinin «Qazil-quzatı», İbni Teymiyyənin qoyduğu əqidələrin yanlış və bid`ət olduğunu e`lan etdi.

Lakin hicrətin ١٢-ci əsrində zühura gələn Məhəmməd ibni Əbdül-Vəhhab, İbni Teymiyyənin fikirlərini himayə etdi və onun əqidələri arasında hər şeydən artıq, onun yeni artırdığı əqidələrə tə`kid etməyə başladı.

Yuxarıdakı əqidələrdən əlavə, İbni Teymiyyənin digər xüsusi əqidələri də vardı. O, ٦٩٨-ci hicri ilində geniş miqyaslı e`tiqadi bəhslərə daxil olub öz müxalifləri ilə elmi mübahisəyə başladı. Onun əqaid və fətvalarından aşağıdakıları qeyd etmək olar:

١- O, şər`i hüdudları (cəza qanunlarını) özü icra edirdi.

٢- Uşaqların başını dibdən qırxırdı!

٣- Onun əqidəsi ilə müxalif olanlarla müharibəyə hazır idi.

٤- Camaatı nəzir verməkdən çəkindirirdi.

٥- Allah-taalanın zahiri hiss orqanları ilə görünməsinin mümkünlüyünə e`tiqad bəsləyirdi

٦- Xaricilər (xəvaric) barəsində deyirdi: «Xaricilər dindən çıxmaqla eyni zamanda, camaatın içində ən düzgün danışanlardır.»

Onun müsbət işlərindən biri bu idi ki, monqol-tatarların əleyhinə yaxşı tədbirlər görmüşdü.

Mərhum Əllamə Əmini, İbni Teymiyyənin, «Peyğəmbərin də`vəti başlaması» hədisi barəsindəki sözünü nəql etdikdən sonra

qeyd edir ki, o, həmin hədisin sənədini səhih bilmir. Sonra deyir: Onun bu sözü çox da qəribə deyildir, çünki o, təəssübkeş bir insan idi, dinin bə`zi zəruri və danılmaz məsələlərini inkar və müsəlmanları kafir hesab etməyə və xüsusilə Əhli-beyt (əleyhimussalam)-ın fəzilətini inkar etməyə israr edirdi.[١]

Başqa bir yerdə buyurur:

لذلك عاد غرضا لنبال الجرح من فطاحل علماء اهل السنة منذ ظهرت مخاريقه و الي هذا اليوم و حسبك قول الشوكاني في البدر الطالع ج٢ ص٢٦٠: صرح محمد البخاري الحنفي المتوفي ٨٤١ بتبديعه ثم تكفيره ثم صار يصرح في مجلسه: ان من اطلق القول علي ابن تيمية: انه شيخ الاسلام فهو بهذا الاطلاق كافر

**Həmin səbəbə görə o, böyük sünnü alimləri tərəfindən həmişə tənqid atəşinə tutulurdu. Şovkani nəql edir ki, Məhəmməd Buxari Hənəfi onu kafir hesab edərək demişdir: «Hər kəs İbni Teymiyyəni «şeyxul-İslam» - adlandırsa, kafirdir.»**[٢]

İbni Teymiyyəni çox israr və təəssüblə müdafiə edənlərdən biri «Əl-bidayətu vən-nihayə» kitabının müəllifi İbni Kəsirdir (٧٤٤-cü ildə dünyadan gedib). O, öz kitabının hər yerində müxtəlif münasibətlərlə əlaqədar İbni Teymiyyəni müdafiə edərək tə`rifləmişdir.

İbni Teymiyyəni müdafiə etdiyinə görə İslam cəmiyyətində nifrətlə yad edilən və onun müasirlərindən biri olan məşhur mühəddis Əbul-Həccac Məziidir («Təhzibul-kəlam» kitabının müəllifidir və ٧٤٢-ci ildə dünyadan gedib).

İbni Teymiyyənin şagirdlərindən biri də Əhməd ibni Məhəmməd Məri Lubbi Hənbəlidir. İbni Həcərin yazdığına görə, o, əvvəllər İbni Teymiyyə ilə müxalif olmuşdu, amma onunla görüşdükdən sonra onun dostları və şagirdləri cərgəsinə keçmiş, bundan sonra onun kitablarını yazmış və onunla tərəfdarlıqda israr etmişdir. Ziyarət məqsədilə səfər etməyin inkar olunmasında müəllimini müdafiə etmiş, nəhayət maliki qazi Əxnai onu çağırıb o qədər şallaq

---

[١] «Əl-qədir», ٢-ci cild, səh.٢٨٠.

[٢] Yenə orada, ١-ci cild, səh.١٤٧ (vərəqaltı haşiyə)

vurmuşdu ki, bədənindən qan axmağa başlamışdı. Sonra göstəriş vermişdi ki, təhqir olunsun deyə, onu tərsinə qatıra mindirsinlər və şəhərdə dolandırsınlar.

İbni Teymiyyənin ən yaxşı şagirdi və onu israrla müdafiə edənlərdən biri də İbni Qəyyim Covziyyədir. O, hər bir sözdə və əqidədə müəlliminin qeydsiz-şərtsiz himayəçisi və köməkçisi olmuş, həyatında və ölümündən sonra onun əqidələrinin yayılmasını öhdəsinə almış, dəfələrlə onunla birlikdə həbs edilmişdir. Buna görə də ona şallaq vurulmuş, dəvəyə mindirilərək şəhərlərdə gəzdirilmişdir. O, İbni Teymiyyə ilə birlikdə Dəməşq qalasında həbs edilmişdir.[١]

***

İndi isə əsas suala qayıdırıq: Nə üçün İbni Teymiyyə özünün sələfilik məktəbini Şamda yaya bilmədi, lakin Məhəmməd ibni Əbdül-Vəhhab onu Nəcd əyalətində yaydı, bundan sonra da bütün Ərəbistan yarımadasına yayıldı və bu e`tiqadları öz adına – «vəhhabiyyət məzhəbi» adı ilə tarixdə qeyd etdirdi?!

Onun ən ümdə səbəbi iki şeydir:

***Birincisi*** budur ki, o dövrdə Dəməşq və Şam İslam elmlərinin mərkəzlərindən olduğunua görə orada çoxlu alimlər, elmiyyə hövzələri var idi. Onlar İbni Teymiyyənin səhvləri və yanlış əqidələri müqabilində ciddi müqavimət göstərdilər. O, özünə nəzərə çarpacaq dərəcədə tərəfdar toplasa da, onun nüfuzu məntiqi dəlillərlə sındırıldı. Amma Nəcd əyaləti o zamanda bu cəhətdən çox fəqir, geridə qalmış bir yer sayılırdı. Bu qrupun ilkin şübhələri çox da müqavimətlə qarşılaşmadı və camaat arasında çox sür`ətlə yayıldı. Tarix boyu hər bir məntəqədə agah alim və mütəfəkkirlər olmuşsa, həmin məntəqə bu kimi bəlalardan salamat qalmışdır.

Digəri isə, o dövrdə Nəcd qəbilələri arasında hakimiyyət uğrunda gedən kəskin mübarizə idi. Tarixi şahidlərə əsasən, Məhəmməd ibni Əbdül-Vəhhab bu qızıl fürsətlərdən istifadə edərək Ali-Səudla bu əsasda müqavilə bağladı ki, onun fikirlərini müdafiə

---

[١] «Siyəru ə`lamin-nubəla», ١-ci cild, səh.٣٧, «Əssəhihu minəs-sirə», ١-ci cild, səh.٢٤٥, «Əl-qədir», ٢-ci cild, səh.٢٨٠, «Əz-zəriə», ٢-ci cild səh. ٢٨٣; «Aşinayi ba firəq və məzahibi İslami», ١٤-cü hissə, «Ayini vəhhabiyyət», «Məktəbi İslam», fəsilnaməsi, ١٠-cu nömrədən istifadə edilmişdir.

etsinlər, Ali-Səud da öz ardıcıllarını ölkələri fəth etmək üçün onun ixtiyarında qoysun. Halbuki, Dəməşqdə və Şamda nə belə bir şərait var idi, nə də İbni Teymiyyə belə bir fikrə düşmüşdü.

## ٦-ALTI QUR`AN KƏLMƏSİNDƏN YANLIŞ ÇIXARIŞLAR VƏ MƏNTİQ ZƏİFLİYİ

Bu məzhəbin ən mühüm və şah əsəri tövhid və şirk məsələsindədir. Yuxarıda qeyd etdiyimiz kimi, bu da İbni Teymiyyə Dəməşqinin əqaidindən alınmışdı.

Məhəmməd ibni Əbdül-Vəhhabın «Kəşfuş-şübəhat» kitabındakı sözünün xülasəsi belədir:

١-İslamın də`vət etdiyi tövhid – ibadətdəki tövhiddir; çünki ərəb müşrikləri Xaliqin vahid olduğunu qəbul edir və deyirdilər ki, bütün aləm Onun məxluqudur:

وَلَئِن سَأَلْتَهُم مَّنْ خَلَقَ السَّمَاوَاتِ وَالْأَرْضَ لَيَقُولُنَّ خَلَقَهُنَّ الْعَزِيزُ الْعَلِيمُ

***"Hər vaxt onlardan "asimanları və yeri kim yaratmışdır?" - deyə soruşsan, mütləq "qüdrətli və elmli Allahdır!" - deyə cavab verərlər."*** [١]

Digər bir ayədə isə buyurulur:

قُلْ مَن يَرْزُقُكُم مِّنَ السَّمَاء وَالأَرْضِ أَمَّن يَمْلِكُ السَّمْعَ والأَبْصَارَ وَمَن يُخْرِجُ الْحَيَّ مِنَ الْمَيِّتِ وَيُخْرِجُ الْمَيَّتَ مِنَ الْحَيِّ وَمَن يُدَبِّرُ الأَمْرَ فَسَيَقُولُونَ اللّهُ فَقُلْ أَفَلاَ تَتَّقُونَ

***"De: "Kim sizə asimandan və yerdən ruzi verir?! Kim sizin qulaqlarınızın və gözlərinizin malikidir?! Kim dirini ölüdən və ölünü diridən çölə çıxardır və kim (dünyanın) işlərini tədbir edir?!" Deyərlər: "Allah!" De: "Bəs nə üçün təqvalı olmursunuz?!""*** [٢]

Bu ayələrə əsasən, ərəb müşrikləri aləmlərin Xaliqinin, bəndələrin ruzi verəninin, bütün aləmin tədbir və idarə edicisinin yeganə Allah olduğunu bilirdilər. Bəs görəsən, onların şirki nədən ibarətdir? Onların əqidəsinin iradı yalnız ibadətdəki tövhiddən ibarət idi: yə`ni onlar bütlərə və bə`zi saleh insanlara pərəstiş edirdilər. Başqa sözlə desək, ərəb

---

[١] «Yusüf» surəsi, ayə:٩.
[٢] «Yunüs» surəsi, ayə:٣١.

müşrikləri heç vaxt Allahın, xaliqin vahid, raziq və rəbbul-aləmin olmasını inkar etmirdilər; onlar sadəcə Allaha ibadətdə müşrik idilər və İslam da onları yeganə Allaha ibadətə də`vət etmişdir.

٢-Şirkin məfhumu budur ki, insan yeganə Allahdan qeyrisini çağırsın, çətinliklərinin həll olunması üçün ona pənah aparsın (misal üçün; «ya Rəsuləllah!», «ya Əli!» desin). Çünki Qur`an buyurur:

فَلَا تَدْعُوا مَعَ اللَّهِ أَحَدًا [١]

٣-Əgər bir şəxs Peyğəmbərdən, yaxud hər hansı din rəhbərindən və saleh insanlardan şəfaət istəsə, onun işi şirkdir və belə bir şəxsin canı və malı müvəhhidlərə (tövhidçilərə) mübahdır! Çünki o, müşrikdir və hər müşrikin də qanı hədər, mal-dövləti və arvad-uşaqları (tövhidçilərə) halaldır. Qur`ani-Məcid buyurur:

قُل لِّلَّهِ الشَّفَاعَةُ جَمِيعًا لَّهُ مُلْكُ السَّمَاوَاتِ وَالْأَرْضِ ثُمَّ إِلَيْهِ تُرْجَعُونَ

***“De: Şəfaət ümumi şəkildə Allaha məxsusdur, asimanların və yerin hökuməti Ona məxsusdur. Sonra isə, Ona doğru qayıdacaqsınız.”*** [٢]

٤-Bundan əlavə, ərəb müşrikləri bütlərə pərəstiş etdiklərinə görə e`tiraza düçar olurdular:

مَا نَعْبُدُهُمْ إِلَّا لِيُقَرِّبُونَا إِلَى اللَّهِ زُلْفَى

***“Biz bütlərə, yalnız buna görə pərəstiş edirik ki, bizi Allah dərgahına yaxınlaşdırsınlar.”*** [٣]

Peyğəmbər də onların sözünü heç vaxt qəbul etmirdi.

Deməli, müşriklərin bütlər qarşısındakı pərəstişləri onların xaliq və raziq olduqlarına görə deyildi; əksinə (bütlərin) Allah dərgahında şəfaət etməsi üçün idi. hər kəs Allahdan qeyrisini şəfaətçi bilsə, ərəb müşrikləri kimidir və onların malı, canı və namusu mübahdır!

Vəhhabilərin tövhid və şirk məsələsi barəsində əqidələrinin xülasəsi bunlardan ibarətdir.

---

[١] «Cin» surəsi, ayə:١٨

[٢] «Cümə» surəsi, ayə:٤٤

[٣] «Zümər» surəsi, ayə:٣.

## TƏNQİD VƏ MÜLAHİZƏLƏR

Vəhhabilərin müxtəlif kitablarda qeyd etdikləri ən ümdə arxalanacaqları olan tövhid və şirk bəhsində həmin yuxarıdakı ayəyə istinad edilir. Onlar daim çalışırlar ki, sair Qur`an ayələrinin yanından sadəcə, heç bir nəzər yetirmədən ötüb keçsinlər. Onlar bu kimi digər ayələri görməməzliyə vururlar, başqa sözlə, Qur`anın bə`zi ayələrinə əməl etməklə kifayətlənirlər.

Qur`anın digər ayələrindən istifadə edərək onların əqidəvi xətalarını aşkar edən müxalif alimləri silahsızlaşdırmaq üçün misilsiz bir iddia ilə deyirlər ki, onların tövhid və şirk məsələsində istinad etdikləri ayələr mütəşabih ayələrdir! Onlar yalnız özlərinin istinad etdikləri ayələri Qur`anın möhkəm ayələrindən hesab edirlər.[١]

Dəqiq bir tədqiqatla aydın olur ki, onlar altı Qur`an istilahı barəsində xəta, səhv və yanlış çıxarış əldə etdiklərindən, öz tərəfdarlarından başqa bütün müsəlmanları müşrik və kafir olmasına hökm vermişlər.

Çox təəssüflər olsun ki, onların bu altı kəlmənin təfsirində yol verdikləri xətalar ucbatından İslam dünyası indiyə qədər çox ağır tələfatlar vermişdir: nə qədər müqəddəs qanlar axıdılmış, nə qədər mal-dövlətlər qarət edilmişdir! Hətta bu vəziyyət müasir dövrdə də bə`zi məntəqələrdə davam etməkdədir. Onun nümunələri kimi taliban qrupunun Əfqanıstanda, səhabə ordusunun Pakistanın şiə məscidlərində, İraqda sünnü-şiələrin cərgələri arasında, hətta Səudiyyə Ərəbistanının Riyaz və Əl-xəbər məntəqələrində belə, bomba partladılması və sair terrorçuluq aktlarını qeyd etmək olar. Nə üçün onlar digər İslam alimləri ilə, o cümlədən Əl-əzhər, Dəməşq, Qum, Nəcəf alimləri ilə məntiqi söhbətlər apararaq həqiqətləri aşkar etməyə razı deyillər?!

Nə üçün onların başçılarının sair müsəlmanlara «əyyuhəl-muşrikul-cahil» xitabı ilə başlanan bə`zi sözləri indiyə qədər davam edir?! Nə üçün bu çirkin sözü deyənlər öz şəxsi mühakimələri ilə, qarşısında olanları əvvəlcə qanı halal, müşrik və nadan hesab edir, sonra onunla bəhs aparırlar?! Nə üçün vəhhabi alimləri ilə başqaları

---

[١] «Şərhu kəşfiş-şübəhat», səh.٧٤.

arasında Qur`anın göstəriş verdiyi şəkildə – dostluq şəraitində elmi və məntiqi bəhs aparmırlar?![١]

Əgər onlar belə etsəydilər, bu qədər pak qanlar axıdılmaz, mal-dövlətlər qarət edilməz, düşmənlər onlara hakim kəsilməz, dünyada azlıq təşkil edən sionist qrupu müsəlmanların hər bir şeylərini oyun-oyuncağa çevirməzdilər! Onların, qiyamət günü Allah qarşısında, ilahi ədalət mizanında nə cavab verəcəkləri mə`lum deyildir!

Hər bir halda, müqəddəratı həll edən altı söz aşağıdakılardan ibarətdir:

١- Şirk və müşrik (Qur`anda);
٢- İlah (Qur`andakı «la ilahə illəllah» kəlməsi);
٣- İbadət (Qur`ani-Məciddə);
٤- Şəfaət (Qur`ani-Məciddə);
٥- Dua (Qur`ani-Məciddə);
٦- Bid`ət (Qur`an və hədisdə).

***

## A) ŞİRKİN MƏFHUMU

Vəhhabilərin mə`nasını təfsir və izah etməkdə səhvə və xətaya yol verdikləri və nəticədə müsəlmanların qan, mal və namusunun mübah (hədər) olmasına dair fətva verdikləri ilk mühüm kəlmə şirk və müşrikdir.

«Şirk» ərəb dilində bir şeydə şərik olmaq mə`nasınadır və şərik isə qarşılıq, tay-bərabər deməkdir. «Lisanul-ərəb» kitabında, (şirk kökündən alınan) iştirak sözünün mə`nası barəsində deyilir:

اَشْرَكَ بالله: جَعلَ لَهُ شَرِيكًا في مُلْكه

«Allaha şirk – yə`ni Onun səltənətində şərik qoşmaq.»

Şirkin mə`nasında isə belə deyilir:

وَالشِّرْكُ اَنْ يَجْعَلَ للّه شَرِيكًا في رُبُوبيَّته

«Şirk – Allah üçün, rübubiyyətində şərik qoşmaq.»

Beləliklə, şirki, bir kəsin Allahın hakimiyyət və rübubiyyətində şərik qərar vermək mə`nasına təfsir etmişdir.

---

[١] «Zümər» surəsi, ayə:١٧-١٨

Rağib özünün «Müfrədat» kitabında yazır: «Dində şirk iki cürdür: Birincisi böyük şirkdir. Yə`ni insan Allah üçün şərik və oxşar qərar verir, bu da insanın cənnətdən məhrum olmasına səbəb olur. Kiçik şirk isə budur ki, insan Allahdan qeyrisini diqqət mərkəzində olan bə`zi mühüm işlərdə şərik etsin, bu da riya və nifaq sayılır. Qur`ani-Kərim buyurur:

مَنْ يُشْرِكْ بِاللهِ فَقَدْ حَرَّمَ اللهُ عَلَيْهِ الْجَنَّةَ

***«Hər kim Allaha şərik qoşsa, Allah cənnəti ona haram etmişdir.»*** [١]

Deməli, böyük şirkin həqiqəti bir şəxsi Allahın bərabəri, xaliqiyyət, malikiyyət, rübubiyyət və ibadətdə Onunla bərabər qərar verməkdir. Əgər «həzrət Məsih əlacsız xəstəliklərə Allahın izni ilə şəfa verirdi, ölüləri Allahın izni ilə dirildirdi, Allah tərəfindən kəsb etdiyi elm vasitəsi ilə qeybi və məxfi işlərdən xəbər veridi» desək, nə şirk yolunu getmiş, nə də yalan bir söz demişik; çünki Qur`ani-Kərim İsa peyğəmbərin dilindən belə buyurur:

وَأُبْرِىءُ الأكْمَهَ والأَبْرَصَ وَأُحْيِـي الْمَوْتَى بِإِذْنِ اللّهِ وَأُنَبِّئُكُم بِمَا تَأْكُلُونَ وَمَا تَدَّخِرُونَ فِي بُيُوتِكُمْ إِنَّ فِي ذَلِكَ لآيَةً لَّكُمْ إِن كُنتُم مُّؤْمِنِينَ

***"Onu Bəni İsrailə rəsul və göndərilmiş peyğəmbər qərar verdik ki, onlara desin:) Mən Pərvərdigarınız tərəfindən sizin üçün bir nişanə gətirmişəm: Mən palçıqdan quş şəklində (bir şey) düzəldir və ona üfürürəm, (və o da) Allahın izni ilə diri quş olur. Allahın izni ilə anadangəlmə korlara, bərəs (cüzam, xora ) xəstəliyinə tutulanlara şəfa verirəm; ölüləri Allahın izni ilə dirildirəm! Yediyiniz və evlərinizdə ehtiyat saxladığınız şeylərdən sizə xəbər verirəm. Şübhəsiz, bunlarda sizin üçün bir mö`cüzə vardır, əgər imanlı olsanız."*** [٢]

Deməli, əgər Peyğəmbəri-Əkrəm (səlləllahu əleyhi və alih), Allahın bə`zi saleh bəndələri, o cümlədən Əhli-beyt imamlarından belə işlərin həmin surətdə (yə`ni Allahın izni ilə) yerinə yetirmələrini istəsək nəinki şirk deyildir, üstəlik eynilə tövhiddir; çünki biz onları heç vaxt Allahın şəriki və Onunla bir səviyyədə, müstəqil qərar

---

[١] «Yusüf» surəsi, ayə:١٠٦.

[٢] «Ali-İmran» surəsi, ayə:٤٩.

verməmişik; əksinə, onları Allahın əmrinə tam müti bilir və Allahın əmrinin icraçıları hesab edirik.

Təəccüblüdür ki, vəhhabi başçıları mə`nasını aydınlaşdırdığımız şirk kəlməsini elə yozmuşlar ki, Allahın saleh bəndələrindən hər növ istəyi (onlar Allahın izni olmadan heç bir iş görmürlər) şirk bilmişlər, halbuki, bu tamamilə Qur`anın aşkar buyurduğunun əksinədir.

Fərz edin ki, bir şəxsin xidmətçisi var və o, öz ağasının əmrinə tabedir, onun icazəsi olmadan heç bir işi yerinə yetirmir. Əgər bir şəxs ona «öz ağandan filan işin yerinə yetirilməsini xahiş et» - desə, onda bu istəyi deyən şəxs xidmətçini onun ağasının şəriki, misli qərar vermiş olurmu, yoxsa öz xidməti yolunda olan bir iş hesab edilir?!

Görəsən, ayıq bir vicdan bu sözü qəbul və bu işi şirk hesab edərmi?! Onların bütün səhvləri buradan qaynaqlanır ki, bir mövzu barəsində olan müxtəlif Qur`an ayələrini bir-birinin yanına qoymamışlar ki, onların həqiqi məfhumlarını dərk edə bilsinlər; əksinə onlar özlərinin dəlilsiz mühakimələrində ilk nəzərə çarpanları qəbul etmiş, digərlərini isə kənara qoymuşlar.

B) «İlah» kəlməsinin məfhumu

Vəhhabilərin şeyxi təsəvvür edir ki, «İlah» kəlməsi yalnız mə`bud mə`nasınadır, buna görə də deyir ki, Peyğəmbər (səlləllahu əleyhi və alih)-in və, bütün dünya müsəlmanlarının həmişəki şüarı olan «la ilahə illəllah» cümləsi yalnız ibadətdə tövhidə nəzər yetirir (yə`ni yeganə Allahdan başqa heç bir mə`bud yoxdur), beləliklə, bu cümlə xilqət, raziqiyyət, rübubiyyət və s.-də şirki inkar etməyə nəzər yetirmir və onlar deyirlər ki, cahiliyyət dövrünün müşrikləri xaliqiyyət, raziqiyyət, rübubiyyətdə olan tövhidi qəbul edirdilər; onların problemləri yalnız ibadətdə olan tövhidin qəbul edilməməsi idi: Onlar Allahdan qeyrisinə pərəstiş edirdilər.

## ƏLAVƏ İZAH

Vəhhabilərin təsəvvürünün əksinə olaraq, ərəb müşrikləri təkcə ibadətdə olan şirkə aludə olmamışdılar. Başqa tə`birlə desək, «ilah» kəlməsi hər yerdə mə`bud mə`nasına deyil, bə`zən xaliq mə`nasına da gəlir. Qur`ani-Məcid buyurur:

أَمِ اتَّخَذُوا آلِهَةً مِّنَ الْأَرْضِ هُمْ يُنشِرُونَ لَوْ كَانَ فِيهِمَا آلِهَةٌ إِلَّا اللَّهُ

لَفَسَدَتَا فَسُبْحَانَ اللَّهِ رَبِّ الْعَرْشِ عَمَّا يَصِفُونَ

***“Yoxsa onlar yerdən müəyyən mə`budlar seçmişlər ki, onları (xəlq edir və) yer üzündə yayır?! Əgər asimanda və yerdə Allahdan qeyri olan mə`budlar mövcud olsaydı, bu ikisi (yer və asiman) fəsada düçar olardı: (onlara hakim olan qanunlar bir-birinə dəyər, hərc-mərclik baş alıb gedərdi). Ərşin pərvərdigarı olan Allah onların vəsf etdikləri sifətlərdən pak və münəzzəhdir!”***[١]

Bu aydəki «alihə» kəlməsi «ilah» sözünün cəm forması olub, xaliq mə`nasına gəlmişdir və bu ayədə söhbət ibadətdəki tövhiddən deyil, xaliqiyyətdəki tövhiddən gedir.

Digər bir ayədə həmin mə`na daha aşkar şəkildə bəyan olunur:

مَا اتَّخَذَ اللَّهُ مِن وَلَدٍ وَمَا كَانَ مَعَهُ مِنْ إِلَهٍ إِذًا لَّذَهَبَ كُلُّ إِلَهٍ بِمَا خَلَقَ وَلَعَلَا بَعْضُهُمْ عَلَى بَعْضٍ سُبْحَانَ اللَّهِ عَمَّا عَالِمِ الْغَيْبِ وَالشَّهَادَةِ فَتَعَالَى عَمَّا يُشْرِكُونَ

***“Allah heç vaxt Özünə övlad seçməmişdir; Onunla yanaşı digər bir ilah – xaliq də yoxdur. (Çünki) Əgər belə olsaydı, mə`budlardan hər biri öz məxluqlarını tədbir və idarə edər, bə`zisi digərinə qələbə çalardı (varlıq aləmi puçluğa gedərdi). Allah, onların vəsf etdiklərindən pak və münəzzəhdir! O, aşkarı da, gizlini də biləndir. O, müşriklərin Onun üçün qərar verdiyi yoldaş məsəlindən tam pak və münəzzəhdir.”***[٢]

Bu ayələrdə yeganə Allahdan başqa təsəvvür olunan digər xaliqlər inkar olunur (o da «ilah» kəlməsi ilə) və buyurulur ki, əgər Ondan başqa digər xaliqlər olsaydı, aləmin nizam-intizamı bir-birinə dəyərdi. Bu ayə ərəb müşriklərinin xaliqin çoxluğu barəsindəki e`tiqadını batil hesab edərək buyurur: ***«Fətəala əmma yuşrikun – O, müşriklərin Onun üçün qərar verdiyi yoldaş məsəlindən tam pak və münəzzəhdir.»***

Deməli, İslami də`vətin ibadətdə tövhiddə xülasələşdirilməsi və tövhidin digər yönlərinə nəzər yetirilməməsi Qur`an ayələrinə müxalif olan böyük bir səhvdir.

---

[١] «Ənbiya» surəsi, ayə:٢٢.

[٢] «Mu`minun» surəsi, ayə:٩١-٩٢.

Mövcud şahidlər göstərir ki, vəhhabilər tövhid və şirk məsələsində bir məfhum əldə edərək Qur`anın onların e`tiqadının əksinə olan digər ayələrinin yanından sadəliklə ötüb keçir və onları görməməzliyə vururlar. Onların bir çoxunun zahirdə Qur`an hafizi olmasına baxmayaraq, çox təəssüflər olsun ki, öz nəzərlərini yalnız qeyd olunan bir neçə ayədə təmərküzləşdirirlər. Halbuki, Qur`anı hifz etmək onu dərk etmək mə`nasına deyildir!

Həmçinin, başqa ayələrdən aydın olur ki, müşriklərin bə`ziləri bütlərə ibadət və onları xaliq hesab etməkdən əlavə, onların rübubiyyətinə (rəbb olması) də e`tiqad bəsləyirdilər. Yə`ni onları öz müqəddəratlarında tə`sirli bilir və bir xurafatçı təfəkkür əsasında belə fikirləşirdilər ki, bütlər öz müxaliflərinə qəzəblənərək onları biçarə, bədbəxt edir, müvafiqlərinə isə kömək və onları xoşbəxt edir. Misal üçün, Hud peyğəmbərin dövründəki müşriklər deyirdilər:

إِن نَّقُولُ إِلاَّ اعْتَرَاكَ بَعْضُ آلِهَتِنَا بِسُوَءٍ قَالَ إِنِّي أُشْهِدُ اللّهَ وَاشْهَدُواْ أَنِّي بَرِيءٌ مِّمَّا تُشْرِكُونَ

***“Biz (sənin barəndə) yalnız bunu deyirik ki, bizim mə`budlarımızdan bə`zisi sənə ziyan çatdırmışlar (və sənin əqlini əlindən almışlar). Hud dedi: Mən Allahı şahid tuturam, siz də şahid olun ki, mən sizin (Allaha) şərik qoşduqlarınızdan bizaram.!”***[١]

Onlar belə təsəvvür edirdilər ki, bütlər bə`zən qəzəblənib ziyan çatdırır, bə`zən də sevinərək xeyir-bərəkət verirlər. Yə`ni bütpərəstlər bütləri öz müqəddəratında tə`sirçi bilir, onlar üçün müəyyən rübubiyyət (rəblik) məqamı olduğuna inanırdılar ki, bu da çoxlarının əqidəsi idi.

Cahiliyyət dövründə bir ərəb şairinin Bəni-Hənifə tayfasını məzəmmət edərək oxuduğu məşhur bir şe`r də bu müddəanın şahididir (onların xurmadan büt düzəldib qəhətlik illərində onu yeməklərini göstərir):

اَكَلَتْ حَنيفَةُ رَبَّها عام التَّفَحُّم و الْفَجاعَة

لَمْ يَحْذَرُوا مِنْ رَبِّهِمْ سوء الْعَواقِبِ و التّباعَة

---

١ «Hud» surəsi, ayə:٥٤.

*«Bəni-Hənifə tayfası qəhətlik və aclıq illərində öz mə`budlarını yedilər və pərvərdigarlarının onları cəzalandıracağından qorxmadılar.»*[1]

Bu şe`rdəki «rəbb» kəlməsi bütlərə işarədir, bütü yeyənləri isə, öz işlərinin pis aqibətindən çəkindirir ki, məbada onlara qəzəb edib ziyan çatdıra!

Digər bir şair isə deyir:

أَرَبٌّ يبول الثَّعْلَبانُ برأسه

*«Elə bir büt ki, tülkülər onun üstünə bövl edər, rəbdirmi?»*[2]

Tarix boyu «rəbb» və «ərbab» kəlmələrinin bütlərə aid edilməsi bunu göstərir ki, onların inancına görə dünyanın tədbir və işlərinin idarə olunmasının bir qismi bütlərin əlindədir. Buna görə də Yusif (əleyhissalam) müşrik məhbusları tövhidə də`vət edərkən deyir:

يَا صَاحِبَيِ السِّجْنِ أَأَرْبَابٌ مُّتَفَرِّقُونَ خَيْرٌ أَمِ اللّهُ الْوَاحِدُ الْقَهَّارُ

***"Ey mənim zindan yoldaşlarım! Pərakəndə şəkildə olan mə`budlar yaxşıdır, yoxsa qüdrətli və vahid olan Allah?!***[3] (Bu ayədə «rəbb» sözünün cəm forması olan «ərbab» kəlməsi işlədilmişdir.)

Digər şahid: Qur`anın aşkar buyurduğu kimi, Peyğəmbəri-Əkrəm (səlləllahu əleyhi və alih) əhli-kitab müşriklərinə xitab edərək buyurur:

قُلْ يَا أَهْلَ الْكِتَابِ تَعَالَوْاْ إِلَى كَلَمَةٍ سَوَاء بَيْنَنَا وَبَيْنَكُمْ أَلاَّ نَعْبُدَ إِلاَّ اللّهَ وَلاَ نُشْرِكَ بِهِ شَيْئًا وَلاَ يَتَّخِذَ بَعْضُنَا بَعْضاً أَرْبَابًا مِّن دُونِ اللّهِ فَإِن تَوَلَّوْاْ فَقُولُواْ اشْهَدُواْ بِأَنَّا مُسْلِمُونَ

***"De, ey kitab əhli! Elə bir kəlməyə (sözə) tərəf gəlin ki, bizimlə sizin aranızda eynidir: Allahdan başqa heç bir mə`buda pərəstiş etməyək, heç nəyi Ona şərik qoşmayaq, bizlərdən bə`zimiz digərlərini – yeganə Allahdan başqa – mə`budluğa qəbul etməsin. Hərgah (bu də`vətdən) imtina etsələr, deyin: Şahid olun ki, biz müsəlmanıq."***[4]

---

[1] «Nəhcül bəlağə»nin şərhi, İbni Əbil Hədid, ٧-ci cild, səh. ٢٠٩.
[2] «Biharul ənvar», ٣-cü cil səh. ٢٥٣.
[3] «Yusüf» surəsi, ayə:٣٩.
[4] «Ali-İmran» surəsi, ayə:٦٤.

Ayədəki «ərbab» tə`biri göstərir ki, onlar Allahın rübubiyyət məqamında da şirkə düçar olmuşdular. Bu surənin digər bir ayəsində də buyurulur:

وَلاَ يَأْمُرَكُمْ أَن تَتَّخِذُواْ الْمَلاَئِكَةَ وَالنِّبِيِّيْنَ أَرْبَابًا أَيَأْمُرُكُم بِالْكُفْرِ بَعْدَ إِذْ أَنتُم مُّسْلِمُونَ

***"Allah sizə göstəriş vermir ki, mələkləri və peyğəmbərləri öz pərvərdigarınız seçəsiniz. Yoxsa sizi müsəlman olduqdan sonra küfrə də`vət edər?!"*** [1]

Çox da uzağa getmək lazım deyil; Qur`an cahiliyyət dövrünün bütpərəstləri barəsində deyir:

وَاتَّخَذُوا مِن دُونِ اللَّهِ آلِهَةً لَعَلَّهُمْ يُنصَرُونَ

***"Onlar Allahdan qeyri mə`budlar seçdilər ki, bəlkə onlara kömək edə."*** [2]

Yə`ni onlar rübubiyyət məsələsində şirkə düçar olaraq bütləri öz talelərində son dərəcə tə`sirçi hesab edirdilər.

İbrahim (əleyhissalam)-ın bütpərəstlər qarşısındakı söhbətlərinə nəzər salaq. O həzrət əvvəlcə onlarla birlikdə ulduz, ay və günəş barəsində üç dəfə *«haza rəbbi»* dedi ki, işin axırında onların əqidəsinin batil olduğunu göstərsin.[3]

Onun rübubiyyət məsələsinin vurğulanması göstərir ki, Babil bütpərəstləri aya, günəşə və ulduzlara, öz həyatlarının tədbir edəni ünvanı ilə baxırdılar. Eləcə də o həzrətin, Nəmrud qarşısında olan söhbətləri də bu qəbildəndir.[4]

Belə nəticə alırıq ki, «ilah» kəlməsi yalnız mə`bud mə`nasına deyildir; əksinə, bə`zən xaliq, bə`zən rəbb mə`nasına da işlənir. Müşriklər də təkcə ibadətdə şirkə düçar olmamışdılar; onlar xaliqiyyət, rübubiyyət məsələlərində də müşrik idilər. Deməli, Qur`ani-Məcidin *«əgər onlardan «aləmin xaliqi və müdəbbiri kimdir?» - deyə soruşsan, «Allahdır!» – deyə cavab verərlər»* - buyurmaqda məqsədi asimanların və yerin tədbirçisidir; çünki Qur`an ayələrinin arasında heç bir təzad və ziddiyyət yoxdur.

---

[1] «Ali-İmran» surəsi, ayə:٨٠.
[2] «Yasin» surəsi, ayə:٧٤.
[3] «Ən`am» surəsi, ayə:٧٦-٧٨.
[4] «Bəqərə» surəsi, ayə:٢٥٨.

Vəhhabi başçılarının Qur`an ayələri, xüsusilə «ilah» kəlməsi barəsində aldıqları yanlış nəticələrə istinad etməklə müsəlmanların qanını halal, mal-dövlətini qarət etmələri rəvadırmı?! Doğrudan da, müsəlmanın can və malının dəyəri nə qədər azalmışdır!

## Z) İBADƏTİN MƏFHUMU

İbadət vəhhabilərin, məfhumundan düzgün nəticə çıxarmadıqları üçüncü Qur`an kəlməsidir. Onlar deyirlər: Əgər insan saleh bir şəxsin hüzuruna gedib ondan, Allah dərgahında şəfaət etməsini istəyərsə, aşağıdakı ayə («Zümər» surəsi, ٣) ona şamil olar:

أَلَا لِلَّهِ الدِّينُ الْخَالِصُ وَالَّذِينَ اتَّخَذُوا مِن دُونِهِ أَوْلِيَاء مَا نَعْبُدُهُمْ إِلَّا لِيُقَرِّبُونَا إِلَى اللَّهِ زُلْفَى إِنَّ اللَّهَ يَحْكُمُ بَيْنَهُمْ فِي مَا هُمْ فِيهِ يَخْتَلِفُونَ إِنَّ اللَّهَ لَا يَهْدِي مَنْ هُوَ كَاذِبٌ كَفَّارٌ

***“Agah olun! Xalis din ancaq Allaha məxsusdur. O kəslər ki, Allahdan qeyrisini öz vəliləri qərar verdilər (onların dəlilləri və dedikləri söz bu idi:), bunlara yalnız ona görə pərəstiş edirik ki, bizi Allah dərgahına yaxınlaşdırsın. Allah qiyamət günü onların arasında, ixtilaf etdikləri şeydə mühakimə edəcəkdir. Allah yalan deyən və nankorluq edənləri heç vaxt hidayət etməz.”***

Lakin onlar bu Qur`an ayəsinə də diqqət yetirməmişlər ki, müşriklərin işinin iradı və eybi salehlərdən şəfaət istəmək deyildi; əksinə, onlara tutulan irad bu idi ki, şəfaət üçün onlara (bütlərə) pərəstiş və ibadət edir, onların müqabilində torpağa düşüb səcdə edirdilər. (Yuxarıdakı ayədəki *«ma nə`buduhum»* cümləsinin məfhumuna diqqət yetirin.)

Biz Peyğəmbəri-Əkrəm (səlləllahu əleyhi və alih)-in ziyarətinə gedib «ya Peyğəmbər, səndən istəyirik ki, dünya və axirətdə bizim şəfaətçimiz olasan» – deyəndə, ona pərəstişmi edirik?! Onun xatirinə yerə düşərək səcdəmi edirik?

Şəfaət istəməyin ibadətə nə dəxli var?! Əgər bir şəxs anadangəlmə kor olan uşağını həzrəti Məsih (əleyhissalam)-ın yanına gətirib və ona «sən ki, deyirsən anadangəlmə korlara, xora, cüzam xəstəliyinə tutulanlara şəfa verirəm, səndən xahiş edirəm ki, mənim övladıma Allahın izni ilə şəfa ver!» – deyirdisə, bu işin harası ibadətdir?! Bu elə bir işdir ki, Qur`ani-Kərim onun caiz olmasını

bəyan etmişdir!

İbadət – lüğətdə və camaat arasında «başqasının qarşısında son həddə kiçilçb xüzu etmək» mə`nasına işlənir, o cümlədən rüku və səcdə etmək kimi. Amma başqasından bir şeyi xahiş etməyin bu mövzu ilə heç bir əlaqəsi yoxdur.

Rağib özünün «Müfrədat» kitabında deyir:

اَلْعبودِيَّةُ اظْهارُ التَّذَلُّلِ و الْعبادَةُ اَبْلَغُ مِنْها لاَنَّها غايَةُ التَّذَلُّلِ

«Lisanul ərəb» kitabında isə belə deyilir:

اَصْلُ الْعبودِيَّةِ اَلْخُضُوعُ و التَّذَلُّلُ

Maraqlıdır ki, vəhhabi məzhəbinin başçısı *«liyuqərribuna iləllahi zülfa»* cümləsini diqqət mərkəzində saxlayır, lakin *«la nə`buduhum illa...»* cümləsinin kənarından sakitcə ötüb gedirlər. Deməli, bu işin iradı Allah dərgahına yaxınlaşmaq üçün Allahın izni ilə şəfaət istəyi deyil, Allahdan başqasına ibadət eləməkdir. Bəli, insan hər hansı bir məsələ barəsində mə`lumatı olmadan öncədən mühakimə yürütsə, öz məqsədinə müvafiq olanları görər, müxalif olanlara isə diqqət yetirməz, bə`zən də onların kənarından çox sadəcə ötüb keçər, sonra da milyonlarla müsəlmanın qətlinə fərman verərək hamısını müşrik sayar, onların malını, qanını, canını və namusunu halal hesab edər.

Əlbəttə, «şəfaət və duanın həqiqəti» barəsində olan bəhs tezliklə gələcəkdir, İnşallah!

## Q) ŞƏFAƏTİN MƏFHUMU

Şəfaət kəlməsi vəhhabilərin təfsir etməkdə yanlışlığa və xətaya düşdükləri dördüncü kəlmədir. Qeyd etdiyimiz kimi, onlar Peyğəmbər (səlləllahu əleyhi və alih)-dən, yaxud Əhli-beyt imamlarından, yaxud da digər salehlərdən şəfaət istəyən bütün insanların kafir olmasına dair hökm çıxararaq onları müşrik adlandırırlar ki, dəlilləri də yuxarıda qeyd olundu.

Onlar bu məsələdə həddindən artıq ifrata varmışlar. Onların rəhbərləri də «Kəşfuş-şubəhat» kitabında «bu müşrikləri» iki dəlilə görə Peyğəmbər (səlləllahu əleyhi və alih) dövründən qabaqkı dövrün – cahiliyyət dövrünün müşriklərindən pis hesab edir və deyir ki, onlar məada e`tiqad bəslədiklərinə baxmayaraq, nə namaz qılır,

nə də İslam fərizələrindən birini yerinə yetirirdilər. Onlar Peyğəmbər (səlləllahu əleyhi və alih)-i sehrkar və vacibul-qətl sayır, Qur`anı sehr hesab edirdilər. Bununla belə, yenə də bizim əsrimizin müşriklərindən (İslamda gələn bütün şeyləri qəbul edən, İslamın bütün qayda-qanunlarına iltizamlı olan, amma Peyğəmbərdən şəfaət istəyənlərdən) üstündürlər. Onlar israrla deyirlər ki, onların şirkləri bunların şirklərindən daha yüngül idi! Nə üçün?

Çünki onlar rifah və firavanlıq halında bütə pərəstiş edir, lakin çətinliyə (misal üçün, dəryada tufana) düşdükdə Allahı ixlasla çağırırdılar.[١]

Doğrudan da bu hökmü verənlər nə qədər insafsızlıq etmişlər! Dindar bir şəxs bütün İslam qanunlarını sözsüz qəbul edərək, onun bütün hökm və qanunlarını yerinə yetirdiyi, bütün günahlardan çəkindiyi, zəkat və digər şər`i vergiləri kamil şəkildə yerinə yetirdiyi, uzaq yollardan Allah Evinin ziyarətinə gəldiyi, Qur`anı hifz edib, İslam maarifini öyrəndiyi halda şərab içən, adam öldürən, cahil, qaniçən, cahiliyyət dövrünün müxtəlif günahlarına mürtəkib olan (onlar heç bir şeyi qəbul etmirdilər) şəxslərdən də pis olmasına hökm etmək necə də cəfadır! Səbəbi də bu olsun ki, Peyğəmbəri-Əkrəm, yaxud digər bir saleh şəxsdən şəfaət istəyənlər müşrikdirlər, hamısının malları, canları və namusları da mübahdır! !

Bugünkü dünyada məntiqdən uzaq olan belə sözləri kim qəbul edər?!

Deməli, bunu qəbul etməliyik ki, artıq bu kimi yanlış fikirlərin ömrü sona çatmışdır və tezliklə tarixin zibilxanasına atılacaqdır.

İndi isə bəhsimizin əsas mövzu olan şəfaəti araşdırırıq. Görəsən, tövhid baxımından bu məsələdə hansı müşküllər vardır ki, onlar bu qədər kafir, müşrik və qanı halal olan şəxslər düzəltmişlər?!

Görəsən, Şeyxul-islam bu məsələ barəsində təzə bir şey kəşf edibdirmi ki, tarix boyu bütün İslam alimlərinə – ondan və İbni Teymiyyədən başqa – məxfi qalmışdır?! Həqiqət bundan ibarətdir ki, şəfaət məsələsinin əsli çoxlu Qur`an ayələri ilə sübuta yetmişdir, o, alimlərin fikir birliyinə əsasən, İslam dininin danılmaz və zəruri məsələlərindən biridir. Hətta vəhhabilər də şəfaət məsələsinin əslini

---

[١] Bu sözlərin ərəbcəsi əvvəldə qeyd olundu.

inkar etmir və onu tam şəkildə qəbul edirlər. Digər bir məsələ – şəfaətçilərin Allahın izni olmadan şəfaət edə bilməmələri də danılmaz bir məsələdir; çünki Qur`anın beşdən artıq ayəsində bu məsələ aşkar şəkildə qeyd olunmuşdur, o cümlədən «Ayətəl-kürsü»nü qeyd etmək olar:

مَن ذَا الَّذِي يَشْفَعُ عِنْدَهُ إِلاَّ بِإِذْنِهِ

***"Allahın izni olmadan kim Onun dərgahında şəfaət edə bilər?!"*** [1]

«Fe`llərdə tövhid» məsələsi deyir ki, aləmdə olan hər bir şey Allahın izni ilə baş verməlidir, Allaha şərik və bərabər olacaq bir kəs də yoxdur. Şəfaət də baş verirsə, yalnız Allahın izni və fərmanı ilədir. O, həkim olduğuna görə, izni və icazəsi də hikmət əsasında baş verir. Allah yalnız o şəxsə şəfaət icazəsi verir ki, şəfaətə layiq olsun və üsyankarlıq yolunda bütün körpüləri arxada qoymamış və viran etməmiş olsun. (Diqqət edin!)

Bura qədər bütün məsələlər qəbul olunur, amma ixtilaf bundadır: İslam alimləri (vəhhabilərdən başqa) deyirlər ki, Allahın Peyğəmbəri-Əkrəmə verdiyi hər hansı bir şeyi ondan istəmək layiqli bir işdir, bu, nəinki tövhidlə müxalif deyildir, üstəlik onu dəstəkləyir. Lakin vəhhabilər deyirlər ki, əgər ondan şəfaət istəsən kafir, müşrik olursan, malın və qanın hədərə gedəcəkdir!

Görəsən, şəfaət batildirmi? Xeyr; çünki bütün alimlərin fikir birliyinə əsasən, bu iş caizdir. Peyğəmbərin şəfaət məqamı yoxdurmu? Hamısı deyirlər ki, vardır. Bəs bu işin düyünü hardadır?! Onlar deyirlər ki, o həzrət şəfaət məqamına malikdir, lakin bunu ondan istəmə, əks halda kafir olarsan! Çünki Qur`an buyurur ki, ərəb müşrikləri deyirdilər: *«Biz bütlərə buna görə pərəstiş edirik ki, onlar bizim Allah yanındakı şəfaətçilərimizdir.»* Sizin işləriniz də ərəb müşriklərinin işlərinə oxşayır!

Biz deyirik: – Onlar bütlərə pərəstiş edirdilər, biz isə Peyğəmbər (səlləllahu əleyhi və alih)-ə və onun ailəsinə heç vaxt pərəstiş etmirik, şəfaət istəməyin ibadət və pərəstişlə heç bir əlaqəsi yoxdur.

Deyirlər: – Biz dediyimiz kimidir!

---

[1] «Bəqərə» surəsi, ayə:٢٥٥.

Biz deyirik: – Qur`an özü günahkarlara göstəriş verir ki, Peyğəmbərin yanına gedərək ondan, Allah dərgahında günahlarının bağışlanması üçün şəfaət etməsini istəsinlər, Allah da onları bağışlasın:

وَلَوْ أَنَّهُمْ إِذ ظَّلَمُواْ أَنفُسَهُمْ جَآؤُوكَ فَاسْتَغْفَرُواْ اللّهَ وَاسْتَغْفَرَ لَهُمُ الرَّسُولُ لَوَجَدُواْ اللّهَ تَوَّابًا رَّحِيمًا

***"Əgər müxaliflər özlərinə zülm (Allahın fərmanlarına itaətsizlik) etdikləri zaman sənin yanına gəlsəydilər və Allahdan bağışlanmaq istəsəydilər, Peyğəmbər də onlar üçün istiğfar etsəydi, Allahın tövbə qəbul edən və mehriban olduğunu mütləq görərdilər."***[١]

Bundan da aşkarı Yə`qub (əleyhissalam)-ın hadisəsidir. Övladları Yusifə qarşı gördükləri səhv və günahlarını atalarının yanında e`tiraf etdikdən sonra xahiş etdilər ki, Allah dərgahında onlar üçün şəfaət etsin. Onlar dedilər:

قَالُواْ يَا أَبَانَا اسْتَغْفِرْ لَنَا ذُنُوبَنَا إِنَّا كُنَّا خَاطِئِينَ قَالَ سَوْفَ أَسْتَغْفِرُ لَكُمْ رَبِّيَ إِنَّهُ هُوَ الْغَفُورُ الرَّحِيمُ

***"Atacan, Allah yanında bizim günahlarımızın bağışlanmasını istə, çünki biz xətakar idik. Atası dedi: Tezliklə sizin üçün Pərvərdigarımın yanında bağışlanmaq istəyəcəyəm, çünki O, bağışlayan və mehribandır."***[٢]

Həzrət Yə`qub (əleyhissalam) bu istəyi – Allah yanında şəfaət istəyini nəinki inkar etmədi, üstəlik onu alqışla qarşıladı.

Görəsən, Allah Peyğəmbəri (nəuzu billah!) öz övladlarını küfrə, şirkə də`vət edərmi?!

## YERSİZ BƏHANƏLƏR...

Maraqlıdır ki, təəssübkeş vəhhabilər cavab verməyə qadir olmadıqları üçün buraya çatanda sözlərini dəyişir və deyirlər: «Yuxarıdakı ayə, bu iki peyğəmbərin həyatda olduğu vaxta aid idi, lakin ölümdən sonra cansız, ruhsuz bir əşya formasına düşdüyü

---

[١] «Nisa» surəsi, ayə:٦٤.

[٢] «Yusüf» surəsi, ayə:٩٧-٩٨.

zaman onların əlindən heç nə gəlməz! Peyğəmbərin də vəfatından sonra ondan şəfaət istəməyin faydası yoxdur!»

Diqqət yetirin ki, burada artıq şirk və küfr məsələsi unudulur və "əbəslik" məsələsi irəli çəkilir. Onlar deyirlər ki, həyatlarında onlardan şəfaət istəmək nə şirkdir, nə də küfr; lakin ölümündən sonra olarsa, bu əbəs bir işdir. Bu da həqiqətdə əvvəlki bütün iddiaları geri götürmək deməkdir.

Biz isə deyirik: Bu iş nə küfrdür, nə də əbəsdir; çünki heç bir müsəlman özünə icazə verməz ki, «Peyğəmbəri-Əkrəm (səlləllahu əleyhi və alih)-in məqamı Bədr və Ühüd müharibələrində şəhadətə çatan şəxslərin məqamından azdır» (halbuki, onlar diridir və Allah yanında ne`mətlərdən bəhrələnirlər. («Ali-İmran», ١٦٩) və «Peyğəmbəri-Əkrəm (nəuzu billah!) adi bir daş kimidir! Desin! Hansı cəfakar belə sözləri deyər?!

Onların səhvləri aşağıdakı ayələri düzgün başa düşməməkdən irəli gəlir: Qur`an Peyğəmbər (səlləllahu əleyhi və alih)-ə buyurur:

إِنَّكَ لَا تُسْمِعُ الْمَوْتَى وَلَا تُسْمِعُ الصُّمَّ الدُّعَاء إِذَا وَلَّوْا مُدْبِرِينَ

***"Şübhəsiz, sən öz sözlərini ölülərin qulağına çatdıra bilməzsən; karları, sənə arxa çevirdikləri zaman, çağıra bilməzsən!"***[1]

Halbuki, bu, Peyğəmbər (səlləllahu əleyhi və alih)-ə, yaxşı əməl sahiblərinə, pak insanlara deyil, adi insanlara aiddir.

Onlardan soruşmaq lazımdır ki, nə üçün namazda o həzrətə salam göndərib *«Əssəlamu əleykə əyyuhən-Nəbiyyu və rəhmətullahi və bərəkatuh»* deyirsiniz?! Öz əqidənizə görə, heç bir şeyi dərk etməyən (nəuzu billah!) bir şeyə salam göndərirsiniz?!

Həmçinin soruşuruq ki, sizin

إِنَّ اللَّهَ وَمَلَائِكَتَهُ يُصَلُّونَ عَلَى النَّبِيِّ يَا أَيُّهَا الَّذِينَ آمَنُوا صَلُّوا عَلَيْهِ وَسَلِّمُوا تَسْلِيمًا

***"Həqiqətən, Allah və Onun mələkləri Peyğəmbərə salavat göndərirlər. Ey iman gətirənlər! Siz də ona salavat göndərin, salam deyin və onun əmr və fərmanlarına sözsüz təslim olun!"*** - ayəsinin ölümündən sonra Peyğəmbər (səlləllahu əleyhi və alih)-ə aid

---

[1] «Nəml» surəsi, ayə:٨٠.

olmasına əqidəniz varmı?! Əgər əqidəniz varsa, deyin görək, Allah və mö`minlər rəhmət və salamı kimə göndərirlər?! (Nəuzu billah) heç bir şeyi dərk etməyən bir şəxsəmi?!

Nə üçün o həzrətin qəbrinin baş tərəfində bu ayəni yazıb vurmusunuz:

يَا أَيُّهَا الَّذِينَ آمَنُوا لَا تَرْفَعُوا أَصْوَاتَكُمْ فَوْقَ صَوْتِ النَّبِيِّ وَلَا تَجْهَرُوا لَهُ بِالْقَوْلِ كَجَهْرِ بَعْضِكُمْ لِبَعْضٍ أَن تَحْبَطَ أَعْمَالُكُمْ وَأَنتُمْ لَا تَشْعُرُونَ

***“Ey iman gətirənlər! Öz səsinizi Peyğəmbərin səsindən ucaya qaldırmayın, onun qarşısında ucadan danışmayın (haray-həşir qoparmayın); necə ki, sizlərdən bə`ziniz başqalarınızın qarşısında uca səslə danışır. Əks halda, sizin əməlləriniz bilmədiyiniz halda məhv olub aradan gedər.”*** [١]

Nə üçün icazə vermirsiniz ki, bir şəxs orada (Peyğəmbərin pak qəbrinin kənarında) öz səsini ucaltsın?! Əgər Peyğəmbərin vəfatından sonra o həzrət barəsində bu əqidəyə malik olub «ölümdən sonra (nəuzu billah) heç nəyi dərk etmir» deyirsinizsə, bir-birinə zidd olan bu sözlərin nə mə`nası vardır?!

İnsafla deyin: belə bir əqidə sizin məsləkin ömrünün sona çatmasına bir dəlil deyildirmi?!

## D) QUR`ANDA DUANIN MƏFHUMU

İfratçı vəhhabilərin son dərəcə səhvə düşüb yanıldıqları və bu yanlış hökm əsasında müsəlmanlardan çoxunu kafir hesab etdikləri kəlmələrdən biri də Qur`andakı «dua» məsələsidir. Onlar iddia edib deyirlər ki, hər kəs Peyğəmbəri-Əkrəm (səlləllahu əleyhi və alih)-i, yaxud ilahi şəxsiyyətləri – övliyaullahı çağırsa, müşrik və kafirdir, onun canı, malı və namusu mübahdır (hədərdir).

Məhəmməd ibni Əbdül-Vəhhabın tərəfdarlarından biri olan Sən`aninin «Tənzihul-e`tiqad» kitabında dediyi bir sözün tərcüməsini eynilə aşağıda qeyd edirik:

«Allah-taala duanı ibadət adlandıraraq buyurmuşdur:

---

[١] «Hucərat» surəsi, ayə:٢.

وَقَالَ رَبُّكُمُ ادْعُونِي أَسْتَجِبْ لَكُمْ إِنَّ الَّذِينَ يَسْتَكْبِرُونَ عَنْ عِبَادَتِي سَيَدْخُلُونَ جَهَنَّمَ دَاخِرِينَ

***"Rəbbin dedi: Məni çağırın ki, (duanızı) qəbul edim. Mənə ibadət etməkdə təkəbbür edənlər xarlıqla cəhənnəmə daxil olacaqlar."***[1] Deməli, müəyyən bir işi yerinə yetirmək üçün Peyğəmbəri, yaxud (salehlərdən olan) bir şəxsi çağırsa, yaxud ona «Allah yanında mənim hacətimin yerinə yetirilməsi üçün şəfaətçi ol», yaxud «sənin vasitənlə Allah yanında hacətimin yerinə yetirilməsi üçün şəfaət istəyirəm», yaxud «mənim borcumu ödə, xəstəliyimə şəfa ver» və s. kimi sözlər desə, bu halda Peyğəmbəri, yaxud o saleh şəxsi dua etmişdir (çağırmışdır). Dua da ibadətdir, üstəlik ibadətin məğzidir. Belə olan təqdirdə həmin şəxs Allahdan qeyrisinə ibadət etmiş və müşrik olmuşdur. Çünki tövhid yalnız o zaman kamil olar ki, insan Allahı üluhiyyətdə, xaliq və raziq olmaqda yeganə bilsin, başqasını xaliq və raziq hesab etməsin, Ondan qeyrisinə ibadət etməsin; Hətta ibadətlərin bə`zilərini belə, Ondan qeyrisi üçün yerinə yetirməsin.»[2]

Bu kimi ibarələr onların kitablarının çoxunda təkrar olunur.

Onların Allahdan qeyrisini çağıranların kafir olması müddəasına dair istinad yerləri yuxarıdakı ayədir ki, Sən`aninin kitabında qeyd olunmuşdur. Digər ayələr isə aşağıdakılardır:

١- وَأَنَّ الْمَسَاجِدَ لِلَّهِ فَلَا تَدْعُوا مَعَ اللَّهِ أَحَدًا

***"Məscidlər Allaha məxsusdur, belə isə, Allahla birlikdə heç kəsi çağırmayın!"***[3]

٢- لَهُ دَعْوَةُ الْحَقِّ وَالَّذِينَ يَدْعُونَ مِن دُونِهِ لاَ يَسْتَجِيبُونَ لَهُم بِشَيْءٍ

***"Haqqı çağırmaq yalnız Ona məxsusdur. Allahdan qeyrisini çağıranların duası heç vaxt qəbul dərəcəsinə yetməz."***[4]

٣- إِنَّ الَّذِينَ تَدْعُونَ مِن دُونِ اللَّهِ عِبَادٌ أَمْثَالُكُمْ

*"Allahdan qeyri olaraq çağırdığınız şeylər sizin özünüz kimi bəndələrdir."* [1]

---

[1] «Ğafir» surəsi, ayə:٦٠.
[2] «Tənzihul-etiqad».
[3] «Cinn» surəsi, ayə:١٨.
[4] «Rə`d» surəsi, ayə:١٤.

Bu ayələrdən də Sən`anin sözündə qeyd olunanları nəticə alır və deyirlər ki, heç kəsin hətta *«ya Rəsuləllah, işfə` li indəllah» (yə`ni: Ey Allahın Rəsulu, Allah dərgahında mənə şəfaət et)* - deməyə haqqı yoxdur, çünki bu halda o şəxs kafir və qanı hədər olur.

Deməli, bu qrupun minlərlə insanın qətlə yetirib, qılıncdan keçirdiyi, mal-dövlətini qarət etməsinə səbəb olan bu mühüm terrorizm amillərindən biri də Qur`ani Məciddəki dua mə`nasından yanlış nəticə və çıxarış almalarıdır.

İndi Qur`ani-Məcidə müraciət edərək dua kəlməsini araşdırırıq ki, Allahdan qeyrisini dua etmək və çağırmağın bə`zən küfr, bə`zən isə iman olduğu aydınlaşsın. Bu kimi şəxslər isə mə`lumatlarının azlığı, yaxud düzgün olmayan mühakimələr nəticəsində belə təhlükəli səhvə yol vermişlər.

(Biz də təcrübədə görmüşük ki, elmiyyə hövzələrimizdə bə`zən vəhhabi əqidələrinə meyl edən çox nadir şəxslər də mə`lumatı çox az olan adamlardır, hətta hövzə dərslərində belə, onların çoxlu problemləri vardır.)

Qur`ani Məciddə «dua» kəlməsi müxtəlif mə`nalarda işlənmişdir. O cümlədən:

١-İbadət mə`nasına olan dua «Cinn» surəsinin ١٨-ci ayəsi kimi:

وَأَنَّ الْمَسَاجِدَ لِلَّهِ فَلَا تَدْعُوا مَعَ اللَّهِ أَحَدًا

Bu ayədəki «məəllah» (Allahla yanaşı, birgə) tə`biri bunu çatdırır ki, heç bir kəsi Allahın şəriki və bərabəri təsəvvür və ona ibadət etmək olmaz. Bu mətləbin dəlili həmin surənin ٢٠-ci ayəsidir. Belə ki, buyurulur:

قُلْ إِنَّمَا أَدْعُو رَبِّي وَلَا أُشْرِكُ بِهِ أَحَدًا

***"De: yalnız Pərvərdigarıma pərəstiş edir və heç kəsi Ona şərik qoşmuram."***

Hər bir müsəlman bilir ki, bu mə`naya olan «dua» Allaha məxsusdur və heç kəs Onunla bərabər deyil. Bu məsələdə heç kəsin şəkk-şübhəsi yoxdur.

٢-Bir şeyə tərəf çağırmaq mə`nasına olan dua. Belə ki, Nuh peyğəmbərin barəsində deyilir:

---

[١] «Ə`raf» surəsi, ayə:١٩٤.

قَالَ رَبِّ إِنِّي دَعَوْتُ قَوْمِي لَيْلًا وَنَهَارًا فَلَمْ يَزِدْهُمْ دُعَائِي إِلَّا فِرَارًا

***"Nuh dedi: Pərvərdigara, öz qövmümü gecə-gündüz (Allah dərgahına) çağırdım, lakin mənim duamın onların fərar etməsindən başqa heç bir tə`siri olmadı."***[١]

Aydındır ki, qövmün çağırılmasından ibarət olan bu dua, elə onların imana doğru çağırılmasıdır və bu növ dua da eynilə imandır, onun yerinə yetirilməsi Allah peyğəmbərlərinə vacib edilmişdir.

İslam Peyğəmbər (səlləllahu əleyhi və alih)-i barəsində gələn:

أُدْعُ إِلِى سَبِيلِ رَبِّكَ بِالْحِكْمَةِ وَالْمَوْعِظَةِ الْحَسَنَةِ

***«Camaatı Allah yoluna hikmət və gözəl moizə ilə çağır»***[٢] - ayəsi də həmin qismdəndir.

٣-Hacətlərin rəva olunması mə`nasına olan dua; bu da bə`zən adi yollarladır; misal üçün

وَلاَ يَأْبَ الشُّهَدَاء إِذَا مَا دُعُواْ

***"Şahidlər şəhadət vermək üçün də`vət olunduqda imtina etməməlidirlər."***

Bu «çağırma» və «dua» etmə adi işlərdədir və əgər bir şəxs onu yerinə yetirsə, kafir olmaz, üstəlik öz şər`i vəzifəsini yerinə yetirmiş olar.

Bə`zən də qeyri-adi və mö`cüzə yolu ilə olur ki, bunun özü də iki qismdir:

Bəzən tə`sir qoymada Allahdan qeyrilərinin müstəqilliyinə e`tiqad bəslənir, bə`zən də böyük bir şəxsiyyətdən istənilir ki, Allahdan bizim üçün bir şey istəsin. Birinci qism şirkdir, çünki tə`sirdə müstəqillik yalnız Allah-taalanın pak və müqəddəs zatına məxsusdur, hətta adi səbəblər belə, özlərini malik olduqları hər bir şeyi Allahdan almışlar və məhz Onun izni ilə tə`sir qoyurlar.

Qur`ani-Məcid bu barədə buyurur:

قُلِ ادْعُواْ الَّذِينَ زَعَمْتُم مِّن دُونِهِ فَلاَ يَمْلِكُونَ كَشْفَ الضُّرِّ عَنكُمْ وَلاَ تَحْوِيلاً

***"De: (çətinliklərinizi həll etməyə qadir olduğunu) təsəvvür etdiyiniz şeyləri – Allahdan qeyrilərini çağırın, onlar sizin müşkül-***

---

[١] «Nuh» surəsi, ayə:٥-٦

[٢] «Nəhl» surəsi, ayə:١٢٥.

***lərinizdən heç birini aradan qaldırmağa qadir deyildirlər və onda heç bir dəyişiklik edə bilməzlər.”*** [1]

Heç bir agah mö`min və imanlı müsəlman hansısa bir peyğəmbər və övliyaullah barəsində belə əqidəyə malik olmamışdır.

Amma ikinci qismə gəldikdə isə, o, kamil insanın tövhidindən ibarətdir: Yə`ni bir şəxsi Allah dərgahında şəfaətçi (vasitəçi) qərar verib, səbəblərin yaradanının Allah olduğunu bilir və hər bir şeyin Onun qüdrəti dairəsində olduğunu görür, lakin övliyaullaha təvəssül etməklə ondan istəyirik ki, Allah yanında bizim üçün hər hansı bir hacətin yerinə yetməsini istəsinlər. Bu da Allahın mütləq məşiyyətinə e`tiqad və tövhidlə eyniyyət təşkil edir.

Qur`ani-Məciddə buyurulur: Bəni-İsrail qövmü Musanın yanına gəlib ondan istədilər ki, onlar üçün Allahdan müxtəlif növ yeməklər istəsin (mənn və səlvadan başqa).

وَإِذْ قُلْتُمْ يَا مُوسَى لَن نَّصْبِرَ عَلَىَ طَعَامٍ وَاحِدٍ فَادْعُ لَنَا رَبَّكَ يُخْرِجْ لَنَا مِمَّا تُنبِتُ الأَرْضُ مِن بَقْلِهَا...

***«Ey Musa! Biz bir növ yeməklə qənaətlənib, dözə bilmərik; Pərvərdigarından istə, bizim üçün yer üzərində olan şeylərdən – göy-göyərti, xiyar, mərci və s. hazırlasın!”*** [2]

Musa onlara «nə üçün ya Musa» - deyə xitab etmələrinə görə heç vaxt irad tutmadı və «nə üçün özünüz birbaşa Allahdan istəmirsiniz, bu iş şirk və küfrdür!» demədi; əksinə, onların hacətlərini Allahdan istədi və o da yerinə yetirildi, Allah tərəfindən *«ləkum ma səəltum» (istədiyiniz şeylər sizin üçün hazırdır)* xitabı da nazil oldu. Yalnız onlara deyildi k, siz daha yaxşı olan yeməkləri boşlamısınız, əhəmiyyəti az olan yeməkləri axtarırsınız.

***

Nəticə

Bu bəhsdə qeyd olunanlardan aydın olur ki, vəhhabilərin bu qrupu Qur`ana müraciət etmək, orada duanın işlədildiyi müxtəlif yerləri görmək və onları bir-birinin yanına qoyaraq Qur`anın dua məsələsi barəsində ki, dərin tə`limlərin hamısının məcmusundan dərk etmək əvəzinə, yalnız bir ayə ilə kifayətlənir, bundan başqa ayələrə

---

[1] «İsra» surəsi, ayə:٥٦.

[2] «Bəqərə» surəsi, ayə:٦١.

müraciət etmir və bunun ardınca da dünya müsəlmanlarının əksəriyyətinə şirk və küfr damğası vururlar. Bundan da təəssüflüsü budur ki, əməldə də onu icra edib, müxlis müsəlmanlardan bir çoxunu qılıncdan keçirir, onların qanını su kimi axıdır və mal-dövlətini qarət edirlər. (Əvvəlki bəhslərdə buna işarə edildi.)

## E) QUR`ANDA VƏ SÜNNƏDƏ BİD`ƏT

Vəhhabilərin mə`nasını dərk etməkdə böyük səhvə yol verdikləri altıncı kəlmə «bid`ət» kəlməsidir.

Qur`ani-Məcid «Hədid» surəsinin ٢٧-ci ayəsində röhbaniyyət məsələsini məzəmmət edərək buyurur:

وَرَهْبَانِيَّةً ابْتَدَعُوهَا مَا كَتَبْنَاهَا عَلَيْهِمْ إِلَّا ابْتِغَاء رِضْوَانِ اللَّهِ فَمَا رَعَوْهَا حَقَّ رِعَايَتِهَا

***"Bid`ət qoyduqları şeyləri Biz onlara müqərrər etməmişdik; Biz onlara yalnız Allahın razılığını qazanmağı müqərrər etmişdik, lakin onlar bunun haqqına riayət etmədilər."***

Əgər bu ayədəki istisnanı müttəsil hesab etsək – necə ki, ayənin zahiri belədir – onda ayənin məfhumu yuxarıda qeyd olunanlardan ibarətdir. Yə`ni məsihilər bir növ röhbaniyyət və tərki-dünyalığı bid`ət olaraq gətirmişdilər ki, Allah tərəfindən qanun şəklinə salınmamışdı, amma eyni halda ona da riayət etmədilər. (Bunun şərhi aşağıda qeyd olunacaqdır.)

Amma ayədəki istisnanı «münqəti» hesab etsək, ayənin mə`nası belə olar ki, Biz röhbaniyyəti onlara göstəriş verməmişdik (əksinə, bu, onların tərəfindən qoyulan bir bid`ət idi), Biz onlara «ibtiğaə mərzatillah»ı (Allahın razılığını cəlb etməyi) tövsiyə etmişdik ki, ona da riayət etmədilər.

Ümumiyyətlə, ayədə bu növ bid`ət məzəmmət olunmuşdur. Bu elə bir bid`ətdir ki, tarixçilərin yazdığına görə, həzrət İsa (əleyhissalam)-dan bir neçə əsr sonra məsihilərin məğlubiyyətinə, bir qrupun biyabanlara və dağlara çəkilərək, aspekt həyat tərzi keçirməsinə səbəb olan bir sıra tarixi hadisələr nəticəsində yaranmış və tədrici olaraq röhbaniyyət onların dini proqramları sırasına keçmişdir. Əvvəlcə dünyanı tərk edən kişilər (rahiblər) deyrlərə (monastrlara) gedirdilər, sonra dünyanı tərk edən qadınlar da

(rahibələr) onlara qoşularaq deyrdə yaşamağa başladılar.

Röhbaniyyətlə yanaşı, rahib və rahibələrin yanında formalaşmaqda olan yanlış sünnələrdən biri də evlənməyin mütləq şəkildə tərk olunması idi ki, bu da Allahın qoyduğu sünnənin və bəşər təbiətinin əksinə idi, odur ki, bunun ardınca saysız-hesabsız fəsadlar yaranırdı.

Məşhur qərb tarixçisi Vill Dorant özünün «Tarix» kitabında röhbaniyyət məsələsini geniş şəkildə şərh və e`tiraf edir ki, rahibələrin (tərki-dünyalıq edən qadınların) rahiblərə qoşulması dördüncü miladi əsrindən başlamış, nəticədə röhbaniyyətin işi günbəgün rövnəqlənmiş və onuncu miladi əsrində özünün zirvə həddinə çatmışdır.[١]

Rahib kişi və qadınlar tarix boyu müxtəlif ictimai xidmətlər etsələr də, onların əməllərindən törənən ictimai və əxlaqi pozğunluqlar daha artıq idi. Münasib olardı ki, onların törətdiyi və məsihilərin tarix kitablarında qeyd olunan fəsadları zikr etməkdən keçək. Bəli, bid`ətlərin nəticəsi əksər hallarda belə olur!

Yuxarıda qeyd edilən ayədən əlavə bid`ətin məzəmmət olunmasına dair İslami mənbələrdə çoxlu rəvayətlər gözə dəyir. O cümlədən, Peyğəmbər (səlləllahu əleyhi və alih)-in buyurduğu məşhur *«kullu bid`ətin zəlalətun», yə`ni bütün bid`ətlər zəlalət və azğınçılıqdır* – hədisi çoxlu kitablarda, o cümlədən «Müsnədi Əhməd», «Müstədrəku Səhiheyn», «Sünənu Beyhəqi», «Əl-mö`cəmul-ovsət» və «Sünənu İbni Macə» kitablarında qeyd olunmuşdur.[٢]

İfratçı vəhhabilər bu kimi hədisləri müşahidə etdikdə bid`ətin mə`nasına diqqət yetirmədən, ilk növbədə hər bir yeniliklə müxalifətə qalxmış, hətta velosipedi «şeytan arabası» adlandırmış, telefon xəttinin çəkilməsinə qarşı çıxmışlar. Amma dünyanın texnika və sənayeyə tərəf sür`ətlə hərəkət etdiyini gödükdə, nəhayət qərbin sənaye və texniki avadanlıqları müqabilində təslim olmuşlar. Nəinki təslim olmuş, üstəlik ona qərq də olmuşlar. Bu gün Səudiyyə

---

[١] Vill Dorant, «Tarix», ١٣-cü cild, səh.٤٤٣.

[٢] «Müsnədu Əhməd», ٤-cü cild, səh.١٢٦, «Müstədrək», ١-ci cild, səh.٩٧, «Sünəni Beyhəqi», ١٠-cu cild, səh.١١٤, «Sünəni İbni Macə», ١-ci cild, səh.١٦, «əl-Mö`cəm», Təbərani, ١-ci cild, səh.٢٨.

Ərəbistanına səfər etdikdə görürük ki, qərbdə istehsal olunan son markalı avtomobillər, hava təmizləyicilər (kondisonerlər), çox gözəl və maraqlı məişət avadanlıqları, hətta müxtəlif super-marketlər və qərb yeməkləri belə, hər yeri doldurmuşdur, böyük-kiçik, alim-cahil hamılıqla ondan istifadə edirlər.

Bu zaman mütləq yeniliklərlə – bid`ətlərlə mübarizə və müxalifəti boşlayaraq yalnız onların nəzərində dini yönə malik olan «bid`ətlərlə» müxalifətə qalxmışlar. O cümlədən, qəbir üzərində bina tikmək, Peyğəmbər (səlləllahu əleyhi və alih)-in və sair din böyüklərinin milad mərasimini bayram keçirmək, şəhidlərə əzadarlıq təşkil etmək və sair. Bunlara əməl edən hər kəsi bid`ətçi hesab edir, tə`nə vururlar.

***

Amma, doğrusu, görəsən bid`ət nədir və hansı hallarda haramdır?! Aşağıdakı izahlara diqqət yetirin, yuxarıda qeyd etsək də burada əlavə izah verməK məcburiyyətindəyik:

Yuxarıda işarə etdiyimiz kimi, bid`ət lüğətdə yaxşı və ya pis olmasından asılı olmayaraq «hər növ yenilikçilik», fəqihlərin istilahında isə «dində olmayan bir şeyi dinə daxil etmək»dir.

Bəli, hər vaxt dində olmayan bir şeyi dinə artıraraq onu ilahi bir göstəriş hesab etsək, bid`ət qoymuş olarıq.

Bu da iki yolla yerinə yetirilir: ١-vacibi haram və haramı vacib etmək, ٢-qadağanı mübah, mübah olan şeyi isə qadağan hesab etmək. Məsələn, «bugünkü bank sistemində ribadan (sələm, faiz) çəkinmək qeyri-mümkündür, deməli, o, qəbul ediləsidir», yaxud «hicab elə bir zamana aid idi ki, mədəniyyət və sivilizasiyalı insanlar onu qəbul etmir, deməli, bu gün hicabın götürülməsinin eybi yoxdur, və s. müxtəlif bəhanələrlə halalı haram, haramı halal hesab etsək, bu halların hamısı bid`ətin bariz nümunələrindəndir.

Bə`zi vaxtlar da dini göstərişlərdə: Allahın kitabı və Peyğəmbər (səlləllahu əleyhi və alih) sünnəsində varid olmayan şeyləri dinin bir hissəsi hesab etmək bid`ət olur, məsələn, ölülərin üç, yeddi və qırx günlərinin matəm keçirilməsi camaat arasında olan adi bir işdir. Biz bunu İslam göstərişlərindən hesab etsək, yaxud bayram günlərində şadlıq mərasimi keçirməyi şər`i vacib hesab etsək və s.

Daha aydın sözlə desək, yenilikçilik üç qismdir:

١-Tam mə`nada, camaat arasında adi olan və şər`i məsələlərə heç bir dəxli olmayan işlərdə yenilikçilik; Buna sənaye və təbii elmlərdəki ixtiraları misal çəkmək olar ki, Peyğəmbər (səlləllahu əleyhi və alih)-in əsrində və onun həyatda olduğu dövrlərdə, eləcə də sair mə`sum rəhbərlərin həyatında mövcud olmamışdır; çünki elmi tərəqqi və ixtiraçılıq heç bir nöqtədə dayanmır. Bu kimi bid`ətlər faydalı və qurucu işlər sırasındadır, çünki dünyanın bütün əql sahibləri – hər qövm və millətdən olsa belə – təəssüb olmadan hər bir faydalı şeyi alqışlayır.

٢-Şər`i mövzular çərçivəsində olan və adi camaat tərəfindən yaradılan yenilikçilik. Bunlar da şəriətə aid edilmir. Misal üçün, məscidin binasının, künbəzlərinin, mehrabının xüsusi formada tikilməsi, kaşı çəkilməsi, kətibələr yazılması, azan və sair səslərin yayılması üçün mikrofon qoyulması və s.

Şübhəsiz, bu işlərin heç biri Peyğəmbər (səlləllahu əleyhi və alih)-in zamanında olmamışdır. Görəsən, bir kəs bunları haram hesab edirmi?! Halbuki, müsəlmanların bütün məscidləri, hətta Səudiyyə Ərəbistanı, vəhhabilərin mərkəzləri və Peyğəmbər (səlləllahu əleyhi və alih) məscidi bunlarla doludur.

Həmçinin, Məscidul-Həramda çoxlu dəyişikliklər edilmişdir ki, onların Peyğəmbər (səlləllahu əleyhi və alih) dövründə olanlara heç bir oxşarığı yoxdur. Bundan da mühümü Səfa və Mərvədə sə`y əməlini yerinə yetirmək üçün ikinci mərtəbənin tikilməsi, son zamanlar «Cəmərat»da edilən qəribə dəyişikliklər, Qurbangahın Minadan xaricə keçirilməsi və sair.

Bu kimi dəyişikliklər camaat arasında adi bir iş hesab olunan yenilikdir və işlərin asanlaşdırılması, yaxud çətinliyin aradan qaldırılması və təhlükəsizliyin tə`min olunması xatirinə, şər`i məsələlərlə yanaşı edilən işlərdir, heç kəs onu xüsusi şər`i bir göstəriş və bid`ət saymır.

Qur`an qiraəti müsabiqələrinin keçirilməsi, ən yaxşı qari, hafiz və təfsirçilərin seçilməsi də eynilə.

Şübhəsiz, bu işlərdən heç biri Peyğəmbər (səlləllahu əleyhi və alih)-in əsrində mövcud olmamışdır, bu işlər sadəcə olaraq, dini hədəf və məqsədlərin inkişafı üçün nəzərə alınmışdır və heç kəs «bunlar dinin bir hissəsidir» – deyə iddia etməmişdir.

Həmçinin, ölülər üçün müxtəlif və xüsusi zamanlarda matəm məclislərinin təşkil edilməsi də eyni ilə;

Dini konfranslar, böyük din xadimlərinin yubileyi münasibəti ilə yığıncaqların, dini-məzhəbi konfransların təşkil edilməsi və sair;

Din böyüklərinin milad bayramının keçirilməsi, onların şəhadət və ya rehləti münasibəti ilə əzadarlıq məclislərinin təşkil edilməsi;

İslamın və müsəlmanların əzəmətinə səbəb olan, qəflət və xəbərsizlik pərdələrinin aradan qalxmasına, müsəlmanların mə`rifət və agahlığının artmasına səbəb olan çoxlu işləri sadalamaq olar.

Biz öz yaşadığımız mühitdə dəfələrlə təcrübə etmişik ki, dini-məzhəbi məsələlərin nəzdində keçirilən bu cür ürfi proqramlar hamıda, xüsusilə də cavan nəsillərdə agahlıq və mə`lumatı artırır, onların ideya və məqsədlərini düzgün şəkildə istiqamətləndirir, onları Qur`an və İslam maarifinə doğru sövq edir, nəticədə onlar dini işlərə çox ciddi yanaşırlar. Şübhəsiz, bu proqramların ləğv edilməsi müsəlmanlara böyük xəsarətlər vurur.

Bir sözlə, bunlar bir sıra ürfi məsələlərdir ki, heç kəs onları Allah, yaxud Onun Rəsulundan bu barədə göstəriş verilmədiyinə inanmadığı, başqa sözlə, dinin bir hissəsi hesab etmədiyi halda, bunu təşkil edir.

Deməli, onlara heç vaxt bid`ət adı qoymaq və *«kullu bid`ətin zəlalətun»* hədisini onlara aid etmək olmaz.

٣-Bir növ bid`ət də haram bid`ətdir. Əvvəldə də işarə etdiyimiz kimi, bu, dinin sərhədlərini pozmaq, heç bir şər`i dəlil olmadan dini qanunların ziddinə olan müəyyən qanunlar çıxarmaq, yaxud ona müəyyən qanunlar artırıb-azatmaqdan ibarətdir.

Lakin ifratçı vəhhabilər islami fiqh və üsul elminə dair mə`lumatlarının az, zəif olduğuna görə, üç növdən olan yenilikçilik arasında fərq qoya bilməmiş və çox böyük, bağışlanmaz səhvlərə yol vermişlər. Nəticədə öz müsəlman qardaşlarını kiçik bir bəhanə ilə bid`ətdə müttəhim edir, çox sadə şəkildə onları müşrik adlandırırlar.

Burada sözümüzü Məscidul-Həramın məşhur ustadlarından biri olan mərhum Yusif ibni Ələvi Malikinin sözü ilə sona çatdırırıq:

O özünün «Məfahimu yəcibu ən tusəhhəhə» adlı kitabında «yaxşı və pis bid`ət» ünvanı altında bə`zi məqamları demişdir ki, onun xülasəsi belədir:

Özünü səbəbsiz olaraq «salehlərin xələfi (canişini)» adlandıran cahil, təəssübkeş, dardüşüncəli və alçaq insanlardan bə`ziləri hər növ yeniliklə mübarizəyə qalxır, hər növ ixtiranı bid`ət adlandırır və hər bid`ətin də zəlalət olduğunu bəhanə edərək inkar edirlər. Onlar bid`ətin (yeniliyin) növləri arasında heç bir fərq qoymadan yaxşı bid`əti pis bid`ətdən seçə bilmirlər.

Bunların arasında fərq qoymağı sağlam əql və düşüncə təsdiqləyir. Üsul elminin böyük şəxsiyyətlərindən olan Nəvəvi, Süyuti, İbni Həcər, İbni Həzm və s. onun düzgünlüyünü təsdiq etmişlər.

Biri-digərini təfsir edən Nəbəvi (səlləllahu əleyhi və alih) hədislərinin bir-birinin yanına qoyaraq onları məcmu halında araşdırsaq, bu müddəanı təsdiq edəcəkdir.

O cümlədən, «kullu bid`ətin zəlalətun» hədisini qeyd etmək olar. Burada heç bir əsaslı dəlil olmadan şəriət prinsiplərindən hesab olunan pis bid`ətlər nəzərdə tutulur.

Sonra əlavə edir: Özünün lüğəvi mə`nasında olan (yə`ni yenilikçilik) bid`ət haram deyildir. Haram və zəlalət olan bid`ət isə, şər`i bid`ət mə`nasınadır, o da «din işlərinə bir şeyi artıraraq ona şəriət rəngi verməkdir ki, şər`i bir iş ünvanı ilə Şəriət Sahibinə nisbət verilməklə qəbul edilsin, ona tabe olunsun.

Amma dünyəvi bid`ət, yə`ni dünya işlərinə aid olan hər hansı yenilikçilik növlərinin heç biri qadağan deyildir.

Deməli, bid`ətin yaxşı və pis olaraq iki mə`naya təfsir olunması onun lüğətdəki mə`nasına işarədir. Amma şər`i bid`ətə gəldikdə isə, onun yalnız bir növü vardır və o da haramdır. Əgər bu bölgünün müxalifləri məqsəmin (üzərində bölgü aparılan kəlmə) məfhumunu bilsəydilər, şübhəsiz, onunla müxalifətə qalxmaz, münaqişənin yalnız sözdə olduğunu bilərdilər.

Bəli, dünyəvi bid`ətlər arasında çox faydalı işlər tapılır ki, onun pişvazına çıxıb alqışla qarşılamaq lazımdır. Elə işlər də vardır ki, onların şər və fəsaddan başqa bir nəticəsi yoxdur (cəmiyyətdə mövcud olan açıq-saçıqlıqların bə`zisinə işarədir).[١]

---

[١] «Məfahimu yəcibu ən tusəhhəhə», səh.١٠٢-dən sonra.

# İKİNCİ FƏSİL

# HƏRƏMEYNİŞ-ŞƏRİFEYN (İKİ ŞƏRİF HƏRƏMİN) FƏRYADLARI

## ١-MƏKKƏDƏN UCALAN FƏRYADLAR

## SEYYİD MƏHƏMMƏD İBNİ ƏLƏVİNİN ŞÜCAƏTLİ TƏNQİDLƏRİ

Kitabın əvvəllərində söz vermişdik ki, Məhəmməd ibni Ələvinin kitabından qəribə və maraqlı məqamları sizin üçün təqdim edək.

Məhəmməd ibni Ələvi şücaətli bir alim idi və Məkkədə yaşayırdı. Onun dərsində nəzərə çarpacaq dərəcədə çox adam iştirak edirdi. Məkkənin böyük alimləri və elmi şəxsiyyətləri, Səudiyyə ölkəsinin siyasi şəxsiyyətləri ona çox ehtiram göstərirdilər. O son zamanlarda dünyadan getmiş, onun ölümü ilə dərin kədər və qəm-qüssə bütün məntəqəni əhatə etmişdi.

Özünü «Xadimul-elmiş-şərif bil-bələdil-Həram» adlandıran və maliki məzhəbinə tabe olan bu şəxsiyyət həzrəti Zəhrayi Mərziyyə (əleyha salam)-ın nəslindən olmaqla «Həsəni» ləqəbi ilə iftixar tapmışdı. O, bu ləqəbi öz adının ardınca həmişə yazırdı.

Onun Məscidul-Həramda təşkil etdiyi dərs yığıncaqları bu məscidin ən çox iştirakçısı olan dərslərdən biri idi, müxtəlif İslam elmlərində çoxlu əsərlər də yazmışdı. O, təəssübkeş vəhhabilərin ifratçı əməlləri ilə ciddi mübarizə aparırdı. Nəhayət, onların əqidələrinin təftiş və tənqidində «Məfahimu yəcibu ən tusəhhəhə» (islah olunması vacib olan məfhumlar) adlı kitabını yazmışdır.

O, özünün təmkinli və alimcəsinə nəsihətləri ilə (kitabın adından da göründüyü kimi) bu qrupun ən mühüm ideoloji əsaslarını tənqid atəşinə tutur və hər bir yerdə Qur`an ayələri və sünnülərin mö`təbər mənbələrindən çıxardığı Peyğəmbər (səlləllahu əleyhi və alih) hədislərin istinad edirdi. O, elə kitablara və mənbələrə arxalanırdı ki, ifratçı vəhhabilər onu inkar etməyə qadir deyildilər.

O, bu ifratçı qrupun beynində dolaşan, eləcə də müsəlmanlardan çoxunun kafir hesab edilməsi, canlarının, mallarının mübah (hədər) sayılması və müsəlmanlar arasında vəhdətin pozulmasına səbəb olan

bir sıra məfhumları islah etmək məqamına gəlmiş və bu işi layiqincə icra etmişdir.

١-Bu kitab öz növbəsində və bir neçə cəhətdən misilsiz, yaxud çox nadir kitablardan sayılar. Bu kitab on il ərzində on dəfə çap olunmuşdur. Hətta illərin birində dörd dəfə çap olunmuş və İslam ölkələri, hətta Ərəbistan əhalisinin qızğın alqışları ilə qarşılaşmışdır.

٢-Misir, Mərakeş, Sudan, Bəhreyn, Pakistan, Əmarat və sair kimi ərəb ölkələrində yaşayan sünnü alimləri və böyük elmi şəxsiyyətlərdən çoxu bu kitaba haşiyə yazmış, İbni Ələvinin nəzəriyyələrini və onun şücaətini tə`rifləmişlər. Bu tə`riflərdən iyimi üç nümunəni kitabın əvvəlində – yetmiş səhifdə qələmə alınmışdır. Bu da həmin kitabın bəyənilməsi barəsində alimlərin fikir birliyini çatdırır. Bu haşiyələrin özü də çox maraqlı kitabçalar hesab olunur!

٣-Kitabın bu qədər tirajla çap olunmasına, təəssübkeş sələfilərin Ərəbistanın kitab bazarında qoyduqları ciddi senzuraya, eləcə də onların fikirlərinin tənqidinə dair kitab yazılmasına icazə verməmələrinə baxmayaraq, Məkkə bazarında kütləvi şəkildə satıldı. Biz də onu həmin bazardan əldə etmişdik.

Bu da göstərir ki, əvvəllər qeyd etdiyimiz kimi, vəhhabilərin yeni nəsli təəssübkeş sələfi fikirləri ilə müvafiq deyildirlər və onda təftişçiliyə, yenidən nəzər verilməsinə ehtiyac duyurlar.

## KİTABA HAŞİYƏ VƏ MÜQƏDDİMƏ YAZANLARIN NÜMUNƏLƏRİ

Burada İslam dünyasının vəhhabilərin təəssübkeş qrupu barəsində yürütdüyü mühakimə aydın olsun deyə, xülasə şəkildə, böyük sünnü alimlərinin bu kitabın sahibini tə`rif və mədh etməsi barədə yalnız üç nümunə qeyd etməklə kifayətlənirik:

١-Qahirədəki «Məcməul-buhusil-İslamiyyə» təşkilatının baş redaktoru doktor Əbdul-Fəttah Bərəkə bu kitabın əvvəlində təqriz yazaraq deyir:

Bu nəfis kitabda (İbni Ələvinin kitabına işarədir) müsəlmanların cərgələrinin möhkəmləndirilməsi, fər`i və ictihadi məsələlərdə təəssüb əsərlərinin aradan qaldırılması üçün böyük bir təhqiqatçı alim və İslam mühəqqiqi tərəfindən xüsusilə, müsəlmanların küfr və şirklə müttəhim edilməsi qarşısında, həmçinin Peyğəmbəri-Əkrəm

(səlləllahu əleyhi və alih)-in qəbrinin ziyarət edilməsi, şəfaət məsələsi və digər həssas məsələlər barəsində çoxlu sə`y göstərilmişdir

Ümidvarıq ki, bu dəyərli kitab müsəlmanlar arasında vəhdətin möhkəmlənməsinə, ixtilaf amillərinin aradan qaldırılmasına çox bərəkətli tə`sirlər qoyacaqdır.[١]

٢-Sudanda «Şər`i Fətvalar Məclisi»nin rəisi Şeyx Əhməd Əl-evəz bu kitaba yazdığı təqrizində deyir: Allaha and olsun ki, şərəfli mühəqqiq İbni Ələvi Maliki Məkki Həsəninin – Xadimul-elmi bil-Hərəmeyniş-şərifeynin – yazdığı «Məfahimun yəcibu ən tusəhhəhə» kitabı ilə maraqlanmağa fürsət əldə etdim. Bu kitab üç məsələ ilə əlaqədar olan məfhumların (səhvlərin) islah olunmasından söhbət açır:

Birincisi, əqidə məsələləridir ki, (vəhhabilərdən olan) bir qrupun müsəlmanları küfr və zəlalətdə müttəhim etdikləri me`yarların puç və əsassız olduğunu qəti dəlil və qaçılmaz bürhanla isbat edir.

İkincisi, Peyğəmbəri-Əkrəm (səlləllahu əleyhi və alih)-in nübüvvətinin həqiqəti, o həzrətə və onun əsərlərinə təbərrük etməklə əlaqədar olan məsələlərdir ki, o buları qəti bürhanlarla isbat etmişdir.

Üçüncüsü, bərzəx həyatı, Peyğəmbər (səlləllahu əleyhi və alih)-i ziyarət ziyarət etməyin şər`i və qanuni bir iş olması və digər məsələlərdən ibarətdir ki, bu tədqiqatçı alim son dərəcə diqqətlə bu barədəki yanlış fikirlərin islah olunmasına çalışmışdır.[٢]

٣-Mərakeşdəki «Məcməul-elmiyy-iqlim» təşkilatın rəisi Əbdüssəlam Cübran həmin məclisin üzvləri ilə birlikdə bu kitaba təqriz yazmışdır. Onun bir hissəsi belədir:

«Bu kitab agah və dərin savadlı alimlərə təqdim olunanda, hamısı onu hərarətlə, alqışla qəbul edərək, Allah, Peyğəmbər (səlləllahu əleyhi və alih) və İslam ümmətinin bütün alimləri qarşısında olan vəzifəsini yerinə yetirdiyinə görə müəllifi alqışladılar... Buna görə də Mərakeşin elmi məclisinin üzvləri məclis rəisinin başçılığı ilə bu kitabı əldə edib möhtəvasına diqqət yetirdikdən sonra onun barəsində tam razılıq bildirildi, onun böyük

---

[١] «Məfahimu yəcibu ən tusəhhəhə», səh.٢٩ və ٣٠ (azacıq ixtisarla).
[٢] «Məfahimu yəcibu ən tusəhhəhə», səh.٣٧.

sə`ylərinə qədirdanlıq edildi və bu dəyərli, maraqlı tədbirlə ədaqədar müəllifi təbrik etdilər.[1]

***

Bunlardan əlavə, bu kitabın tə`rifində böyük ədəbiyyatçılar və şairlər tərəfindən çox dolğun mə`nalı, gözəl şe`rlər də oxunmuşdur ki, onların arasından yalnız üç beyti qeyd etməklə kifayətlənirik. (Bu beytlər Mavritaniyanın Ali Məhkəməsinin sabiq rəisi və Məkkədə «Rabitətul-aləmil-İslam» müəssisəsinin fiqhi mərkəzinin üzvü olan Şeyx Məhəmməd Salim Ədud vasitəsilə oxunmuşdur.)

**صحت مفاهيم كان النّاس قد هاموا فيها و زايلها لبس و ابهام**

**بحث دقيق عميق لا يقوم له   خبط و خلط و تدليس و ابهام**

**ابدي به العلوي المالكي لنا   ما لم تنله من الحذّاق افهام**

*«(Onun bizə təqdim etdiyi məfhumlar) Elə səhih məfhumlardır ki, camaat onun barəsində heyrətdə qalmış, səhvlər və müəmmalar onunla qarışmışdır).*

*Bu, dəqiq, dərin elmi bəhslərdir ki, onda batilə, tədlisə və müəmmaya yer yoxdur.*

*Bu məfhumları Ələvi Maliki bizim üçün aşkar etmişdir, halbuki, agah insanlardan çoxunun dərk qüvvəsi onu dərk edə bilməmişdir.»*[2]

## KİTABIN MÖHTƏVASI

Yuxarıda adları çəkilən alimlərin sözlərində qeyd olunduğu kimi, bu kitab ifratçı vəhhabilərin fikirlərini üç mehvərdə tənqid etmiş, Qur`an ayələrinə və mö`təbər rəvayətlərə istinad etməklə, onların zəifliyini aşkar etmişdir.

### Birinci mehvər

İman və küfr məsələlərinə aiddir. O, tam aşkar şəkildə deyir: «Camaatdan çoxu – Allah onları islah etsin! (məqsədi təəssübkeş vəhhabi və sələfilərdir) – insanı İslam dairəsindən çıxaran işlərin həqiqətini başa düşməkdə xətaya yol vermiş və o qədər irəliləmişlər ki, hər kəs onlarla müxalifət edərsə, onu kafir hesab edirlər, hətta

---

[1] Yenə orada, səh.٦٨.

[2] «Məfahimu yəcibu ən tusəhhəhə», səh.٥٥.

onlar yer üzündə az miqdar istisna olmaqla, bütün müsəlmanları kafir sayırlar!!»

O inanır ki, hətta bu məzhəbin imamı da bu qədər ifratçılığı qəbul etmir. Sonra Peyğəmbər (səlləllahu əleyhi və alih)-in buyurduğu məşhur *“müsəlmanı söymək şirk, onu öldürmək küfrdür”* hədisinə istinad edərək müsəlmanlara nalayiq sözlər deyilməsini, onlarla müharibə aparılmasını şiddətlə tənqid atəşinə tutur, kafi dəlillərlə imanla küfr arasındakı sərhəddi araşdırıb, təəssübkeş sələfilərin bu məsələlər barəsindəki xəta və səhvlərini bəyan edir.

Maraqlıdır ki, onun müxaliflər (vəhhabilər) qarşısında tutduğu mövqe nisbətən kəskindir və onların çirkin tə`birlərindən qəzəblənir.

Misal üçün, xariqul-adə işlər barəsində müxaliflərin belə dediyini nəql edir: «Camaat bə`zən peyğəmbərlərdən, salehlərdən elə şeylər istəyirlər ki, Allahdan başqa heç kəs onları yerinə yetirməyə qadir deyildir və bu iş şirk (və küfr) sayılır.»

Bu yanlış fikrin ardıcıllarının cavabında isə deyir: «Bu fikir keçmiş dövrlərdən e`tibarən, müsəlmanların arasında mövcud olan şeylər barəsindəki anlaşılmazlıqdan yaranmışdır. Belə ki, camaat o böyük şəxsiyyətlərdən, həllolunmaz çətinliklərinin həll olunması üçün Allahdan dua etmələrini istəmişlər. Mö`təbər İslam rəvayətlərində də Peyğəmbəri-Əkrəm (səlləllahu əleyhi və alih)-dən belə istəklər edilməsi nəql olunmuşdur. O cümlədən, əlacsız xəstəliklərə şəfa verilməsi, yağış yağdırılması, Peyğəmbər (səlləllahu əleyhi və alih)-in barmaqlarından bulaq qaynaması, az miqdarda çörəyin xeyir-bərəkət tapmaq və çoxlu insanların ondan istifadə etməsi və sair kimi şeylər.» Sözünün sonunda isə deyir: «Görəsən, bunlar tövhid və küfrün mə`nasını Peyğəmbər (səlləllahu əleyhi və alih)-dən yaxşı başa düşürdülər?! Bu sözlərin nəinki alimlərdən, hətta cahillərdən belə, baş verməsi təsəvvür olunmur!»[١]

Onun hər yerdə işlətdiyi sözlər məntiqli, ədəblidir və müxaliflərin sair müsəlmanları kafir və fasiq hesab və təhqir etmələri qarşısındakı kəskin mövqeyi, heç olmazsa, yuxarıda qeyd etdiyimiz tə`birlər kimidir.

---

[١] «Məfahimu yəcibu ən tusəhhəhə», səh.١٨١.

## İKİNCİ MEHVƏR

O, öz kəlamının bu hissəsində Qur`an ayələri və İslam rəvayətlərinə əsasən, Peyğəmbəri-Əkrəm (səlləllahu əleyhi və alih)-in yüksək məqamını aydınlaşdırır, sonra o həzrətin əsərlərinə təbərrük etməyin məfhumunu, onun şirklə heç bir əlaqəsi olmamasını bəyan edir, daha sonra rəvayətlərdən və alimlərin sözlərindən Peyğəmbər (səlləllahu əleyhi və alih)-in əlini öpmək, o həzrətin su içdiyi qabdan təbərrük olaraq su içmək, o həzrətin evinə, şərif minbərinə və qəbrinə eləcə də əvvəlki saleh şəxsiyyətlərin və peyğəmbərlərin əsərlərinə təbərrük etməyin caiz olduğu halları sadalayır, bu barədə məşhur sünnü kitablarından o qədər mənbə qeyd edir ki, heç bir şəxs üçün şübhəyə yer qalmasın. Eləcə də səhabələrdən bir çoxunun Peyğəmbər (səlləllahu əleyhi və alih)-in əsərlərinə təbərrük etməsini dəlil olaraq gətirir.

O, təəccüblə deyir ki, bu qədər aydın rəvayət və mö`təbər mənbə ilə yanaşı, nə üçün bə`ziləri onlara göz yumaraq bu mövzunu inkar və onu nadanlıq, yaxud avam camaatı aldatmaq hesab edirlər?![١]

## ÜÇÜNCÜ MEHVƏR

Kitabın bu qismində müxtəlif məsələlər irəli çəkilir ki, onun nəzərinə görə onların ən mühümü Peyğəmbər (səlləllahu əleyhi və alih)-in qəbrini ziyarət, onun qəbrinin yanında dua və o həzrətin əsərlərinə təbərrük etməyin müstəhəb olmasını göstərir, bu məsələ ilə əlaqədər alimlərdən çoxlu kəlamlar da nəql edir.

Bu hissənin sonunda təəssübkeş vəhhabilərin kəskin müxalifətinə səbəb olan bir məsələyə işarə edir: o da Peyğəmbəri-Əkrəm (səlləllahu əleyhi və alih)-in milad gününü, o həzrətin hicrət, be`sət, Qur`anın nazil olması, Bədr müharibəsində (Peyğəmbərin ilkin qəzvələrində) müsəlmanların qələbə çalmasını, nimeyi-şə`banı və s. bayram şənlikləri keçirilməsidir.

Bildiyiniz kimi, ifratçı və təəssübkeş vəhhabilər bütün bu işlərin hamısını bid`ət hesab edir və buna görə də bu kimi bayram şənlikləri keçirilməsinin qarşısını tam ciddiyyətlə alırlar.

---

[١] «Məfahimu yəcibu ən tusəhhəhə» kitabının xülasəsi, ١٩٤ – ٢٤٠-cı səhifələr.

İbni Ələvi onlara məntiqi cavab verərək deyir: Tə`zim əlaməti olan bu kimi yığıncaqlar camaat arasında mövcud olan adi bir işdir və camaat onu, heç bir şəriət göstərişi ünvanı ilə yerinə yetirmirlər. Deməli, bunun bid`ət olub-olmamasına heç bir dəlil yoxdur. Əksinə, bu əsərlərin çox dəyərli və müsbət yönləri vardır ki, ondan qəflət etmək olmaz. Bu kimi əzəmətli yığıncaqlarda İslamın bütün zəminlərdə olan peyğamını insanlara çatdırmaq olar.

Kitabın axırında deyir: «Bu kimi məclislər, həqiqətdə, çox nəfis və qiymətli xəzinələrdir, onları ən yaxşı vəchlə qoruyub-saxlamaq, qənimət saymaq lazımdır. Bu işlərlə müxalifət edərək onun məhv olunmasına çalışanlar isə, nadan və dardüşüncəli adamlardır.»[١]

## LAZIMİ XƏBƏRDARLIQLAR

Yuxarıda adı qeyd olunan dəyərli kitabın xülasəsini bəyan etməkdə hədəfimiz onun möhtərəm müəllifi İbni Ələvi Maliki Məkkinin bu kitabda heç bir xəta və səhvə yol verməməsini isbat etmək deyildir; çünki böyük bir alim olmasına baxmayaraq, o da insandır və səhvə, unutqanlığa düçar ola bilər.

Hədəfimiz budur ki, onun dəlil, məntiq, mətanət və şücaətlə yanaşı olan sözlərinin eynilə gerçəklik olmasını çatdıraq; belə ki müxtəlif hətta Ərəbistanın özündə belə, ölkələrdə yaşayan böyük İslam alimlərinin və böyük qrupların tərəfindən alqışla qarşılanmışdır.

Bu da göstərir ki, təəssübkeş vəhhabilər öz ömürlərinin son xəttinə çatmışlar: hər səhifəsi ifratçı vəhhabiliyin tənqidi ilə dolu olan bir kitab İslam aləmində belə alqışla qarşılanmışdır.

Lakin İbni Ələvi İslam aləminə, hətta mö`tədil vəhhabiyyətə belə, etdiyi bu qədər böyük xidmət müqabilində «öz mükafatını» aldı: Həmin dəstə tərəfindən onun əleyhinə çoxlu kitablar yazılaraq köhnə üslubları olan «kafir hesab etmə» üslubundan istifadə edildi, onun da kafir olmasına dair hökm verildi. («Hivarun məəl-Maliki», «Ər-rəddu ələl-Maliki fi zəlalatihi və münkəratihi» adlı kitablar yazıldı.)

---

[١] «Məfahimu yəcibu ən tusəhhəhə» kitabının ٣-cü bölməsinin xülasəsi, səh.٢٤٣-٣١٨.

Amma bu kitablar nəinki alqışla qarşılanmadı, əksinə, Misirin «Əl-əzhər» universitetinin bir qrup alimləri tərəfindən bu kitablar beynəlxalq sionizmə xidmət və İslami vəhdətə ağır bir zərbə hesab olundu. Bunun müqabilində cənab İbni Ələvi Ərəbistan əhalisi tərəfindən xüsusi ehtirama layiq görülürdü; hətta onun dəfn mərasimində minlərlə nəfər iştirak etdi, Səudiyyənin dövlət xadimlərindən bə`ziləri onun ailəsinə başsağlığı vermək üçün dəfələrlə onun mənzilinə getdilər.

Bunlar da ifratçı vəhhabilərin “kafir və fasiq hesab etmə” kimi köhnə təhdidləri müqabilində möhkəm və tutarlı bir cavab idi.

Maraqlıdır ki, Məkkənin qazisi onun əleyhinə fətva verdi və onu məhkəməyə çağırdı, hətta onun məhkəməsi Riyaz şəhərinə çəkildi. O, bir neçə saat ərzində öz yazılarını müdafiə etdi, axırda dedi: «Bunlar mənim ictihadımdır! Heç olmazsa, bunu demək lazımdır ki, siz də müctehidsiniz, mən də müctehidəm. Heç bir müctehid öz rə`yini digər bir müctehidə qəbul etdirə bilməz.» Bununla da axırda ona bəraət qazandırıldı.

## YENİ VƏHHABİLƏR

Bu məqalənin axırında iki məsələnin qeyd edilməsi zəruri nəzərə çarpır:

### a) Yeni vəhhabi sinfi

Hal-hazırda süquta uğramaqda olan qrup – təəssübkeş, geriçiliyə meyl edən və təhlükəli vəhhabilərdir. Onlar bütün müsəlmanların – özlərindən başqa – canını və malını mübah (hədər) sayırlar. Lakin mö`tədil əqidəli yeni sinif zühur etməkdədir. Əksər hallarda ali təhsilli cavanlardan, hətta böyük alim və müəllimlərdən təşkil olunan, çoxu da bir-birilə həmahəng olan bu sinfin aşağıdakı xüsusiyyətləri vardır. Onlar:

١-Müsəlmanları şirkdə müttəhim etmirlər, qan axıdılmasından bizardırlar; başqalarının əqidələrinə ehtiram qoyur, onlara küfr və bid`ət damğası vurmurlar.

٢-İslam məzhəbləri arasında məntiqi dialoqu alqışlayır, başqalarının sözlərini eşitməyə meyl göstərir və onların kitablarını da oxuyurlar.

٣- Allahın Kitabı və Peyğəmbər (səlləllahu əleyhi və alih)

sünnəsində Haramlığına dair heç bir dəlil olmayan və bugünkü həyatın müsbət və yeni təzahürləri olan şeyləri bid`ət saymırlar, böyük İslam rəhbərlərinin xatirəsinin yad edilməsilə müxalif deyildirlər; onlar ürfi və şər`i qayda-qanunlar arasında fərq qoyurlar.

٤-Qadınlara, İslami hicabı və iffət me`yarlarını qoruyub-hifz etmək şərtilə cəmiyyətdə faydalı, müsbət, qurucu fəaliyyətlər göstərmək, elm kəsb etmək icazəsi verirlər.

٥-Bir sözlə, keçmişdəki kobud və ifratçı fikirlərə yenidən nəzər salmaqla eyni zamanda, sair İslam firqələrilə qarşılıqlı anlaşma şəraitində fəaliyyət göstərməyə meyl göstərirlər. Onların qəzəb və nifrəti o kəslərə doğru yönəlir ki, müsəlmanları kökündən məhv etmək məqsədini güdsünlər; bunlar zamanın keçməsi ilə təəssübkeş, son dərəcə kobud və qansız olan vəhhabilərin yerini tutacaqlar. Bu qrupun elmi və mədəni me`yarlardan faydalanması həcc və ümrə mövsümündə kamil şəkildə müşahidə olunur. Son dövrlərdə yazılan kitablarda onların əsər-əlamətləri tam şəkildə hiss olunmaqdadır.

Bizim əqidəmizcə, əvvəlki dəstənin aradan gedib yeni dəstənin zühur etməsi dünya səviyyəsində İslamdan münasib simvol təqdim edilməsinə kömək və əvvəlki sələfilərin kobud və doqmatik əqidələrinə görə, xətərə düşmüş olan bu pak dinin cazibədarlığını müəyyən qədər cübran edə bilər və inşallah, *«Allahın dininə dəstə-dəstə daxil olarlar»* – ayəsinin gerçəkləşməsinə müqəddimə yarada bilər, bu da İslamın dünya səviyyəsində özünün həqiqi yolunu tapmasına kömək edər.

Bütün dünya müsəlmanları belə bir sinfin yaranmasını alqışlayır və onu, müsəlmanların zəiflədilib təhqir edilməsinə gecə-gündüz çalışan düşmənlər müqabilində İslami qardaşlığın və müsəlmanların cərgələrinin müttəhid olub möhkəmlənməsində mühüm bir amil hesab edirlər. «Məfahimu yəcibu ən tusəhhəhə» kitabı barəsində qeyd olunanlar, eləcə də müxtəlif ölkələrdəki İslam alimlərinin o kitaba əlavələr edib müqəddimə yazması bu gerçəkliyə digər bir şahiddir.

Səudiyyə rəhbərləri ölkə sərhədlərini İslami kitabların və başqa müsəlman ölkələrinin yazıçılarının üzünə açmaqla, İslam məzhəbləri arasında məntiqi dialoqa, bu ölkələrin alimləri arasında gediş-gəlişə şərait yaratmaqla bu məsələyə kömək etməlidirlər, çünki bu həm

onların özünün, həm də bütün İslam dünyasının xeyrinədir.

## b) Ğulatların təhlükəsi

Şübhəsiz, ifratçı vəhhabilik ideyasının inkişaf amillərindən biri də dünya müsəlmanlarından bir qrupunun arasında yaranan ğulat yönlü ifratçılıq olmuşdur. Yə`ni savadsız və nadan insanlar din böyükləri barəsində ğülüvv edərək onları übudiyyət dərəcəsindən də yuxarı qaldırıb ilahiləşdirmiş və onları Allahın şəriki qərar vermişlər.

Şübhəsiz, onların təhlükəsi ifratçı vəhhabilərin təhlükəsindən heç də az deyildir; əgər bunlar olmasaydı, vəhhabilərin əlinə heç bir bəhanə düşməzdi. İslami tövhidlə uyğun olmayan və Kitab və sünnədə heç vaxt gəlməyən tə`birlər, o cümlədən Pərvərdigarın xüsusi sifətlərindən olan Xaliqus-səmavati vəl-ərəzin, Ərhəmur-rahimin və s. şeylər ilahi övliyaların barəsində işlədilməməlidir, çünki nə onların özü bu işlərə razıdır, nə də bu işlər İslamın tə`limləri ilə uyğundur.

Bə`zi cahillərin bu məsələyə israr etməsi nəticəsində nadanlıqda yuxarıdakı qrup kimi olan təfritçilərdən bə`ziləri mübarizəyə qalxaraq demişlər ki, Peyğəmbəri-Əkrəm (səlləllahu əleyhi və alih)-in vəfatından sonra (nəuzu billah) o həzrəti əlindən heç bir iş gəlmir, hətta mö`minlər üçün dua və şəfaət də edə bilməz, onun ziyarətinə getmək bid`ət və haramdır!

Həmçinin, müxtəlif xurafatlara qapılaraq tövhid prinsiplərindən və sair dini tə`limlərdən uzaq düşən, misal üçün, atın nalını xoşbəxtlik amili bilən, göz qapağının atdanmasını pis bəxt nişanəsi hesab edən, ١٣ ədədini nəhs və pis bir şey kimi qələmə verən, filan quşun səsinin bərəkətli, filan quşun səsinin isə pis olduğunu deyərək, onların xaliqini unudanlar və s. çox böyük səhvə düçar olmuşlar.

Məhz belə yerdə Əli (əleyhissalam) buyurmuşdur: ***«Mənim barəmdə iki qrup həlak olmuşlar (və yollarını azmışlar): həddini aşan dostlar və bədxah düşmənlər.»***[١]

Xəvaric və nasibilər ğulatın yaranmasına səbəb olmuş, ğulat da öz növbəsində xəvaricin bazarını qızışdırmışlar.

Məhz buna görə də İslam alimlərinin həmişəki, xüsusilə bu dövrdəki vəzifələri çox ağırdır. Çünki, bir tərəfdən ğulatları hidayət

---

[١] «Nəhcül-bəlağə», qısa kəlamlar, səh. ١١٧.

etməli, digər tərəfdən də ifratçı vəhhabilərin səfsətələrinə cavab verməlidirlər. Bu kimi məsələlərlə əlaqədar savadsız insanlar arasında müvazinəti qoruyub-saxlamaq necə də çətindir. Hətta bəzən zahirdə alimlərin cərgəsində olan bə`zi insanlar bu iki tərəfdən birinə meyl edərək yollarını azırlar.

## ٢-DİGƏR ŞÜCAƏTLİ BİR YAZIÇININ FƏRYADLARI

## «DAİYƏTUN VƏ LEYSƏ NƏBİYYƏN» KİTABI! (O, PEYĞƏMBƏR DEYİL, İSLAHATÇI İDİ).

Bu kitab son zamanlar «Qiraətun nəqdiyyətun liməzhəbiş-Şeyx Məhəmməd ibni Əbdil-Vəhhab fit-təkfir (vəhhabilərin rəisi Məhəmməd ibni Əbdül-Vəhhabın başqalarını kafir hesab etməklə əlaqədar yeni tənqidlərinin qiraəti) ünvanında çap olunmuş, onun səsi Hicazda və sair məntəqələrdə dolaşmışdır.

Hər şeydən əvvəl, bu kitabın üslubları ilə, sonra isə onun möhtəvası ilə tanış olacağıq.

Kitabın müəllifi – Şeyx Həsən ibni Fərhan Maliki Ərəbistanın məşhur sünnü alimlərindən biridir, o, maliki məzhəbinə tabedir və özünün mö`tədil vəhhabilərdən olmasını e`tiraf edir.

O, vəhhabilərin rəisi Şeyx Məhəmməd ibni Əbdül-Vəhhaba ehtiram qoyur, lakin onun, xüsusilə sair müsəlmanların kafir hesab edilməsi barəsində olan sözlərini şiddətlə tənqid edir və inanır ki, bu iki məsələnin bir-birilə heç bir ziddiyyəti yoxdur.

O tam aşkar şəkildə deyir: «Mən ona ehtiram qoyuram, eyni halda onu nəinki caizul-xəta (xəta etməsi caiz olan) hesab etmirəm, üstəlik onun çoxlu xətalara yol verdiyinə də inanıram.

٢-Qeyd olunan kitabın tənqid üslubu tamamilə hədəfli və dəlil-sübut əsasındadır, amma vəhhabilərin rəisinin əqidələrini tənqid edərkən heç bir şeyi, hətta ifratçı vəhhabilərin tərəfindən ehtimal verilən çoxlu təhlükələri belə, nəzərə almır (onun dediyinə görə, bu əqidəli ifratçılar vəhhabilərin ğulatı hesab olunurlar).

٣-Onun İslam mənbələri və məzhəbləri barəsində geniş mə`lumatı vardır, xüsusilə, qarşı tərəfin onun ziddinə olan sözlərindən kömək alır. Maraqlıdır ki, o, öz kitabının bir hissəsini Məhəmməd ibni Əbdül-Vəhhabın ziddiyyətli və təzadlı sözlərinə

məxsus etmişdir.

٤-O inanır ki, qeyri-vəhhabi müsəlmanların qanını, malını və namusunu mübah (özlərinə halal) hesab edən ifratçı vəhhabilər kor-koranə təqlidə, təəssübə düçar olmuşlar. Həmçinin onları məntəqə müsəlmanları və bütünlükdə İslam dini üçün bir təhlükə hesab edir. O, çox qüdrətli və bacarıqlı bir yazıçıdır.

٥-Onun tənqidləri əsas e`tibarı ilə Məhəmməd ibni Əbdül-Vəhhabın «Kəşfuş-şübəhat» və «Kitabut-tövhid» adlı kitablarına (vəhhabilərin ən mühüm kitablarındandır) istiqamətlənir və öz söz-lərində mənbələri «Əd-durərus-səniyyə» kitabına istinad edir.

Bu kitabın («Əd-durərus-səniyyə») Əbdür-Rəhman ibni Məhəmməd ibni Qasim Hənbəli tərəfindən yazıldığını bilmək pis olmazdı. Bu kitab Məhəmməd ibni Əbdül-Vəhhabın və onun dövründən indiki zamana qədər digər vəhhabi başçılarının yazdıqları kitab, risalə və məktubların məcmusundan ibarətdir. O, ١٣٩٢-ci hicri qəməri ilində (=١٩٧١) dünyadan getmişdir Son zamanlarda dünyadan gedən vəhhabi alimi Benbaz bu kitabı özünün gündəlik dərslərinin bir hissəsi kimi tədris edirdi. On cilddən artıq olan bu kitab vəhhabi fikirlərindən agah olmaq üçün gözəl bir mənbədir.

٦-Əlbəttə, «Daiyətun və leysə nəbiyyən» kitabının müəllifi olan bu şücaətli alim ifratçı vəhhabilərin təhdid və tənqidlərindən amanda qalmadı: Onun kafir olma hökmü indiyə qədər də qüvvədədir (necə ki, İbni Ələvi Malikinin kafir olmasına dair hökm vermişdilər). Gələcəkdə də hansı taleyə düçar olacağı mə`lum deyildir. Lakin hər halda o, bu kitabı ilə İslam dünyasına böyük bir xidmət və isbat etmişdir ki, bu qədər kafir hesab etmələr və qan axıtmalar İslama yaddır, düzgün olmayan, süst fikirlərin və yanlış çıxarışların nəticəsidir ki, bu da İslamın mütərəqqi tə`limlərindən agah olmayan az bir qrup tərəfindən verilmişdir.

٧-Doğrusu, mən Məhəmməd ibni Əbdül-Vəhhabın kitabları barədəki yeni mülahizələri, ١١ sentyabr hadisələrindən qabaq hazırlamışdım və bu hadisədən sonra artıq onu nəşr etmək fikrində deyildim (çünki bu hadisədən sonra müsəlmanların müttəhim edilməsinə səbəb olardı), lakin ifratçı vəhhabilərin bu məzhəb başçısına bəraət qazandırmaq üçün çoxlu konfranslar təşkil etdiyini gördükdə, bir vəzifə olaraq özümə vacib bildim ki, həqiqətləri aşkar

edim, onlar da bu məsələyə insafla yanaşaraq, Şeyxin təkfir hökmü barəsindəki xətasını e`tiraf etsinlər.[١]

٨-O, məsələlərin bəyanını xüsusi bir incəliklə başlayaraq deyir: «Məhəmməd ibni Əbdül-Vəhhab islahatçı bir şəxs idi, nəinki peyğəmbər!» Bu adı da öz kitabı üçün ünvan seçmişdir.

Sonra əlavə edir: «Biz iki ifratçı qrupun arasındayıq: Bə`ziləri onu kafir və fasiq hesab edir, digər bir qrup isə bir peyğəmbər (!) hesab edərək onun sözlərinə sözsüz əməl edir və deyirlər ki, heç kəs ona irad tuta bilməz.» Sonra əlavə edib deyir ki, bunların hər ikisi səhvdədir.

O, bu müqəddimələrdən istifadə edərək Məhəmməd ibni Əbdül-Vəhhabın əqidə və fikirləri ilə əlaqədar tənqidlərinə başlayır.

٩-Öz sözlərinin bir qismini «Əş-Şeyxu ləm yəkun vəhidən fil-elmi vəd-də`və» başlığı altında belə davam edir: «Şeyxin ardıcıllarından bə`ziləri belə təsəvvür edirlər ki, o, elm və bilikdə öz dövrünün yeganə şəxsiyyəti olmuşdur, vəhhabi də`vətini qəbul etməyən İslam ölkələrinin hamısı da şirk və küfr ölkəsi və bu ölkələrin bütün alimləri İslam barədə heç nə bilməyən cahillərdir!»[٢]

Sonra əlavə edir: «Çox təəssüflər olsun ki, müsəlmanları kafir, onların ölkələrini küfr ölkəsi və alimlərinin hamısını cahil bilmək kimi məsələləri Şeyxin öz sözlərində gördüm, onun da mənbələrini zikr edəcəyəm!»

Sonra deyir: «Şübhəsiz, Şeyx və onun tabeçiləri bu əqidədə düzgün yol seçməmişlər.»

Daha sonra deyir: «Şeyx və onun ardıcıllarından çoxunun, xüsusilə müsəlmanların kafir hesab edilməsi ilə əlaqədar düçar olduqları xətalar elm tələbələrindən çoxunu – ya təqlidçilik, yaxud da ğuluvv üzündən – giriftar etmişdir. Son dövrlərdə (dünyanın müxtəlif ölkələrində) baş verən terrorist, yaxud zorakılıq əməllərinin nəticəsində bir qrup adam Şeyxin istidlalları ilə və elə həmin şüarlarla insanı dəhşətə gətirən faciələr törətmişdir (onlar müsəlmanları kütləvi şəkildə qırmış, sair ağır cinayətlər və terrorçuluq əməliyyatları törətmişlər).»

---

[١] «Daiyətun və leysə nəbiyyən», səh.٢٨.
[٢] «Daiyətun və leysə nəbiyyən», səh.١٣.

١٠-Səudiyyə ölkəsində alimlərin əksəriyyətinin Şeyxin bu xətaları qarşısında xəcalət hissi keçirib həya etmələri, bu əqaidin tənqid olunmasını qüdrəti olan şəxslərə vacibi-eyni edir. Məhz həmin məsələ də məni bu barədə bəhs aparmağa vadar etmişdir.

Ölkədəki (Səudiyyə Ərəbistanındakı) hər bir alim və vətəndaşa vacibdir ki, bizi bu qansızlıq və təkfirlərdən xilas edə biləcək hər bir şeyi (tədbiri) yerinə yetirsinlər, yalnız bizim ölkəmizə və onun əhalisinə uzun müddət ərzində ziyanlı olan təbliğatdan, hətta qısa müddət ərzində faydalı olsa da belə, pərhiz etsinlər.

Biz öz dinimizi və vətənimizi zalımcasına olan təkfirdən, pak və günahsız insanların qanını axıtmaqdan təmizləməli, bu acınacaqlı vəziyyətə son qoymalıyıq.

Bu sətirləri yazdığım dövrdə elə bir gün yoxdur ki, İraqda neçə-neçə terror əməliyyatları barəsində xəbərlər bizə çatmasın. Hər gün onlarla, yüzlərlə nəfər bu terrorizmin qurbanı olur, bomba yerləşdirilmiş avtomobillərin partlayışı nəticəsində canlarını əldən verirlər. Onların çoxu da intihar əməliyyatlarıdır və yalnız özünü müsəlman, sair insanların hamısını isə kafir hesab edərək onların canını və malını mübah (özünə halal) hesab edənlərin təxribatçılıq işi olduğunu göstərir.

Bunlar da Şeyxin məktəbinin tə`limatlarının nəticəsidir ki, Hicazdan İordaniyaya, oradan da İraqa keçmişdir.

Maraqlıdır ki, yuxarıdakı kitabın («Daiyətun və leysə nəbiyyən») müəllifi öz kitabının vərəqaltı haşiyələrində mühüm bir məsələni qeyd edərək deyir ki, hegemon qərb dövlətləri, xüsusilə amerikalılar siyasət, hərbçilik və iqtisadiyyatda törətdikləri təxribatçılıq, qəsbkar əməlləri ilə İsrailə hərtərəfli kömək etməklə bu kimi terrorçuluq hərəkətlərinə zəmin yaratmışdır.»

Öz kəlamının digər bir yerində qeyd edir ki, hətta Ərəbistanın daxilində belə hərc-mərcliyə səbəb olan bu təkfirçi hərəkatlar, görəsən, haradan qaynaqlanır?!

Axırda belə nəticə alır ki, «Şeyxin dəlilləri və onun məktəbi bu terrorçuluğun əsl amilləridir. Nəcd əyalətində «ixvan» qrupunun terrorçuluq aktları, ondan sonra da Məkkə hərəmindən tutmuş, Ərəbistanın müxtəlif məntəqələrində törədilən partlayış hadisələri və terrorçuluqların hamısı Şeyxin tə`limlərinin nəticəsidir.»

Daha sonra əlavə edir: «Bu terrorçuluqları və partlayışları törədənlər başqa ölkələrdən Hicaza gəlmiş olan yad şəxslər deyil, əksinə elə Hicazın vəhhabiləridir. Əgər desək ki, hamısı Şeyxin mədəniyyət və tə`limlərindən ilham almışlar, çox da yanlış bir söz deməmişik. Hər kəs onların sözlərinə müraciət etsə, bu həqiqətləri e`tiraf edəcəkdir.»[١]

## «DAİYƏTUN VƏ LEYSƏ NƏBİYYƏN» KİTABININ XÜLASƏSİ

Yuxarıdakı müqəddimələr aydın olduqdan sonra, bu kitabın xülasəsini qeyd edirik.

Vəhhabi firqəsindən olan Həsən ibni Fərhan Maliki bu kitabın güclü yazıçısıdır ki, öz əsərini «O, peyğəmbər deyil, islahatçıdır!» adı ilə qələmə almışdır. Bu kitab da əsas e`tibarı ilə vəhhabilərin rəhbərinin sair müsəlmanları kafir hesab edən, vəhhabi olmayan və onun sözlərini qəbul etməyən bütün şəxslərin küfr və şirkinə dair hökm edən əqidə və sözlərinə tənqidi yanaşmış və lazım olan məsələləri beş fəsildə bəyan etmişdir.

Birinci fəsildə Məhəmməd ibni Əbdül-Vəhhabın ən məşhur və mühüm kitabı olan «Kəşfuş-şübəhat» kitabını tənqid edərək öz mülahizələrini söyləyir.

İkinci fəsildə onun şirk və tövhid məsələsi barəsində yazdığı sair kitabları araşdırır.

Üçüncü fəsildə onun müsəlmanları kafir hesab etmə əqidəsindən dönüb-dönməməsi barəsində mühüm bir məsələni araşdırır, sonra onun sözlərində mövcud olan təzadı elmi şəkildə tənqid edir.

Dördüncü fəsildə digər mühüm bir mövzu barəsində bəhs edir; belə ki, onun ardıcılları gözü bağlı, kor-koranə şəkildə bu mövzuya tabe olaraq müsəlmanları kafir hesab edir və onun səhv sözlərini düzgün qələmə verirlər.

Nəhayət, beşinci fəsildə Şeyxin düşmənlərinin nəzərlərini tənqid edərək ifratçıları mö`tədillərdən ayırır, özü də mö`tədil vəhhabi cərgəsində qərar tutur.

---

[١] «Daiyətun və leysə nəbiyyən», səh.٦٢ və ٦٣.

Axırda isə deyir: «Bu bəhslərin hamısının xülasəsi budur ki, Şeyx təkfir məsələsində xəta yolunu getmişdir... əlimizdəki aşkar dəlillərə diqqət yetirməklə, bu məsələni e`tiraf etmək insaflı şəxslər üçün çox asandır: nə İslam dini bu e`tiraflarla aradan gedər, nə də göy yerə tökülər! Yalnız caizul-xəta olan bir insan xətaya yol vermişdir.»[١]

Biz də deyirik: Bu tənqidlər həm də İslam dininin rövnəqlənməsinə, onun insaniyyətə yad olan vəhşilik və qansız əməllərdən paklanmasına səbəb olar, heç olmazsa, mö`tədil vəhhabiləri təəssübkeş və ifratçı vəhhabilərin yerinə keçirər. İndi isə, o kitabda qeyd olunan hər bir fəsli qısa şəkildə araşdırırıq.

## «KƏŞFUŞ-ŞÜBƏHAT» KİTABININ TƏNQİDİ

Şeyxin ən məşhur kitablarından olan «Kəşfüş-şübəhat» kitabı həcmcə kiçik olmasına baxmayaraq, (təqribən yetmiş səhifədir) İbni Fərhan bu kitaba otuz üç əsaslı irad tutmuş, vəhhabilərin rəhbərinin, xüsusilə təkfir məsələsindəki sözlərini tənqid etmişdir. O, əvvəldə təəccüblə deyir: «Necə olur ki, vəhhabi alimləri Şeyxin sözlərindəki bu qədər səhv və xətaları görməməzliyə vuraraq onun yanından çox sadəliklə ötüb keçirlər?! Əgər onlardan bə`ziləri, hətta onun bir neçə xətasını qeyd etmiş olsaydılar, mən bu kitabı yazmağa heç bir zərurət və luzum görməzdim; lakin nə etmək olar ki, onların hamısı sükut etmişlər.»

Yaxşı olardı ki, burada onun birinci və axırıncı iradlarını (otuz üç iraddan ikisini) qeyd edək.

## SALEH ŞƏXSİYYƏTLƏR BARƏSİNDƏ ĞULUV VƏ İFRATÇILIQ

Məhəmməd ibni Əbdül-Vəhhab «Kəşfüş-şübəhat» kitabının əvvəlində yazır: «Tövhid – Allahın Öz bəndələrinə doğru göndərdiyi peyğəmbərlərin dinidir. Onların əvvəli Nuhdur ki, onlar salehlər barəsində həddini aşaraq ğuluv etdikləri zaman Allah onu öz qövmünə doğru göndərdi.»

---

[١] «Daiyətun və leysə nəbiyyən», səh.٢٨, ٢٩.

İbni Fərhan sonra deyir: «Bu sözün əvvəli düzgündür, lakin axırı düzgün deyildir və təkfir üçün bir müqəddimədir! Çünki Allah Nuhu bəndələrin yeganə Allaha doğru də`vət və şirkin tərk edilməsi üçün göndərdi, onlar Budd, Səva və sair bütlərə pərəstiş edirdilər. Onların problemi təkcə salehlər barəsində hədlərini aşmaq deyildi, həddini aşmaq yalnız bə`zi hallarda şirkə səbəb ola bilər, lakin hər bir «həddini aşmaq» şirk deyildir ki, bunu bəhanə edərək müsəlmanların qanını töksünlər.»

Sonra deyir: «Mən heç vaxt demirəm ki, salehlərin və din böyüklərinin barəsində həddini aşmaq, yaxud bə`zi xurafatçı mərasimlər səhihdir; xeyr, mən deyirəm ki, bu işlər xətadır, lakin küfr deyildir. Sanki Şeyx özünün bu sözləri ilə ona irad tutulan mühüm bir məsələyə cavab vermək istəmişdir. Şeyxə irad tutub deyirdilər ki, sənin kafir hesab etdiyin, onlarla müharibə aparıb qətlə yetirdiyin şəxslər elə namaz qılıb, oruc tutan, həcc yerinə yetirən müsəlmanlardır. O isə demək istəyirdi ki, din böyükləri barəsində ifratçılığa yol verdikləri üçün onların hamısı kafirdir, hətta cahiliyyət dövrünün müşriklərindən də pisdirlər.»[١]

Qısa sözlə desək, şirk töhməti, özü də böyük şirk, yə`ni insanın mal-dövləti və canının hədərə getməsinə səbəb olan bir töhmət xırda bir iş deyildir ki, müəyyən din böyüyü barəsində ifratçılığa varan hər hansı şəxsə yaxıla bilsin və onun malı, canı mübah hesab edilsin!

İbni Fərhan təəccüblə deyir ki, özlərini ğuluvvun müxalifləri adlandıran bu şəxslər Şeyx Məhəmməd ibni Əbdül-Vəhhabın barəsində elə kəskin ifratçılığa düçar olmuşlar ki, onu hər bir xətadan pak-pakizə bilirlər, hətta onlardan biri Şeyxi «Şeyxul-vücud» deyə tə`bir etmişdir.[٢] Halbuki bu tə`biri hətta Peyğəmbər (səlləllahu əleyhi və alih) barəsində belə caiz hesab etmirlər!

Sonuncu iradda (otuz üçüncü) Şeyxə deyir ki, o öz kitabının ٧٠-ci səhifəsində küfr məsələsindən yalnız bir qrupu istisna etmişdir, o da icbara mə`ruz qalanlardır. «Mən ukrihə», yə`ni bir şəxsi küfr deməyə məcbur etsələr və o bu sözü dilinə gətirsə, «illa mən ukrihə» ayəsinə əsasən, bu iş istisnadır.

---

١ «Daiyətun və leysə nəbiyyən», səh.٣٣ (ixtisarla).
٢ «Daiyətun və leysə nəbiyyən», səh.١٤.

Sonra İbni Fərhan nadanlıq, bilməməzlik, yaxud Qur`an ayələri və rəvayətlərin mə`nasını dərk etmədiyinə, yaxud səhvə yol verdiynə görə bə`zi din məsələlərini inkar edən, amma İslamın əsas prinsiplərini qəbul edən digər bir qrupu sadalayır. bunlar da Qur`an ayələri və rəvayətlərin tələbinə uyğun olaraq üzürlü sayılırlar və kafir deyildirlər.

Sonra əlavə edir: Şeyxin üslubundakı eyblərdən biri də budur ki, o bir ayə və ya bir hədisi götürərək qalan ayə və hədislərə nəzər yetirmir və bu da böyük bir səhvdir.

***

Kitabın ikinci fəslində Şeyxin «Əd-durərus-səniyyə» kitabındakı nəzəriyyələrini tənqid edərək, onun qırx xətasını sadalayır. O cümlədən, yazır ki, bu kitabda qeyd olunanlara uyğun olaraq[١] Nəcdin alim və qazilərinin heç biri «la ilahə illəllah» kəlməsinin mə`nasını bilmir və Muhəmmədin dini ilə Əmr ibni Ləhyinin dini arasında (o, cahiliyyət dövrünün məşhur bütpərəstidir) heç bir fərq qoymurlar, üstəlik Əmr ibni Ləhyin dinini daha yaxşı və düzgün din sayırlar!! Beləliklə, o məntəqənin bütün alim, fəqih və qazilərini müşrik və kafir hesab edir.

Sonra bu ölkənin alim və fəqihləri barəsində yazılan kitabları zikr edir və deyir ki, bu, Şeyx Məhəmmədin müsəlmanları kafir etməkdə düçar olduğu aşkar bir nümunədir.

Daha sonra bu ifratçı vəhhabi qrupu tərəfindən təkfir məsələsində həddini aşma ünvanı ilə bir neçə məsələni qeyd edir:

١-Şiələrin təkfir olunması. Şeyx Məhəmməd ibni Əbdül-Vəhhab deyir ki, «şiələrin kafir olmasında şəkk edən kimsənin özü kafirdir!»[٢]

İbni Fərhan deyir: İbni Teymiyyənin, şiələrə qarşı ədavətdə həddini aşmasına və onları bid`ət əhli hesab etməsinə baxmayaraq, onları müsəlman sayır və aşkar şəkildə deyir ki, onlar kafir deyildir.»[٣]

Müəllif: Bu qeyri-insani və qeyri-İslami fətvaların ardınca İslamda ən gözəl və mükəmməl tövhid məktəbinin əsasını qoyan şiələrin qanının müxtəlif ölkələrdə axıdılması, mal-dövlətinin qarət

---

[١] «Əd-durərus-səniyyə», ١٠-cu cild, səh.٥١.
[٢] Yenə orada, səh.٣٦٩.
[٣] «Daiyətun və leysə nəbiyyən», səh.٨٦.

edilməsi başlandı və bu yaramaz əməl hal-hazırda da davam etməkdədir.

٢-Şeyx deyir: «Hər kəs Peyğəmbər səhabələrindən hər hansı birinə (hər hansı olursa-olsun) lə`nət göndərsə kafirdir.»[1] Halbuki, İbni Fərhan Malikinin «Səhihi Müslüm»dən nəqlən aşkar dediyinə əsasən,[2] Müaviyə Əli (əleyhissalam)-ın lə`n edilməsinə dair hökm verdi. (Uzun illər boyu Müaviyənin əmrinə görə minbərlərdə o həzrətə lə`nət göndərdilər). Buna nəzər yetirməklə, görəsən Müaviyə müsəlman idimi?![3]

Maraqlıdır ki, Maliki məzhəbində olan bu sünnü alimi deyir: Çox hallarda Şeyx Məhəmməd özünü müdafiə etmə məqamında deyir: «Düşmənlər deyirlər ki, mən sadəcə bir sui-zənn ilə höccətin bərqərar edilmədiyi müəyyən cahil şəxsləri kafir hesab edirəm! Bu, böyük bir böhtandır, onlar camaatı Allahın və Rəsulunun dinindən uzaqlaşdırmaq istəyirlər!»[4]

İbni Fərhan deyir: «Şeyxin bu tə`birinin özü, üstü örtülü şəkildə olan bir təkfirdir, belə ki, O, vəhhabiyyət məzhəbini qəbul etməyən bütün şəxsləri kafir hesab edir. Çünki onun «Allahın və Rəsulunun dini» dedikdə məqsədi vəhhabi ayinidir. Deməli, vəhhabiyyətlə müxalif olanlar Allahın və Rəsulunun dininə kafir olmuşlar!»[5]

## ŞEYXİN SÖZLƏRİNDƏ ZİDDİYYƏTLƏR

Bu sözün ardınca İbni Fərhan vəhhabilərin başçısının sözlərində aşkar şəkildə sezilən ziddiyyətlərə işarə edərək deyir: «Şeyxin çoxlu

---

[1] «Əd-durərus-səniyyə», ١٠-cu cild, səh.٣٦٩.

[2] O, Sə`d ibni Əbi Vəqqasdan soruşdu ki, «nə üçün (bu qədər göstəriş verməyimə baxmayaraq) Əlini söymürsən?» Sə`d dedi: «Peyğəmbərdən Əlinin fəzilət və əzəməti barəsində eşitdiyim üç cümləyə görə...» (Sonra onları nəql edir.) «Səhihi Müslüm», fəzailus-səhabə kitabı, fəzailu Əli ibni Əbitalib bölməsi, üçüncü hədis.

Müaviyənin Əli Æ-a qarşı yaramaz sözlər deyilməsini və onu lə`nətləməsini yayması barədə mə`lumat almaq üçün aşağıdakı mənbələrə baxa bilərsiniz: «Tarixi Təbəri», ٤-cü cild, səh.٥٢ və ١٨٨, «Kamil İbni Əsir, ٣-cü cild, səh.٤٧٢ və ٥-ci cild səh.٤٢, «Nəhcül-bəlağə»nin şərhi, İbni Əbil Hədid Mö`təzili, ٤-cü cild, səh.٥٦, «Əqdul fərid, ٤-cü cild, səh.٣٦٦.

[3] «Daiyətun və leysə nəbiyyən», səh.٨٦.

[4] «Əd-durərus-səniyyə», ١٠-cu cild, səh.١١٣.

[5] «Daiyətun və leysə nəbiyyən», səh.١٠٧.

səhv və xəta etdiyini demişlər, o da bunları özündən dəf etmişdir, halbuki onların əksəriyyəti onun sözlərində mövcuddur!»

Bundan sonra, qeyd olunan bu xətalardan ٢٥-ini mənbəsini qeyd etməklə sadalayır. O cümlədən, Şeyx:

١-Sünnülərin dörd məzhəbinin mö`təbər kitablarını batil hesab edir!

٢-Salehlərə təvəssül edənlərə «kafirdir» deyir!

٣-O deyir ki, əgər qüdrət tapsaydım, Peyğəmbərin künbəzini və məqbərəsini dağıdardım! («Bəqi`» qəbiristanlığında Əhli-beyt imamlarının və sair böyük şəxsiyyətlərin qəbirlərini yerlə yeksan etdikləri kimi.)

٤-O, Peyğəmbərin qəbrini ziyarət etməyi haram iş sayır!

٥-O bütün insanları – ona tabe olanlardan başqa – kafir hesab edir!

Bu kimi sözlər, zahirdə inkar etsə də, onun öz sözlərində və kitablarında aşkar, yaxud üstüörtülü şəkildə görünməkdədir və bu da çox qəribə təzada malik olan sözlərdir.

***

Həsən ibni Fərhan Maliki «Daiyətun və leysə nəbiyyən» adlı kitabının üçüncü fəslində yazır: Çox təəssüflər olsun ki, Şeyxin şagirdləri və təqlidçiləri onun qoyduğu təkfir yolunu davam etdirmiş, bir çox ərəb və qeyri-ərəb qəbilələrinin, çoxlu İslam məzhəblərinin ardıcıllarının və müsəlmanların məşhur alimlərinin kafir olmasına dair hökm çıxarmışlar![١] O cümlədən:

١-O demişdir ki, Mədinə və Məkkə əhalisi (o dövrdə vəhhabiliyi qəbul etmədikləri üçün) hamılıqla kafirdir.[٢]

٢- Məhəmməd ibni Əbdül-Vəhhabın də`vətini qəbul edən, lakin öz ata-babalarının müsəlman halda dünyadan getdiyinə inanan şəxs kafirdir!! Belə bir şəxsi istiqamətləndirmək lazımdır: Hərgah öz sözündən tövbə etməsə, boynunu vurmaq lazımdır! Onun malı beytul-mala qatılmalıdır! Əgər həcc əməlləri yerinə yetirmişsə və bu,

---

[١] Başqa sözlə desək, sağa, sola, ümumiyyətlə hər bir tərəfə küfr hökmü vermiş və bütün müsəlmanları kafirlik qılıncı altından keçirmişlər!

[٢] «Əd-durərus-səniyyə», ٩-cu cild, səh.٢٨٥.

vəhhabiyyəti qəbul etməkdən qabaq olubsa, müşrikdir və həccini yenidən yerinə yetirməlidir.[١]

٣-Osmanlı dövləti kafirdir və hər kəs o dövləti kafir hesab etməsə, özü kafirdir![٢]

٤-Köçəri həyat tərzi sürənlər kafirdir və şəhadəteynin mə`nasını bilmirlər.[٣] Mö`təziləçilər də kafirdir![٤]

٥-Zəkatın verilməsinə mane olan şəxs kafirdir![٥]

٦-Qeyri-müsəlmanları öz iş yerlərində, iş yerlərində və evlərində xidmətçiliyə götürənlər, hamılıqla kafir və mürtəddirlər, belə ki, onlar vacibatların çoxunu tərk etmiş, haramlardan çoxuna mürtəkib olmuş və şəhadəteynin sözlərindən başqa bir şey başa düşmürlər.[٦]

Həsən ibni Fərhan, Şeyxin şagirdləri və ardıcıllarının müsəlmanların kafir sayılması barəsində qeyd etdikləri ٢٧ faktı zikr etdikdən sonra əlavə edir: «Təkfir məsələsində həddi bu qədər aşmaqdan sonra (belə ki, onun misli görünməmişdir) vəhhabi alimlərindən bir qrupu öz təkfir həmlələrini Seyyid Qütbə, Modudiyə, eləcə də «İxvanul-müslimin» və «Hizbut-təhrir» təşkilatlarına qarşı yönəltmişlər. Düzdür ki, bunlar siyasi fəzada qərar tutaraq ifrata varmışlar, lakin onların ifratçılıqları heç vaxt vəhhabilərin hər bir sahədə – siyasi, məzhəbi, fiqhi, mədəni, ictimai və s. törətdikləri ifratçılıqlara çata bilməz. Axı, insaf da yaxşı şeydir![٧]

Sonra əlavə edir: «Qeyd etdiyimiz ibarələrdə bir az dəqiq fikirləşin: doğrusu, üzdəniraq cihad proqramlarından (müsəlmanlara hücum etmək) bir şey qalmışdırmı ki, vəhhabilər onu deməsinlər?!»[٨]

Bu bəhsin axırında xatırladır ki, Məhəmməd ibni Əbdül-Vəhhabdan sonra təkfir dalğaları vəhhabilərin özünü də tutdu: Onlar bir-birlərini kafir hesab edərək qadınlarını əsarətə aldılar! Sonra

---

[١] «Əd-durərus-səniyyə», ١٠-cu cild, səh.١٤٣ və ١٣٨.
[٢] Yenə orada, səh.٤٢٩.
[٣] Yenə orada, ١-ci cild, səh.٣٦٤.
[٤] Yenə orada, səh.٣٥٧.
[٥] Yenə orada, ١٠-cu cild, səh.١٧٧.
[٦] Yenə orada, ١٥ – ci cild, səh.٤٨٦.
[٧] «Daiyətun və leysə nəbiyyən», səh.١١٧.
[٨] Yenə orada.

«Əd-durərus səniyyə» kitabına istinad etməklə bunun çoxlu nümunələrini nəql etmişdir.[١]

Bu fəslin sonunda tükürpədən qaranlıq, zülmətli, müəmmalı nöqtələr müqabilində qüvvəli bir nöqtəyə də işarə edərək deyir: Vəhhabi məzhəbinin əsasını qoyan şəxsin övladı Əbdüllah ibni Məhəmməd Dir`iyyənin (Hicazın şəhərlərindən biridir) süqutundan sonra Misirə getdi və təəssüblə dolu olan o mühitdən açıq bir mühitə keçdi, yeni elmləri öyrəndi və mö`tədil bir məktəbə üz gətirdi. O, müxtəlif müsəlman qruplarına kafirliyə dair hökm verməyi – atasının inandığı bir sıra bid`ətlər xatirinə – inkar etməyə başladı və dedi ki, heç kəsi kafir hesab etmək olmaz; yalnız o kəsi kafir hesab etmək olar ki, dinin zəruri, danılmaz məsələlərini inkar etsin və ya müsəlmanların icmasında küfr hesab edilən işləri görmüş olsun.[٢]

Bu kitabın dördüncü fəslində Şeyxin müxaliflərinin sözlərini qeyd edib deyir ki, onlar Şeyxi və bütün vəhhabiləri kafir hesab edir. Sonra onları müdafiə etməyə başlayır və deyir: «Bu kimi təkfirlərin də e`tibarı yoxdur; yalnız onların xətakar, xüsusilə təkfir məsələsində xətakar olmasını e`tiraf etmək lazımdır.»

O, bu fəsildə məşhur sünnü alimlərindən ٢٢ nəfərin adını qeyd edir ki, onların əksəriyyəti Nəcd və Məkkə əhli olmuşdur, bə`zən Dəməşq, Tunis, Mərakeş alimləri də Şeyxin əleyhinə qalxmış və onların bə`ziləri Məhəmməd ibni Əbdül-Vəhhabın sözlərini rədd etmək üçün kitablar yazmışlar.[٣]

Bununla da göstərir ki, Şeyxlə mübarizəyə qalxanların əksəriyyəti o kəslər olmuşlar ki, onun öz vətənində dünyaya gəlmiş, yaxud onun yaxın adamlarından olmuşlar!

## VƏHHABİ RƏHBƏRLƏRİN ƏN MÜHÜM İTTİHAMLARI

Keçən fəsillərdə qeyd olundu ki, İbni Fərhan sünnülərin məşhur alimlərinin Şeyxə tutduqları ən mühüm iradları dörd şeydə xülasələndirir:

١-Müsəlmanların kafir hesab edilməsi;

٢-Nübüvvət iddiası (dildə deyil, vəziyyətindən aşkar olur);

---

[١] «Daiyətun və leysə nəbiyyən», səh.١٢٣-dən sonra

[٢] «Əd-durərus-səniyyə», ١٠-cu cild, səh.٢٤٤, «Daiyətun və leysə nəbiyyən», səh.١٢٥.

[٣] «Daiyətun və leysə nəbiyyən», səh.١٢٧-١٣٣.

٣-Allah-taalanın cism olmasına inanmaq və Onun bir şeyə təşbih etmək;

٤-Din böyüklərinin və ilahi övliyaların kəramətlərini inkar etmək.

Sonra əlavə edir: «Ümdə ittiham birincisidir ki, heç kəs onu inkar edə bilməz.» Bundan sonra məşhur yazıçı Şeyx Əhməd Zeydi Dehlanın «Də`vəl-mənaviin» kitabında qeyd etdiyi sözləri zikr edir. O deyir: «Vəhhabilər heç kəsi müvəhhid (tövhidçi) hesab etmirlər; yalnız o kəsləri tövhidçi hesab edirlər ki, onların məzhəblərinə tabe olmuş olsun.»[١]

Zəhavi adlı digər məşhur alimdən nəql edir ki, «əgər bir şəxsdən «vəhhabi məzhəbi hansıdır və bu məzhəbin nəticəsi nə olmuşdur?» - deyə soruşsalar, bu sualın cavabında deyərəm: «Bütün dünya müsəlmanlarının kafir olmasına hökm!» Bu, yuxarıda qeyd edilən sualların ən kafi cavabıdır.»[٢]

Həsən ibni Fərhan çalışır ki, digər üç ittihamdan Şeyxə bəraət qazandırsın, lakin tam tə`kidlə qəbul etdiyi birinci ittiham çox da kiçik ittiham deyildir. Halbuki Qur`an müsəlmanları, hətta zahirdə belə islamçılıq iddiası edənləri küfrlə müttəhim etməyi aşkar şəkildə qadağan edir (İslamın zəruri məsələlərini inkar etməyincəyə qədər):

وَلاَ تَقُولُواْ لِمَنْ أَلْقَى إِلَيْكُمُ السَّلاَمَ لَسْتَ مُؤْمِنًا تَبْتَغُونَ عَرَضَ الْحَيَاةِ الدُّنْيَا

***"İslamı izhar eədn şəxsə, dünyanın davamsız, ötəri sərmayələrini ələ gətirəsiniz (onun mal-dövlətini qənimət olaraq ələ keçirəsiniz) deyə, "sən müsəlman deyilsən!"-deməyin.***[٣]

Görəsən, bu şərif ayənin aşkar şəkildə buyurması ilə eyni zamanda, müsəlmanları öz aşkar səhvləri nəticəsində kafir hesab etməyə – özü də tövhid və şirk kimi məsələlərdə – bir yer qalırmı?! Halbuki:

وَمَن يَقْتُلْ مُؤْمِنًا مُّتَعَمِّدًا فَجَزَآؤُهُ جَهَنَّمُ خَالِدًا فِيهَا وَغَضِبَ اللّهُ عَلَيْهِ وَلَعَنَهُ وَأَعَدَّ لَهُ عَذَابًا عَظِيمًا

---

[١] «Də`vəl-mənaviin», səh.١٦٦.
[٢] «Də`vəl-mənaviin», səh.١٦٧.
[٣] «Nisa» surəsi, ayə:٩٤.

***“Hər kəs mö`min bir şəxsi qəsdən qətlə yetirsə, onun cəzası cəhənnəmdir və orada əbədi qalacaqdır, Allah ona qəzəb və lə`nət edir, onun üçün böyük bir azab hazırlamışdır.”*** [١]

Bu ayə hər bir imanlı insanın vücudunu lərzəyə gətirir, cəhənnəm atəşi ilə, özü də orada Allahın qəzəb və lə`nəti ilə yanaşı olaraq əbədi qalmaqla təhdid edir. Bu, elə bir tə`birdir ki, insanı qətlə yetirmək istisna olmaqla kəbirə günahlardan heç biri barəsində istifadə edilməmişdir.

Bu ağır cəzanın imansız şəxslərə məxsus olduğuna nəzər yetirməklə ilahi əzabda əbədi qalmaq tə`biri göstərir ki, müsəlmanların qatilləri, sözsüz, imansız halda dünyadan gedirlər ki, onların cəhənnəmdə əbədi qalmasına şərait yaransın.

İndi fikirləşin: Namaz qılan, oruc tutan, bütün İslam ədəblərinə sahib olan şəxsləri puç xəyallarla qətlə yetirən, qadınlarını əsir tutan, mal-dövlətlərini qarət edənlərin vəziyyəti necə olacaq?! Bir nəfəri deyil, yüzlərlə, minlərlə qadını, uşağı, südəmər körpəni, qoca-cavanı qətlə yetirənlər! Bu əməllərilə «İslam dini» və «Muhəmməd tövhidi» adını qoymuş, özlərini isə nicat əhli hesab edirlər. Nəuzi billahil-əzim!

Halbuki, onların özü aşağıdakı ayənin nümunələridir:

وَزَيَّنَ لَهُمُ الشَّيْطَانُ أَعْمَالَهُمْ فَصَدَّهُمْ عَنِ السَّبِيلِ فَهُمْ لَا يَهْتَدُونَ

***“Şeytan onların yaramaz əməllərini öz nəzərlərində gözəl cilvələndirmişdir və onları haqq yolundan saxlamışdır, buna görə də hidayət olunmurlar.”*** [٢]

Amma son zamanlarda bu məzhəb ardıcıllarının çoxu öz səhvlərini anlamış, müsəlmanları kafir hesab etməyi böyük günahlardan saymışlar, baxmayaraq ki, onların nəzərində bid`ət əhli olsalar da; Bu da pak İslam dininin terrorizmdən, təhdidlərdən xilas olması nümunəsidir ki, bu da «Məfahimu yəcibu ən tusəhhəhə» və «Daiyətun və leysə nəbiyyən» kitablarında qeyd etdiyimiz İslami məhəbbət və duyğuların çiçəklənməsinə səbəb olacaq.

Sonda bu bəhsin hüsnü-xitamı (gözəl xətmə yetirilməsi) üçün mühüm bir e`lanı qeyd edirik ki, Səudiyyə Ərəbistanının alim, fəqih

---

[١] «Nisa» surəsi, ayə:٩٣.

[٢] «Nəml» surəsi, ayə ٢٤

və mühəddisləri – mö`tədil vəhhabilərdən olan bir qrupu tərəfindən yazılıb nəşr edilmişdir.

Bu e`lan müxtəlif qəzet və jurnallarda çap olunmuşdur, lakin biz onu «Mö`cəmu təbəqatil-mütəkəllimin» kitabından nəql edirik.

## SON SÖZ!

## SƏUDİYYƏ ƏRƏBİSTANININ BÖYÜK ALİMLƏR HEY`ƏTİNİN VƏHHABİLƏRİN TERRORİST ƏMƏLLƏRİNİ MƏHKUM ETMƏKLƏ ƏLAQƏDAR BƏYANATI

Əvvəlcə vəhhabilərin terrorist hərəkatlarını məhkum edən bu bəyanatın ərəbcə mətnini təqdim edirik:

### بيان من هيأة كبار العلماء

الحمد لله و الصّلوة و السّلام علي رسول الله و علي آله و صحبه و من اهتدي بهداه

**اما بعد: فقد درس مجلس هيأة كبار العلماء في دورته التاسعة و الاربعين المنعقدة بالطائف ابتداء من تاريخ ٢\٤\١٤١٩ هـ.ما يجري في كثير من البلاد الاسلامية و غيرها من التكفير و التفجير و ما ينشا من سفك الدماء و تخريب المنشآت و نظرا الي خطورة هذا الامر و ما يترتب عليه من ازهاق ارواح بريئة و اتلاف اموال معصومة و اخافة للناس و زعزعة لامنهم و استقرارهم فقد راي المجلس اصدار بيان يوضح فيه حكم ذلك نصحا لله و لعباده و ابراء للذمة و ازالة للبس في المفاهيم لدي من اشتبه عليه الامر في ذلك فنقول و بالله التوفيق:**

**اولا: التفكير حكم شرعي مردّه الي الله و رسوله فكما ان التحليل و التحريم و الايجاب الي الله و رسوله فكذالك التفكير و ليس كل ما وصف بالكفر من قول او فعل يكون كفرا اكبر مخرجا عن الملة.**

**و لما كان مردّ حكم التكفير الي الله و رسوله لم يجز ان نكفر من دل الكتاب و السنة علي كفره دلالة واضحة فلا يكفي في ذلك مجرد الشبهة و الظن لما يترتب علي ذلك من الاحكام الخطيرة و اذا كانت الحدود تدرأ بالشبهات مع ان ما يترتب عليها اقل مما يترتب علي التكفير فالتكفير اولي ان يدرأ بالشبهات و لذلك حذر النبي من الحكم بالتكفير علي شخص ليس بكافر فقال ايما امرء قال لاخيه يا كافر فقد باء بها احدهما**

ان كان كما قال و الا رجعت عليه و قد يرد في الكتاب و السنة ما يفهم منه عن هذا القول او العمل او الاعتقاد كفر و لا يكفر من اتصف به لوجود مانع يمنع من كفره و هذا الحكم كغيره من الاحكام التي لا تتم الا بوجود اسبابها و شروطها و انتفاء موانعها كما في الارث سببه القرابة – مثلا – و قد لا يرث بها لوجود مانع كاختلاف الدين و هكذا الكفر يكره عليه المؤمن فلا يكفر به. و قد ينطق المسلم بكلمة الكفر لغلبة فرح او غضب او نحوهما فلا يكفر بها لعدم القصد كما في قصة الذي قال: "اللهم انت عبدي و انا ربك" اخطا من شدة الفرح. و التسرع في التكفير يترتب عليه امور خطيرة من استحلال الدم و المال و منع التوارث و فسخ النكاح و غيرهما مما يترتب علي الردة فكيف يسوغ للمؤمن ان يقدم عليه لادني شبهة.

و جملة القول ان التسرع في التكفير له خطره العظيم لقول الله عز و جل: قُلْ إِنَّمَا حَرَّمَ رَبِّيَ الْفَوَاحِشَ مَا ظَهَرَ مِنْهَا وَمَا بَطَنَ وَالإِثْمَ وَالْبَغْيَ بِغَيْرِ الْحَقِّ وَأَن تُشْرِكُواْ بِاللّهِ مَا لَمْ يُنَزِّلْ بِهِ سُلْطَانًا وَأَن تَقُولُواْ عَلَى اللّهِ مَا لاَ تَعْلَمُونَ (الاعراف الاية ٣٣).

ثانيا :ما نجم عن هذا الاعتقاد الخاطئ من استباحة الدماء و انتهاك الاعراض و سلب الاموال الخاصة و العامة و تفجير المساكن و المركبات و تخريب المنشآت فهذه الاعمال و امثالها محرمة شرعا باجماع المسلمين لما في ذلك من هتك لحرمة الانس المعصومة و هتك الحرمة الاموال و هتك لحرمات الامن و الاستقرار و حياة الناس الآمنين المطمئنين في مساكنهم و معايشهم و غدوهم و رواحهم و هتك للمصالح العامة التي لا غني للناس في حياتهم عنها.

و قد حفظ الاسلام للمسلمين اموالهم و اعراضهم و ابدانهم و حرم انتهاكها و شدد في ذلك و كان من آخر ما بلغ به النبي صلي الله عليه و سلم امته فقال في خطبة حجة الوداع: ان دمائكم و اموالكم و اعراضكم عليكم حرام كحرمة يومكم هذا في شهركم هذا في بلدكم هذا" ثم قال صلي الله عليه و سلم الا هل بلغت اللهم

فاشهد" متفق عليه.

و قال صلي الله عليه و سلم: كل المسلم علي المسلم حرام دمه و ماله و عرضه و قال عليه الصلوة و السلام: "اتقوا الظلم فان الظلم ظلمات يوم القيامة"

و قد توعد الله سبحانه من قتل نفسا معصومة باشد الوعيد فقال سبحانه في حق المؤمن: وَمَن يَقْتُلْ مُؤْمِنًا مُّتَعَمِّدًا فَجَزَآؤُهُ جَهَنَّمُ خَالِدًا فِيهَا وَغَضِبَ اللّهُ عَلَيْهِ وَلَعَنَهُ وَأَعَدَّ لَهُ عَذَابًا عَظِيمًا

و قال سبحانه في حق الكافر الذي له ذمة في حكم قتل الخطا: إِلاَّ أَن يَصَّدَّقُواْ فَإِن كَانَ مِن قَوْمٍ عَدُوٍّ لَّكُمْ وَهُوَ مْؤْمِنٌ فَتَحْرِيرُ رَقَبَةٍ مُّؤْمِنَةٍ فاذا كان الكافر الذي له امان اذا قتل خطا فيه الدية و الكفارة فكيف اذا قتل عمدا فان الجريمة تكون اعظم و الاثم يكون اكبر. و قد صح عن رسول الله صلي الله عليه و سلم انه قال: من قتل معاهدا لم يرح رائحة الجنة.

ثالثا: ان المجلس اذا يبين حكم تكفير الناس بغير برهان من كتاب الله و سنة رسوله و خطورة اطلاق ذلك لما يترتب عليه من شرور و آثام فانه يعلم للعالم ان الاسلام بريء من هذا المعتقد الخاطئ و ان ما يجري في بعض البلدان من سفك الدماء البريئة و تفجير للمساكن و المركبات و المرافق العامة و الخاصة و تخريب للمنشآت هو عمل اجرامي و الاسلام بريء منه و هكذا كل مسلم يؤمن بالله و اليوم الآخر بريء منه و انما هو تصرف من صاحب فكر منحرف و عقيدة ضالة فهو يحمل اثمه و جرمه فلا يحتسب عمله علي الاسلام و لا علي المسلمين المهتدين بهدي الاسلام المعتصمين بالكتاب و السنة المتسمسكين بحبل الله المتين و انما هو محض افساد و اجرام تأباه الشريعة و الفطرة و لهذا جائت نصوص الشريعة قاطعة بتحريمه محذرة من مصاحبة اهله...

رئيس المجلس: عبد العزيز بن عبد الله بن بازّ

صالح بن محمد اللحيدان عبد الله بن عبد الرحمان العصام

| | |
|---|---|
| عبد الله بن سليمان بن تقنيع | عبد العزيز بن عبد الله بن محمد آل الشيخ |
| محمد بن صالح العثيمين | د. عبد الله بن محمد بن ابراهيم آل الشيخ |
| ناصر بن حمد الراشد | عبد الرحمان بن حمزة المرزوقي |
| محمد بن عبد الله السبيل | د. عبد الله بن عبد المحسن التركي |
| محمد بن سليمان البدر | عبد الله بن عبد الرحمان الغديان |
| راشد بن صالح بن خنين | د. عبد الوهاب بن ابراهيم ابو سليمان |
| محمد بن ابراهيم بن جبير | د. صالح بن عبد الرحمان الاطرم |
| محمد بن زياد آل سليمان | د. صالح بن فوزان الفوزان |
| حسن بن جعفر الاتمي | د. بكر بن عبد الله ابو زيد |

Səudiyyə alimlər hey`ətinin bəyanatının tərcüməsi:

***Əl-həmdu lillah, vəssəlatu vəssəlamu əla Rəsulillah və əla alihi və suhbihi və mənihtəda bihudahu. Əmma bə`d...***

Böyük alimlər hey`ətinin ٢/٤/١٤١٩-cu ildə Taifdə təşkil etdiyi ٤٩-cu yığıncaqda İslami və qeyri-İslami ölkələrdə baş verən hadisələri, o cümlədən, müsəlmanların kafir hesab edilməsi, bomba partlayışları nəticəsində nahaq qanlar axıdılmaları, müxtəlif müəssisələrin dağıdılıb viran edilməsi və s. hadisələri araşdırmışdır. Bunların ardınca gələn nəticələri – istər günahsız insanların qətlə yetirilməsi, istərsə mal-dövlətin tələf edilməsi, eləcə də dinc əhali arasında qorxu və vəhşət yaradılması, asayişin, təhlükəsizliyin aradan aparılması, cəmiyyətdə hərc-mərclik və sarsıntının yaranması və s. nəzər yetirərək Məclis qərara alır ki, bu mövzunun hökmünü bir bəyanatda Allah bəndələrinə qarşı ilahi xeyirxahlığı və vəzifənin yerinə yetirilməsi, İslami məfhumların başa düşməkdə səhvə düçar olan hər kəsin səhvinin aradan qaldırılması və aşkar edilməsi üçün aşağıdakı məsələləri xatırladır və Allah-taaladan tovfiq istəyirik:

١-Təkfir (hər hansı bir şəxsi kafir hesab etmək) şər`i bir hökmdür və onun me`yarı Allah və Onun Rəsulu tərəfindən tə`yin

olunmalıdır. Necə ki, haram, halal, vacib və sair hökmlər Allah tərəfindən tə`yin olunurdu. Eləcə də bə`zi vaxtlar küfrün aid edildiyi danışıq və rəftar (Allahın Kitabı və Peyğəmbər sünnəsində) İslam dinindən xaric olmağa səbəb olan küfrü-əkbər mə`nasında deyildir.

Küfr hökmünün Allah və Peyğəmbər tərəfindən verilməsini əsas tutaraq, bir şəxsi yalnız o zaman kafir hesab etmək caiz olar ki, Allahın Kitabı və Peyğəmbər sünnəsində onun kafir olmasına dair aşkar bir dəlil mövcud olsun və buna şəhadət versin. Bu barədə güman və ehtimal əsla kafi deyildir; çünki bu hökmün ardınca çox ağır cəzalar gəlir. Biz hüdud barəsində *"əl-hüdudu tudrəu biş-şübəhat" (yə`ni şübhə olan yerdə cəza tədbiri götürülür)* qaydasına əsasən, qəti və yəqin şahidlər olmadan tədbir görə bilmədiyimiz kimi, şübhəsiz, təkfir məsələsi də malik olduğu mühüm əsərlərə görə, daha ağır cəza tədbirlərindəndir, buna görə də Peyğəmbər (səlləllahu əleyhi və alih) hamını, həqiqətdə kafir olmayan bir şəxsi kafir hesab etməkdən çəkindirərək buyurmuşdur: ***"Hər kəs öz din qardaşını "ey kafir!" deyə səsləyərsə, onda əgər düz desə, müqabil tərəf Allahın əzabına layiqdir, əgər yalandırsa, ilahi əzab onun özünə çatacaqdır."***

Bə`zən Allahın Kitabı və Peyğəmbər (səlləllahu əleyhi və alih) sünnəsində «filan söz, filan əməl, yaxud da filan e`tiqad küfrə səbəb olur» kimi tə`birlər görünür, halbuki, bu hökmün qarşısını alacaq maneələr mövcuddur. Bu da eynilə digər hökmlər kimidir ki, səbəb və şərtlər mövcud olmayınca və maneə aradan qaldırılmayınca hasil olmur. Misal üçün, irs, qohumluq vasitəsilə baş verən ilahi hökmlərdən biridir, lakin əgər müəyyən bir maneə olsa, məsələn, ayrı-ayrı dindən olmaq kimi, bu hökmün qarşısını alsa, onda irs aparılmır. Həmçinin bə`zən bir şəxsi küfr deməyə məcbur edirlər, halbuki bu, onun küfrünə səbəb olmaz (çünki o, bu işə məcbur edilmişdir). Bə`zən insan şiddətlə xoşhal olduğu, yaxud qəzəbləndiyi üçün küfr deyir (halbuki, təbii halətdən xaricdir). Bu kimi işlər onun küfrünə səbəb olmur, çünki onun məqsədi bu deyilmiş. Bu, eynilə məşhur hadisəyə bənzəyir ki, bir şəxs xoşhallığının şiddətindən «Pərvərdigara, Sən mənim bəndəmsən, mən də Sənin pərvərdigarınam!» - demişdi!

İnsanları təkfir etməkdə tələsməyin çoxlu ağır və təhlükəli

nəticələri vardır, o cümlədən həmin şəxsin qan və malının mübah (halal) hesab edilməsi, onun irsinin qarşısının alınması, ər-arvadın bir-birindən ayrılması və bütün mürtədlik hökmləri. Necə caiz ola bilər ki, bir müsəlman kiçik bir şübhə nəticəsində başqa bir müsəlmana küfr nisbəti versin (və bütün bu məs`uliyyətləri qəbul etsin)?! Bir sözlə, təkfir etməkdə tələsməyin təhlükəli nəticəsi vardır, çünki «Ə`raf» surəsinin ٣٣-cü ayəsinə əsasən:

قُلْ إِنَّمَا حَرَّمَ رَبِّيَ الْفَوَاحِشَ مَا ظَهَرَ مِنْهَا وَمَا بَطَنَ وَالإِثْمَ وَالْبَغْيَ بِغَيْرِ الْحَقِّ وَأَن تُشْرِكُواْ بِاللّهِ مَا لَمْ يُنَزِّلْ بِهِ سُلْطَانًا وَأَن تَقُولُواْ عَلَى اللّهِ مَا لاَ تَعْلَمُونَ

Allaha qarşı hər növ çirkinlik, zülm, şirk, yersiz nisbətlər və dəlilsiz sözlər demək haram hesab edilmişdir.

٢-Bu batil əqidədən (müsəlmanları şirkdə müttəhim etməkdən) hasil olan şey – onların qanının mübah edilməsi, abır-heysiyyət və namusunun ləkələnməsi, mal-dövlətinin qarət edilməsi, binaların, nəqliyyat vasitələrinin, idarə və ticarət mərkəzlərinin partladılması və s. əməllər törətmək müsəlman cəmiyyətində haram və günahdır, çünki insanların mal-dövlətini evlərində, iş yerlərində, gecə-gündüz gedib-gəldiyi yerlərdə asayiş və toxunulmazlığını aradan aparır, cəmiyyətin asayiş və ümumi məsləhətini acınacaqlı vəziyyətə salır.

Halbuki, müqəddəs İslam dini müsəlmanların mal-dövlətini, irz-namusunu və canlarını toxunulmaz, möhtərəm sayır, heç bir şəxsə onların sərhədlərinə təcavüz etmək icazəsi vermir. Peyğəmbər (səlləllahu əleyhi və alih)-in "həccətül-vida"da bütün müsəlmanlara bəyan etdiyi şeylərdən biri də bu idi: *«Sizin bir-birinizin qanı, mal-dövləti və abır-heysiyyəti hamınız üçün möhtərəmdir – eynilə bu günün (Qurban bayramı günü), bu ayın (haram ayın) və bu müqəd-dəs məkanın (Məkkənin) toxunulmazlığı, hörməti kimidir. (Sonra tə`kid ünvanı ilə buyurdu:) Pərvərdigara, şahid ol (ki, mən deməli olduğum şeyləri) dedim.»* Bu hədis bütün mühəddislər tərəfindən qəbul olunmuşdur.

Sonra buyurdu: *"(Bir) müsəlmanın bütün varlığı (sair) müsəlmanlara haram (toxunulmazdır), qanı, malı, namusu, abır-heysiyyəti də. (Sonra buyurdu:) Zülm etməkdən çəkinin, çünki zülm qiyamətdə zülmətlik gətirər.»*

Həmçinin mütəal Allah günahsız şəxsi öldürüb, nahaq qan tökən şəxsləri ən şiddətli cəzalarla təhdid edərək buyurmuşdur:

وَمَن يَقْتُلْ مُؤْمِنًا مُّتَعَمِّدًا فَجَزَآؤُهُ جَهَنَّمُ خَالِدًا فِيهَا وَغَضِبَ اللّهُ عَلَيْهِ وَلَعَنَهُ وَأَعَدَّ لَهُ عَذَابًا عَظِيمًا

***"Hər kəs imanlı bir şəxsi qəsdən qətlə yetirərsə onun cəzası cəhənnəmdir və həmişəlik olaraq orada qalacaqdır, Allah ona qəzəb edib lə`nət göndərəcək və onun üçün ağır cəzalar verəcəkdir."***[١]

Həmçinin, müsəlmanların amanında yaşayan kafirin (zimmi kafir) səhv üzündən olan qətli barəsində buyurmuşdur:

وَمَن قَتَلَ مُؤْمِنًا خَطَئًا فَتَحْرِيرُ رَقَبَةٍ مُّؤْمِنَةٍ

***"O, diyə və kəffarə verməlidir."***[٢]

Bununla belə, görəsən onun qəsdən qətlə yetirilməsinin hökmü necə olacaqdır?! Şübhəsiz, onun təqsiri daha böyük, günahı daha ağır olacaqdır.

Səhih bir hədisdə Peyğəmbər (səlləllahu əleyhi və alih)-dən nəql olunur ki, müsəlmanlarla əhd-peyman bağlayan qeyri-müsəlman bir şəxsi qətlə yetirən şəxs behiştin iyini heç vaxt duymayacaqdır! (Behişt ona nəsib olmayacaqdır.)

٣-Bu məclis Allahın Kitabı və Peyğəmbər (səlləllahu əleyhi və alih) sünnəsindən heç bir dəlili olmadan camaata küfr nisbəti verməyin acınacaqlı tə`sir və onun ardınca gələn günahlara nəzər yetirməklə, bütün dünya xalqlarına e`lan edir ki, İslam dini bu cür batil əqidələrdən pak-pakizədir. Bə`zi ölkələrdə günahsız insanların qanının axıdılması, yaşayış məskənlərinin və maşınların partladılması, ümumi və xüsusi binaların, zavod-fabriklərin və s. yerlərin dağıdılmasına gəldikdə isə, bunu cinayətkar və təxribatçı əməl hesab edir ki, İslam ondan bizardır, həmçinin Allaha və qiyamət gününə imanlı olan hər bir müsəlman bu kimi əməllərdən bizardır. Bu yalnız o kəslərin işidir ki, inhirafçı fikirlərə malik olub yolunu azmış olsunlar. Bunların günahı və təqsiri də onların öz öhdəsinədir. Bunları heç vaxt İslamın hidayəti ilə hidayət olunan, Allahın Kitabına və Peyğəmbər (səlləllahu əleyhi və alih) sünnəsinə tabe olan

[١] «Nisa» surəsi, ayə:٩٣.
[٢] «Nisa» surəsinin ٩٢-ci ayəsinə işarədir.

müsəlmanların öhdəsinə qoymaq olmaz. Bu işlər fəsad və böyük cinayətdir ki, İslam şəriəti və insanın pak fitrəti onu qəbul etmir.

Buna görə də İslami rəvayətlərdə bu əməl qəti şəkildə qadağan edilmiş, bu kimi insanlarla oturub-durmaqdan çəkindirilmişdir.

Bu bəyanat İslam dininin məhəbbət, dostluq, qarşılıqlı həmkarlıq, yaxşılıq, təqva, məntiqi danışıq və hikmətli sözlərlə yanaşı və hər növ terrorçuluqdan kobudçuluqdan uzaq olmasını göstərən ayə və rəvayətlərin bəyanı ilə sona çatdırılmışdır.[١]

## BU BƏYANAT BARƏSİNDƏ QISA TƏHLİL

Ərəbistan vəhhabilərinin ən yüksək məzhəbi məqamlarının imzası ilə öz əsrində, yə`ni Əbdül Əziz ibni Əbdüllah ibni Bazzın əsrində, iyirmi nəfər ən böyük alim tərəfindən imzalanan və bu məşhur vəhhabi məzhəbli alimin ölümündən bir qədər qabaq nəşr olunan bu bəyanatdakı mühüm məsələlərdən bə`zilərinə aşağıda işarə edirik:

١-Yaxşı olardı ki, həmin bəyanat bu qədər qan axıdılmasından, insanların təhqir və mal-dövlətlərinin qarət edilməsindən öncə yayılaydı, lakin «zərərin yarısından da qayıtmaq faydalıdır». Buna nəzər yetirməklə, bu təqdirəlayiq iş şəriət göstərişlərinə tabeçiliyi iddia edən ifratçılar qarşısında höccəti çox güclü və aşkar şəkildə tamam edir və aydınlaşdırır ki, bu bəyanata tabe olmayanlar İslamın göstərişlərinə deyil, öz həvayi-nəfslərinə tabeçilik edirlər. Bir sözlə, İslam bu kimi əməllərdən və işlərdən bizardır!

٢-Bu bəyanat əməli olaraq Şeyx Məhəmməd ibni Əbdül-Vəhhabın fikir və əqidələrinin tənqid edilməsinə yol açır, hətta vəhhabilər də, onun ehtiramını qoruyub-saxlamaqla, fikirlərini tənqid edə, vəhhabiyyət ayinində daha mö`tədil olan bir sistemə qayıda bilərlər ki, dünyanın sair müsəlmanları ilə yaxşı əlaqə qura bilsinlər.

٣-Gözəl tə`birlərlə yanaşı olan bu bəyanat vəhhabi ifratçılarına e`lan edir ki, müsəlmanları kafir saymaq dövrü artıq keçib getmişdir, onların fikirləri ilə müvafiq olmayan hər şəxsi küfrlə müttəhim

---

[١] Bu bəyanat Səudiyyə Ərəbistanının bir çox qəzet və jurnallarında nəşr olunmuşdur. Biz onu "Mö`cəmu təbəqatil-mütəkəllimin", kitabı, ٤-cü cild, səh.١٠٠-dən nəql etmişik.

etmək, onun canını, malını və namusunu xətərə salmaq olmaz; əksinə, bu işlər həmin işləri görənlərin kafirliyinə səbəb ola bilər.

٤-Bu bəyanat İslam dünyasına gözəl bir xidmət olub, bu qrupun İslam barəsində dünyaya təqdim etdiyi kobud və xoşagəlməz çöhrəni müəyyən qədər islah edərək e`lan etmişdir ki, həqiqi müsəlmanlar bu işlərdən bizardırlar. Bu terrorist əməllərinin mənfi nəticələrinin aradan qaldırılması uzun illər çəkəcək və çox asanlıqla mümkün deyildir, lakin kilsə rəhbərləri və sionist başçılarının əlinə gözəl bir bəhanə vermişdir ki, onu İslamın həqiqi siması kimi təqdim etsinlər, dünya əhalisini onunla qorxutsunlar. Allaha pənah aparırıq cəhalət üzündən olan ziyanlardan! Ümidvarıq ki, Allah hamını düzgün yola hidayət və şeytanın tələsindən xilas edəcək!

## HİCAZ ALİMLƏRİNƏ DOSTCASINA TÖVSİYƏ

Biz mö`tədil yolu seçən vəhhabi alimlərinin hamısına dostcasına tövsiyə edirik ki, vəhhabiyyət prinsiplərinə yeni baxılmasına şərait yaranan hazırkı tarixi şəraitdə bu fürsətləri əldən verməsinlər, onlarla sair dünya müsəlmanları arasında yaranan və düşmənin istifadə etdiyi dərin ixtilaf və anlaşılmazlıqları aradan qaldırsınlar və bu boşluqları ayıqlıqla doldursunlar.

Biz aşağıdakı məsələləri dostcasına təklif olaraq irəli sürürük:

١-Müsəlmanları şirk və küfrlə müttəhim etməyi heç olmazsa, ictihadi məsələ hesab olunsun deyə, məhkum etsinlər, Qur`anın buyurduğu

وَلاَ تَقُولُواْ لِمَنْ أَلْقَى إِلَيْكُمُ السَّلاَمَ لَسْتَ مُؤْمِنًا تَبْتَغُونَ عَرَضَ الْحَيَاةِ الدُّنْيَا

kəlamını bütün ardıcıllarına tövsiyə etsinlər.

٢-İraq, Pakistan, Əfqanıstan və hətta Ərəbistanın özündə və sair məntəqələrdə baş verən vəhşilik və terrorist əməliyyatlarını şiddətlə məhkum etsinlər. Bu terrorist və yaramaz əməllər böyük dağıntılara səbəb olmaqdan əlavə, günahsız müsəlmanların – qadın-kişi, uşaq, qoca və cavan, sünnü-şiə – qanlarını axıdır.

Gələcəkdə bütün dünyanın vahid dini olan İslam iftixarını bədnam etməsinlər, İslamın və müsəlmanların əleyhinə ən yaxşı təbliğat vasitələrini düşmənlərin əlinə verməsinlər, İslam alimləri, mübəlliğləri və agah yazıçıların İslamı yaymaq yolunda çəkdiyi

bütün zəhmətləri puça çıxarmasınlar. Bəli, bunların hamısını məhkum edərək Qur`anda qeyd olunan «hərs və nəslin həlak olması» hesab etsinlər.

٣-Özlərilə sair İslam alimləri arasında qarşılıqlı ehtiram, dostluq və məntiqi danışıq yolunu, hər növ təhqir, şirk, cəhalət və töhmətdən uzaq olan dialoq yolunu açsınlar, ixtilaflı məsələlərdə bəhs edib *«yəstəmiunəl-qovlə fəyəttəbiunə əhsənəh»* ayəsini qəbul etsinlər.

٤-Özlərinin ideoloji və coğrafi sərhədlərini sair İslam məzhəblərindən olan elmi və məntiqi kitabların üzünə açsınlar, bu işdə özləri üçün heç bir təhlükə hiss etməsinlər və İslam ölkələrinin elmiyyə hövzələri və tələbələr arasında fikir mübadiləsi aparsınlar.

٥-Özlərilə sair müsəlmanlar arasında olan e`timadsızlıq, sui-zən, bədbinlik pərdələrini aradan qaldırsınlar, bir-birinin elmiyyə hövzələrinə gediş-gəliş etsinlər, İslamın müxtəlif məsələləri barədə təşkil olunan konfranslarda iştirak etmək üçün dünyanın hər yerində hazırlıqlarını e`lan etsinlər.

٦-Öz dostlarını mütləqçilik fikrindən çəkindirsinlər, yə`ni özlərinin füruiddin və üsuliddin müqabilində olan ictihadlarını İslamın həqiqəti hesab etmək, başqalarını isə küfr, zəlalət, bid`ətçi hesab etmək kimi məsələlərdən uzaq olsunlar və ***"və ma utiytum minəl-elmi illa qəlilən"*** – ayəsinə əməl etsinlər.

Əgər qeyd olunan bu altı təklifə əməl etsələr ümidvarıq ki, müsəlmanların arasındakı vəhdət möhkəmlənəcək, Allahın ipinə sarılmaq kamilləşəcək və *"Liyuzhirəhu ələddini kulluh"* ayəsi gerçəkləşəcək. O günün ümidi ilə!

Vəllahul-müstəan

Son<br>Məhərrəm, ١٤٢٦<br>Nasir Məkarim Şirazi

MÜNDƏRİCAT


AYƏTULLAHÜL ÜZMA NASİR ............................................................................١

BİRİNCİ FƏSİL.................................................................................................٢

SÜQUT AMİLLƏRİ .........................................................................................٢

VƏHHABİYYƏT ÖZ ÖMRÜNÜN AXIRLARINA YAXINLAŞIRMI?!٢

١-SON DƏRƏCƏ QANSIZLIQ VƏ KOBUDLUQ.................................٣

TALİBAN QRUPU .........................................................................................٤

SƏHABƏ ORDUSU .........................................................................................٨

İRAQDA TERROR ƏMƏLİYYATLARI .............................................١١

VƏHHABBİLƏRİN ÖZ MƏRKƏZİNDƏ TERRORİZM ....................١١

VƏHHABİ RƏHBƏRLƏRİNİN TƏ`LİMLƏRİNDƏ TERRORİZMİN KÖKÜ ..............................................................................................................١٣

QƏTL-QARƏT ÜÇÜN İCAZƏ!...........................................................١٨

TERRORİZM VƏ İSLAMIN KÖKSÜNƏ ENDİRİLƏN AĞIR ZƏRBƏLƏR ..............................................................................................................١٨

QƏRİBƏ TƏZAD ..........................................................................................١٩

AŞKAR ŞƏKİLDƏ E`LAN EDİRİK.....................................................٢٠

٢-ƏQİDƏNİN ZORLA QƏBUL ETDİRİLMƏSİ .................................٢١

ACI BİR XATİRƏ ..........................................................................................٢٢

ALLAH EVİNİN İDARƏÇİLƏRİNİN ƏSL VƏZİFƏLƏRİ.................٢٤

ƏQİDƏNİN ZORLA QƏBUL ETDİRİLMƏSİNİN ƏN PİS HALLARI٢٦

ZİYALI VƏ MÖ`TƏDİL VƏHHABİLƏR ........................................... ٢٨

İFRATÇI VƏ ŞİDDƏTLİ TƏƏSSÜB ................................................. ٢٩

٤-MƏDƏNİ DƏYƏRLƏR BARƏDƏ AGAHLIĞIN OLMAMASI ..... ٣٢

İSLAM TARİXİNİN ƏN DƏYƏRLİ ƏSƏRLƏRİNİN MƏHV EDİLMƏSİ ............................................................................................................ ٣٢

DİGƏR BİR TƏZAD: NƏ ÜÇÜN PEYĞƏMBƏRİN MÜBARƏK QƏBRİ HƏLƏ DƏ QALIR?! ........................................................................... ٣٣

٥-DONUŞLUQ VƏ HƏR NÖV YENİLİKLƏ MÜXALİFƏT ............. ٣٤

DİGƏR BİR TƏZAD! ......................................................................... ٣٨

İBNİ TEYMİYYƏNİN MÜVƏFFƏQİYYƏT QAZANA BİLMƏMƏSİ DƏLİLLƏRİ ...................................................................................... ٣٩

٦-ALTI QUR`AN KƏLMƏSİNDƏN YANLIŞ ÇIXARIŞLAR VƏ MƏNTİQ ZƏİFLİYİ ....................................................................................... ٤٣

TƏNQİD VƏ MÜLAHİZƏLƏR .......................................................... ٤٥

a) Şİrkİn məfhumu ........................................................................... ٤٦

ƏLAVƏ İZAH ..................................................................................... ٤٨

z) İBADƏTİN MƏFHUMU ................................................................. ٥٣

q) ŞƏFAƏTİN MƏFHUMU ................................................................ ٥٤

YERSİZ BƏHANƏLƏR... ................................................................... ٥٧

d) QUR`ANDA DUANIN MƏFHUMU ................................................ ٥٩

Nəticə.................................................................................................٦٣

e) QUR`ANDA VƏ SÜNNƏDƏ BİD`ƏT..............................................٦٤

İKİNCİ FƏSİL..........................................................................................٧٠

HƏRƏMEYNİŞ-ŞƏRİFEYN (İKİ ŞƏRİF HƏRƏMİN) FƏRYADLARI٧٠

١-MƏKKƏDƏN UCALAN FƏRYADLAR..........................................٧٠

SEYYİD MƏHƏMMƏD İBNİ ƏLƏVİNİN ŞÜCAƏTLİ TƏNQİDLƏRİ٧٠

Kİtaba haşİyə və müqəddİmə yazanların nümunələrİ............................٧١

KİTABIN MÖHTƏVASI.........................................................................٧٣

Birinci mehvər........................................................................................٧٣

İkİncİ mehvər...........................................................................................٧٥

Üçüncü mehvər........................................................................................٧٥

Lazımİ xəbərdarlıqlar...............................................................................٧٦

YENİ VƏHHABİLƏR.............................................................................٧٧

a) Yeni vəhhabi sinfi................................................................................٧٧

b) Ğulatların təhlükəsi..............................................................................٧٩

٢-DİGƏR ŞÜCAƏTLİ BİR YAZIÇININ FƏRYADLARI....................٨٠

«Daİyətun və leysə nəbİyyən» kİtabı! (o, peyğəmbər deyİl, İslahatçı İdİ).٨٠

«Daİyətun və leysə nəbİyyən» kİtabının xülasəsİ...................................٨٤

Yuxarıdakı müqəddimələr aydın olduqdan sonra, bu kitabın xülasəsini qeyd edirik.....................................................................................................٨٤

«KƏŞFUŞ-ŞÜBƏHAT» KİTABININ TƏNQİDİ..................................٨٥

SALEH ŞƏXSİYYƏTLƏR BARƏSİNDƏ ĞULUV VƏ İFRATÇILIQ٨٥

ŞEYXİN SÖZLƏRİNDƏ ZİDDİYYƏTLƏR ......................................٨٨

VƏHHABİ RƏHBƏRLƏRİN ƏN MÜHÜM İTTİHAMLARI..............٩١

SON SÖZ! .........................................................................................٩٥

SƏUDİYYƏ ƏRƏBİSTANININ BÖYÜK ALİMLƏR HEY`ƏTİNİN

vəhhabİlərİn terrorİst əməllərİnİ məhkum etməklə əlaqədar BƏYANATI٩٥

BU BƏYANAT BARƏSİNDƏ QISA TƏHLİL .................................. ١٠٢

HİCAZ ALİMLƏRİNƏ DOSTCASINA TÖVSİYƏ .......................... ١٠٣